**Azərbaycan Respublikası Təhsil Nazirliyi**
**Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu**

# AZƏRBAYCAN RESPUBLİKASININ ÜMUMTƏHSİL MƏKTƏBLƏRİ ÜÇÜN ÜMUMİ TARİX FƏNNİ ÜZRƏ TƏHSİL PROQRAMI (KURİKULUMU)

## (VI-XI siniflər)

**Bakı – 2013**

Ümumi tarixi fənni üzrə təhsil proqramı (kurikulumu) aşağıdakı tərkibdə yaradılmış işçi qrupu tərəfindən hazırlanmışdır.

Sədr: Yaqub Mahmudov - AMEA-nın Tarix İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, tarix üzrə elmlər doktoru, əməkdar elm xadimi, professor, Qabil Bəşirov - ADPU-nin müəllimi, tarix üzrə fəlsəfə doktoru, **Rafiq Xəlilov**-ADPU-nin baş müəllimi, **Əkbər Qocayev** - H.Əliyev adına MTK-nın kafedra müdiri, əməkdar müəllim, Ramiz Hüseynov- ARTPİ-nin bölmə müdiri, Sevil Bəhrəmova – layihənin koordinatoru, ARTPİ-nin böyük elmi işçisi, Vəli Əliyev – ADPU - nun kafedra müdiri, tarix elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü, Oktay Sultanov-ADPU-nun kafedra müdiri, tarix üzrə elmlər doktoru, professor, İntiqam Cəbrayılov - ARTPİ-nin şöbə müdiri, pedaqogika üzrə elmlər doktoru, Ofeliya Musayeva - Bakı şəhəri 279 №-li tam orta məktəbin müəllimi, "Ən yaxşı müəllim"müsabiqəsinin qalibi, Nazim Zeynalov - Bakı şəhəri 88 №-li tam orta məktəbin müəllimi, "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi, Hafiz Cabbarov-Bakı şəhəri Heydər Əliyev adına liseyin müəllimi, "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi, Asəf Həziyev - Bakı şəhəri Heydər Əliyeva adına liseyin müəllimi, Sevinc Səfərəliyeva-Bakı şəhər 132-134 №-li məktəb-liseyin müəllimi, əməkdar müəllim, Nizami Heydərov-Bakı şəhəri 245 №-li tam orta məktəbin müəllimi, "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi, Babək Xubyarov- Bakı şəhəri 158 №-li tam orta məktəbin müəllimi, əməkdar müəllim, Həcər Əlişova-Bakı şəhəri 171 №-li tam orta məktəbin müəllimi, "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi, Aida Məmmədova-Bakı şəhəri 31 №-li məktəbin müəllimi, "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi, Zenfira Məhəmmədova-Bakı şəhəri Akademik Zərifə Əliyeva adına liseyin müəllimi, "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi, Leyla Hüseynova-Bakı şəhəri MTK-nın müəllimi, "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi, Nərgiz Məmmədova-Bakı şəhəri 248 №-li tam orta məktəbin müəllimi, İsgəndər Yaqubov-Bakı şəhəri 287 №-li məktəb-liseyin müəllimi, Pərvanə Xəlilova-Bakı şəhəri 190 №-li tam orta məktəbin müəllimi, "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi, Leyla Mürsəlova-Bakı şəhəri 34 №-li orta məktəbin müəllim, Adiləxanım Manafova - Bakı şəhəri 219 №-li 3 tam orta məktəbin müəllimi, Elmin İmanov - Bakı şəhəri 6 №-li məktəb-liseyin müəllimi, Bəxtiyar

İsrafilov-Bakı şəhəri 257 №-li tam orta məktəbin müəllim, Sevinc Əliyeva-Bakı şəhəri 300 №-li tam orta məktəbin müəllimi, Nailə İsmayılova-Bakı şəhəri 18 №-li tam orta məktəbin müəllimi, Arifə Bağırova-Bakı şəhəri 98 №-li tam orta məktəbin müəllimi, Aydın Allahverdiyev-Bakı şəhəri 72 №-li tam orta məktəbin müəllimi, Sabir Agayev -BPKİA və YHİ-nun kabinet müdiri, Rauf Məlikov - AMEA-nın Tarix İnstitutunun elmi işcisi, tarix üzrə fəlsəfə doktoru, Marina Musayeva - Anadolu liseyinin müəllimi, Fəranə Əliyeva-Bakı şəhəri 150 №-li tam orta məktəbin müəllimi, Ülvi Quliyev - Bakı şəhəri 171 №-li tam orta məktəbin müəllimi, Müşfiq Əlizadə - Atatürk liseyinin müəllimi, Cəmalə Əsgərova- Bakı şəhəri 201 №-li tam orta məktəbin müəllimi, Gülsən Soltanova - Bakı şəhəri 190 №-li tam orta məktəbin müəllimi, Amənə Kərbalayeva-Bakı şəhəri 201 №-li tam orta məktəbin müəllimi, Röya Yaqubova - Bakı şəhəri 272 №-li tam orta məktəbin müəllimi, Ədibə Şahgəldiyeva - "Ankara məktəbi" məktəb liseyinin müəllimi, Elməddin Quliyev - Zəngilan rayonu 10 №-li tam orta məktəbin müəllimi.

**Təhsil proqramının (kurikulumun) internet üçün hazırlanmasına məsul olanlar:**

**Akif Əliyev,** ARTPİ-nin Ümumi orta və tam orta təhsilin kurikulumu şöbəsinin müdiri, pedaqoji elmlər üzrə fəlsəfə doktoru

**Ramiz Hüseynov,** ARTPİ-nin Ümumi orta və tam orta təhsilin kurikulumu şöbəsinin Humanitar fənlərinin təlimi bölməsinin müdiri

**Sevil Bəhrəmova,** ARTPİ-nin Humanitar fənlərin təlimi bölməsinin böyük elmi işçisi

## Mündəricat

**Giriş**

**I.Ümumi tarix təliminin məzmunu**

1.1. Ümumi təlim nəticələri

1.2. Məzmun xətləri

1.3. Məzmun xətləri üzrə təlim nəticələri

1.4. Fəaliyyət xətləri

1.5. Məzmun standartları

V sinif

VI sinif

VII sinif

VIII sinif

IX sinif

X sinif

XI sinif

1.6. Fəndaxili və fənlərarası inteqrasiya

**II. Təlim strategiyaları**

2.1. Ümumi tarix təliminin təşkilinə verilən əsas tələblər

2.2. Ümumi tarix təliminin təşkilində istifadə olunan forma və üsullar barədə

2.3. Müəllimin təlim fəaliyyətinin planlaşdırılmasına dair nümunələr

2.4. Ümumi tarix fənninin məzmun standartlarının şərhi

**III. Şagird nailiyyətlərinin qiymətləndirilməsi**

**Tezaurus**

**Resurslar**

**İstifadə olunmuş ədəbiyyat**

## GİRİŞ

**Ümumi tarix fənni üzrə təhsil proqramı (kurikulumu) və onun xarakterik cəhətləri.** Ümumi tarix fənni üzrə təhsil proqramı (kurikulumu) bu fənnin məqsəd və vəzifələrini, onun əhəmiyyətini, fənnin özünəməxsus cəhətlərini, ümumi orta və tam orta təhsil səviyyələri üzrə ümumi təlim nəticələrini, fənn üzrə məzmun xətlərini və onların əsaslandırılmasını, hər bir sinif üzrə ümumi təlim nəticələrini (əsas məzmun standartlarını), fəndaxili və fənlərarası inteqrasiyanı, təlim strategiyalarını, qiymətləndirmə nümunələrini əhatə edən sənəddir.

Ümumi tarix fənni üzrə təhsil proqramı (kurikulumu) "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu)" əsasında hazırlanmış, oradakı standartların reallaşdırılmasına yönəldilmişdir. Kurikulumda tarix fənni üzrə ümumi təlim nəticələri, öyrənmə strategiyaları və idarəetmə mexanizmləri əhatə edilmişdir.

Müasir dövrdə fənn üzrə üzrə təhsil proqramın (kurikulumun) hazırlanması cəmiyyətdə baş verən bir sıra sürətli dəyişikliklərlə bağlıdır. Həmin dəyişikliklər aşağıdakılardan ibarətdir:

- insanların iqtisadi fəaliyyətində elm, təhsil və texnologiyaların üstün rol oynaması;
- informasiyanın dünya iqtisadiyyatının əsas resurslarından birinə çevrilməsi; milli, regional və dünya iqtisadiyyatının informasiya texnologiyaları və telekommunikasiyalar əsasında inteqrasiyası;
- cəmiyyətin bütün sosial sahələrini əhatə edən informasiya texnologiyalarının fasiləsiz olaraq tətbiqi və yeniləşməsi;
- peşə məşğuliyyətində gedən struktur dəyişiklikləri, həmçinin informasiyanın istehsalı, yayılması, mühafizəsi ilə bağlı olan sosial qrupların cəmiyyətdə üstünlük təşkil etməsi
- şəxsiyyətin, sosial təbəqələrin və bütövlükdə cəmiyyətin sosial statusunun müəyyən edilməsində təhsilin əsaslı rol oynaması.

Bu dəyişikliklər cəmiyyətin üstün inkişafını səciyyələndirməklə, onu həyata keçirən, formalaşdıran insanın təfəkkür, əxlaqi-mənəvi cəhətdən yetkinləşməsini, dünyagörüşünə yiyələnməsini mühüm tələb kimi qarşıya qoyur. Tarixi fakt və

hadisələrin, şəxsiyyətlərin bu prosesdə faydalılığı daha qabarıq görünür. Onları sadəcə sadalamaq, yadda saxlamaq deyil, müqayisələr aparmaq, analiz, sintez etmək, ümumiləşdirməklə şəxsiyyətin inkişafına yönəltmək mühüm vəzifələrdən birinə çevrilir. Bu mənada ümumi tarix fənni kurikulumunun şəxsiyyətyönümlü xarakteri onun müasir səciyyəvi keyfiyyətlərindən biri kimi qeyd olunur.

Nəticəyönümlülük ümumi tarix fənni kurikulumunun əsas cəhətlərindən biridir. Bu, daha çox kurikulumlardakı məzmun standartlarının mahiyyəti və məzmunu ilə xarakterizə olunur, həmin standartlardakı zəruri bilik və fəaliyyətlərin ifadə tərzində öz əksini tapır. Bunlar mahiyyət etibarilə gözlənilən nəticələrdir ki, kurikulumda həm təhsil səviyyələri, həm də siniflər üzrə müəyyənləşdirilmişdir. Onlar ümumi tarix üçün xarakterik olan beş ən mühüm ümumi anlayışla (tarixi zaman, tarixi məkan, dövlət, şəxsiyyət, mədəniyyət) ümumiləşdirilərək təsnif olunmuşdur. Təhsil proqramılarında (kurikulumlarda) həmin ümumiləşdirmələr məzmun xətti adlanır.

Ümumi tarix fənni üzrə təhsil proqramı (kurikulumu) mahiyyət etibarilə həm də konseptual xarakter daşıyır. Orada təlim strategiyası və qiymətləndirmə məsələlərinə ümumi tələblər səviyyəsində yanaşılır.

Respublikada ümumi tarixin təlim sisteminə istiqamət vermək məqsədi əsas götürülür. Onun bölgələrdə və məktəblərdə məktəb kurikulumu formasında konkretləşəcəyi diqqət mərkəzində saxlanılır.

Qeyd olunan xüsusiyyətlər ümumi tarix fənni üzrə təhsil proqramının (kurikulumun) bir təhsil sənədi olmaqdan əlavə, həm də ictimai-kütləvi xarakterini meydana çıxarır. Bu sənəd təhsildə maraqlı olan əsas tərəflərdən biri kimi valideynlər üçün də əhəmiyyət daşıyır. Onlar övladlarının inkişafını məhz bu sənəd əsasında izləyir, istiqamətləndirirlər.

Bundan əlavə, gənc nəslin formalaşmasında maraqlı olan hər kəsin kurikulumlardan istifadə edə bilməsi də diqqət mərkəzində saxlanılmışdır.

**Fənnin əhəmiyyəti, məqsəd və vəzifələri.** Tarix ən qədim zamanlardan bu günümüzə qədər cəmiyyətin meydana gəlməsini, inkişaf tarixini, mərhələlərini araşdırır, sistemləşdirir, tarixi zaman, tarixi məkan səviyyəsində onları dəyərləndirir, mədəniyyətlərin, dövlətlərin, şəxsiyyətlərin rolunu müəyyənləşdirir. Ümumi tarix

fənninin əsas məzmununun formalaşdırılmasında tarix elminin bu nailiyyətlərinə istinad olunur. Tarixi anlayışlar, hadisə və faktlar baza bilikləri kimi müəyyənləşdirilir.

Bunlarla yanaşı, ümumi tarix fənni pedaqoji anlayış kimi həm də pedaqogikanın, psixologiyanın, fiziologiyanın zəruri tələblərinə cavab vermək üçün bir sıra keyfiyyətləri ehtiva edir. Bu mənada ümumi tarix inteqrativ fənn xarakteri daşıyır və fundamental tarix elmindən fərqlənir.

Yeni sisteminin qurulduğu hazırkı şəraitdə fənlərin də rolu dəyişir. Onlar şəxsiyyəti idraki və əxlaqi-mənəvi cəhətdən formalaşdıran vasitəyə çevrilməkdədir. Ümumi tarix də bu prosesdə aşağıdakı xüsusiyyətlər baxımından əhəmiyyət daşıyır:

- tarixi fakt və hadisələrin ümumiləşdirmə, təsnifetmə, induksiya, deduksiya kimi məntiqi əməliyyatlar vasitəsilə təhlil edilməsi;
- yaradıcı fəaliyyət təcrübəsi;
- tarixi faktların təhlilinə müxtəlif mövqelərdən yanaşılması və qiymətləndirilməsi;
- əsas tarixi fakt və hadisələrin, onlar arasındakı səbəb-nəticə əlaqələrinin açılması;
- ayrı-ayrı tarixi faktlarda ictimai inkişafın ümumi qanunauyğunluqlarına məxsus əlamətlərin müəyyənləşdirilməsi;
- hər bir tarixi faktın xarakterinə görə aydınlaşdırılması və proqnozların verilməsi.

Bütün bunlarla yanaşı, müasir dövr məktəblidən həm də başqalarının fikirlərinə hörmətlə yanaşmağı, sosial şəraitindən asılı olmayaraq insanların düşdüyü vəziyyəti başa düşməyi, onlara həssas yanaşmağı, kollektivdə əməkdaşlıq etməyi, ətrafındakı situasiyanı düzgün təhlil edərək uğur qazanmağı, tolerantlığı tələb edir. Bu baxımdan bir fənn kimi tarixin geniş imkanları vardır.

Ümumi tarix fənni şagirdlərə keçmiş və müasir dövrün problemlərini tədqiq etmək, inkişafın səbəb-nəticə əlaqələrini və xüsusiyyətlərini dərk etmək, sosial-siyasi, iqtisadi və mədəni proseslərin bir-biri ilə qarşılıqlı təsirini öyrənmək imkanı yaradır. Tarixi keçmişi öyrənməklə şagirdlər müasirliyi dərk edirlər, başqa sözlə, tarixi

keçmişdən bu gün üçün dərs alırlar, çünki mahiyyət etibarilə tarixi keçmişin və müasir dövrün dərk edilməsinin məntiqi yolu eynidir.

Ümumi tarix dərslərində şagirdlər cəmiyyətin meydana gəlməsini, onun zaman və ətraf aləmlə əlaqədə inkişafını, quruluşunu, insan-cəmiyyət, zaman-məkan qarşılıqlı əlaqələrini öyrənirlər.

Bu fənn şagirdlərə dünyanı sevməyi və qorumağı, cəmiyyətdəki proseslərə fəal münasibət bəsləməyi, müxtəlif zamanları fərqləndirməyi, öz dövrünü və özünü daima dəyişən dünya ilə əlaqələndirməyi öyrədir.

Bundan əlavə, ümumi tarix şagirdlərdə insanlara, maddi və mənəvi mədəniyyətin inkişafı sahəsində onların işinə hörmət hissi tərbiyə etmək, ictimai inkişafın müxtəlif problemləri ilə əlaqədar tədqiqat aparmaq və onların həlli yollarını tapmaq, əməkdaşlıq etmək, tənqidi düşünmək, hadisə və təzahürlərin inkişafının nəticələrini proqnozlaşdırmaq, düşdüyü şəraitdən baş açmaq, düzgün qərarlar qəbul etmək və b. bacarıqları formalaşdırmağa imkan verir.

Ümumtəhsil məktəbində ümumi tarix fənninin tədrisinin əsas məqsədi məktəblilərdə fəal həyat mövqeyi, vətənpərvərlik, digər xalqlara, ümumbəşəri dəyərlərə hörmət, mənəvi və mədəni nailiyyətlərə əsaslanan əqidə prinsipləri, Azərbaycan və bütün dünya xalqlarının ənənələrinə və mədəniyyətlərinə qarşı humanizm hissi, dövlətçilik ənənələrinə hörmət formalaşdırmaq üçün onlarda keçmiş və müasir dövr hadisələrini sərbəst təhlil etmək, faktların ümumiləşdirilməsi, əldə olunan biliklərdən cəmiyyətin müasir vəziyyətinin qiymətləndirilməsində istifadə, tarixi mənbə, müxtəlif fikir, mövqe və konsepsiyaları sərbəst təhlil etmək, başqalarının fikirlərinə hörmət etmək bacarıq və vərdişləri aşılamaqla kommunikativ, təfəkkür və hüquqi mədəniyyət formalaşdırmaqdan ibarətdir.

Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin həyata keçirilməsi zəruri hesab edilir:

- tarixə dair bilik mənbələrinin üzərində müstəqil işin təşkili;
- tarixi hadisə və faktların araşdırılması, qiymətləndirilməsi;
- tarixi prosesi və ictimai həyatın müxtəlif cəhətlərini xarakterizə edən ən mühüm faktların seçilməsi və ümumiləşdirilməsi;

- tarixi faktların  mülahizələrdən fərqləndirilməsi və əsaslandırılması;
- tarixi faktların müxtəlif mövqedən qiymətləndirilməsi;
- tarixi fakt və hadisələrin əsasında qərarların qəbul edilməsi və təqdim olunması;
- insan hüquqlarına, demokratik dəyərlərə, xalqların tarix və mədəniyyətinə, milli-mənəvi dəyərlərə, vətənə hörmət hissinin formalaşması;
- bəşəriyyətin mənəvi irsinin qorunması, zənginləşdirilməsi, hörmət və sədaqətin tərbiyəsi.

Ümumtəhsil məktəblərində Ümumi tarix fənninin təlimi vasitəsilə şagirdlərdə:

**ümumi orta təhsil səviyyəsində** dünya tarixinin sivilizasiyayaqədərki dövrü, müxtəlif dövrlərdə insan birliklərinin yaranması, dövlətin meydana gəlməsi və sivilizasiyaların formalaşması, bəşər sivilizasiyasının formalaşmasında ayrı-ayrı dövlətlərin və xalqların rolu, sivilizasiyaların tənəzzülü və dağılmasının ictimai-iqtisadi, siyasi səbəbləri, ümumbəşəri, əxlaqi-mənəvi və maddi mədəniyyətlər haqqında sistemli məlumatların mənimsənilməsi təmin olunur, şagirdlərdə tarixi hadisələrə obyektiv mövqedən yanaşma, onları müvafiq zaman və məkan kontekstində qiymətləndirmək bacarıqları formalaşdırılır;

**tam orta təhsil səviyyəsində** ümumi orta təhsil səviyyəsindəki fəaliyyətləri genişləndirməklə tarixi inkişafa və sivil mədəniyyətə nümunə ola biləcək, habelə tarixən bağlı olduğumuz ölkələrin və xalqların tarixində baş verən mühüm məqamlar, sosial-iqtisadi, siyasi və mədəni proseslər, beynəlxalq münasibətlər, cəmiyyətlərin inkişafının islahat və inqilab yolları, aqrar sivilizasiyadan sənaye sivilizasiyasına keçid, müasir informasiya cəmiyyəti, dünyada gedən inteqrasiya prosesləri, bəşəriyyəti narahat edən qlobal problemlər haqqında ümumi məlumatlar mənimsənilir, şagirdlərdə sosial-iqtisadi və siyasi prosesləri, cəmiyyət və şəxsiyyət münasibətlərini səciyyələndirən faktları, siyasi və ictimai hərəkatlar, ictimai inkişafda maddi və mənəvi mədəniyyətin, insan amilinin rolu haqqında informasiyaları sistemləşdirmək və təqdim etmək bacarıqları formalaşdırılır.

"Təhsil haqqında" Azərbaycan Respublikasının qanununun tələblərinə müvafiq olaraq icbari təhsil ümumi orta təhsil bazasında tamamlandığından  respublikanın

ümumtəhsil məktəblərində ümumi tarix üzrə təlimin məzmunu əvvəlki dövrlərdən fərqli olaraq konsentrik prinsipə əsasən aşağıdakı qaydada qurulmuşdur:

**Ümumi orta təhsil səviyyəsi:**

- VI-IX siniflərdə sivilzasiyaların inkişafı nöqteyi nəzərindən müvafiq bölmələr üzrə xronoloji ardıcıllıq gözlənilməklə ümumi tarixin ən qədim dövründən bu günə qədərki hadisə, proses və təzahürlərə əsasən təlim fəaliyyətinin qurulması.

**Tam orta təhsil səviyyəsi:**

- X-XI siniflərdə ümumi tarixin keçmişini və müasir dövrünü, sivilzasiyaların inkişafında rolunu, qlobal problemlərin həllində mövqeyini dəyərləndirməyə imkan verən təlim materiallarına əsasən fəaliyyətlərin qurulması.

## I. Ümumi tarix fənni üzrə təlimin məzmunu

### 1.1. Ümumi təlim nəticələri

**Ümumi orta təhsil səviyyəsi (VI-IX siniflər) üzrə şagird:**

- tarixi dövrləri və sivilizasiyaları xarakterik əlamətlərinə görə fərqləndirir, tarixi şəxsiyyətləri, hadisələri və faktları dövr baxımından qiymətləndirir, onlara münasibət bildirir;
- tarixi paralellər aparmaq yolu ilə ayrı-ayrı dövlətlərin inkişaf istiqamətlərini, ictimai, iqtisadi, siyasi prosesləri müqayisə edir, nəticə çıxarıb mülahizələrini şərh edir;
- müxtəlif tarixi mənbələri araşdırmaqla lazımi materialları toplayıb sistemləşdirir və təqdim edir.

**Tam orta təhsil səviyyəsinin sonunda şagird:**

- mənbələr əsasında müxtəlif tarixi hadisələri təhlil edir, onların arasındakı oxşarlıq və ziddiyyətlərin səbəblərini izah edir, konkret tarixi hadisələrə dair əlavə məlumat toplayır, onları sistemləşdirir və təqdim edir, şəxsi mülahizələri əsasında referat, məruzə və tezislər hazırlayır;

- dünya tarixində baş verən prosesləri və hadisələri Azərbaycan tarixinin eyni dövrləri ilə müqayisə edir, təhlillər aparır və öz mülahizələrini bildirir;
- tarixi mövzulardakı dialoqlarda, keçmiş və müasir tarixi proseslərə dair müzakirələrdə öz mövqeyini bildirir və əsaslandırır;
- cəmiyyətlərin inkişafında islahat və inqilabların rolunu fərqləndirir, onlara öz münasibətini bildirir;
- aqrar (ənənəvi), sənaye və informasiya cəmiyyətlərini müqayisə edir, onların xarakterik cəhətlərini izah edir;
- tarixi proseslər və hadisələr arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirir;
- müasir dövrün qlobal problemlərini şərh edir, onların aradan qaldırılması ilə bağlı öz fərziyyələrini bildirir.

## 1.2. Məzmun xətləri

Ümumi tarix fənninin məzmunu onun məzmun xətləri əsasında qurulur. Məzmun xətləri fənn üzrə ümumi təlim nəticələrinin reallaşdırılmasının istiqamətlərini müəyyən edir.

Ümumi tarix fənni üzrə ümumi və tam orta təhsil pillələri üçün ümumi olan aşağıdakı məzmun xətləri müəyyənləşdirilmişdir:

1. Tarixi zaman
2. Tarixi məkan
3. Dövlət
4. Şəxsiyyət
5. Mədəniyyət

Ümumi tarix fənnindən hər sinifdə şagirdin fəaliyyətinin səviyyəsi məzmun xətləri üzrə standartlara uyğun olaraq inkişaf etməkdə davam edir. Hər bir sonrakı sinifdə şagird əvvəlkinə nisbətən daha mürəkkəb zehni, əməli, kommunikativ fəaliyyətləri icra etməli olur, yəni şagirdlərin fəaliyyətinə verilən tələblər sinifdən sinfə keçdikcə mürəkkəbləşir.

### Tarixi zaman

Tarixi fakt müəyyən bir zaman çərçivəsində baş verir. Hadisənin baş verdiyi vaxtı müəyyən etməklə onun özündən əvvəlki və sonrakı hadisələrlə əlaqəsini, səbəb və nəticələrini müəyyən etmək olar. Məktəblinin zamanla bağlı təsəvvürü yoxdursa, onda onun tarixlə bağlı təsəvvürləri də tarixi bilik deyildir. Tarixi faktları zamanla əlaqədə götürmədən düzgün tarixi biliyə malik olmaq qeyri-mümkündür.

Tarixin mənimsənilməsində xronologiyanın böyük rolu vardır. Xronologiyanın mənimsənilməsi tarixi yadda saxlamağa, tarixi hadisələrin ardıcıllığını müəyyənləşdirməyə, onların arasındakı əlaqəni ortaya çıxarmağa imkan verir.

Xronoloji və sinxron məsələlərin həlli tarixi faktın ardıcıl və şüurlu mənimsənilməsində, onlar arasındakı əlaqənin müəyyənləşdirilməsində əhəmiyyətli rol oynayır, tarix materialının ümumiləşdirilməsinə, dərk olunmasına imkan yaradır.

## Tarixi məkan

Müəyyən tarixi proses zamanla yanaşı, konkret bir məkan daxilində baş verir. Konkret məkanla əlaqədə götürülməyən tarixi fakt real məzmundan uzaq, mücərrəd bir təsəvvür hesab edilir. Faktların məkan əlaqələri onların mənimsənilməsinin ən zəruri şərtlərindən biri kimi çıxış edir.

Məkanın müəyyən edilməsi təbiətlə cəmiyyət arasındakı əlaqəni aşkara çıxarmağa, onların qarşılıqlı təsirini görməyə imkan verir. İnsanlar, xalqlar, dövlətlər, cəmiyyətlər bir-birlərindən təcrid edilmiş vəziyyətdə uzun müddət yaşaya bilməzlər. Onlar inkişaflarını təmin etmək üçün bir-biri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərirlər. Bu əlaqələrin sabitliyi, dinamikliyi, yaxud qısamüddətliliyi onların yerləşdiyi məkanın xarakterindən, orada baş verən hadisələrdən asılı olur. Tarixi məkanın xalqların, dövlətlərin və cəmiyyətlərin həyatına təsirini nəzərə almaqla onların inkişaf xüsusiyyətlərini müəyyən etmək mümkündür. Bütün bunlar isə tarixi faktların məkan əlaqələrinin öyrənilməsini və qiymətləndirilməsini zəruri edir.

## Dövlət

Ən qədim dövrlərdən insanlar özlərinin maddi tələbatlarını ödəmək üçün öz aralarında müəyyən münasibətlərə girmiş, istehsal fəaliyyətlərini təkmilləşdirmişlər. İstehsalın inkişafı insanlar arasında iqtisadi münasibətlərin xarakterinə də təsir göstərmişdir.

İqtisadi həyatda baş verən proseslər cəmiyyətin təşkili formalarının dəyişməsinə, sosial qrupların, təbəqələrin yaranmasına gətirib çıxarır. Dəyişikliklərdə sosial hərəkatlar əhəmiyyətli rol oynayır. Cəmiyyətin inkişafı prosesini öyrənmək və dərk etmək üçün onun sosial-iqtisadi həyatı haqqında biliklərə yiyələnmək və onları qiymətləndirmək zəruri hesab edilir.

İnsanların daxil olduğu ən mürəkkəb və eyni zamanda sabit qurum dövlətdir. Tarix təlimində məktəblilərin dövlətin yaranması prosesi, onun tipləri, idarəçilik formaları ilə tanış olmaları dövlətin siyasi quruluşu ilə ölkənin sosial-iqtisadi, mədəni həyatı arasındakı əlaqəni görməyə, dövlətin cəmiyyətin həyatındakı rolunu başa düşməyə kömək edir.

**Şəxsiyyət**

Tarixi şəxsiyyətlərin fəaliyyəti tarixi hadisələrin gedişinə müəyyən təsir göstərir. Onların fəaliyyətinin təhlil edilməsi və qiymətləndirilməsi tarixdə görkəmli şəxsiyyətlərin rolunu müəyyənləşdirməyə, hadisələrin səbəb-nəticə əlaqələrini müəyyən etməyə imkan verir. Bu mənada şagirdlərin tarixi inkişafın müxtəlif mərhələlərində şəxsiyyətin rolunu dəyərləndirməsi üçün onları dünya tarixinin görkəmli şəxsiyyətləri ilə tanış etmək, həmin şəxsiyyətlərin fəaliyyətini öyrənməyə, bu fəaliyyəti müzakirə etməyə, nəticələr çıxarmağa sövq etmək böyük əhəmiyyət daşıyır.

**Mədəniyyət**

Tarixin təlimində ayrı-ayrı tarixi dövrlərin mədəniyyəti barəsində biliklərə yiyələnmək mədəniyyətin təşəkkülü və inkişafı ilə siyasi, sosial-iqtisadi həyat arasındakı əlaqəni görməyə, qiymətləndirməyə imkan verir. Mədəniyyət tarixinin öyrənilməsi həm də xalqların və sivilizasiyaların dünya mədəniyyətinin

zənginləşməsindəki rolunun dəyərləndirməsində, mədəniyyətlərarası və sivilizasiyalararası münasibətlərin bəşəriyyətin sonrakı inkişafına təsirini müəyyənləşdirilməsində əsaslı rola malikdir.

## 1.3. Məzmun xətləri üzrə təlim nəticələri

***Ümumi orta təhsil səviyyəsində məzmun xətləri üzrə təlim nəticələri***

***Tarixi zaman***

***Şagird:***

- *tarixi dövrləri xarakterik əlamətlərinə görə fərqləndirir;*
- *hadisə və faktları dövr baxımından qiymətləndirir və onlara münasibət bildirir;*
- *tarixi paralellər aparmaq yolu ilə ayrı-ayrı dövlətlərin inkişaf xüsusiyyətlərini müqayisə edir, mülahizələrini şərh edir.*

***Tarixi məkan***

***Şagird:***

- *tarixi məkana görə ictimai, iqtisadi, siyasi və mədəni prosesləri müqayisə edir və mülahizələrini şərh edir, nəticələri təqdim edir.*

***Dövlət***

***Şagird:***

- *ayrı-ayrı dövlətlərin yaranması və inkişafı xüsusiyyətlərini, ictimai, iqtisadi və siyasi prosesləri müqayisə edir, mülahizələrini açıqlayır;*
- *dövlətlərə aid müxtəlif tarixi mənbələri araşdırmaqla lazımi materialları toplayıb sistemləşdirir və təqdim edir.*

***Şəxsiyyət***

***Şagird:***

- *tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir, onlara münasibət bildirir;*
- *mənbələri araşdırmaqla tarixi şəxsiyyətlərə dair materiallar toplayır, təqdimatlar edir.*

***Mədəniyyət***

***Şagird:***

- *mədəniyyətləri və sivilizasiyaları xarakterik əlamətlərinə görə müqayisə edir və fərqləndirir;*
- *müxtəlif xalqların mədəni nailiyyətlərinə dair araşdırmalar aparır, təqdimatlar edir.*

***Tam orta təhsil səviyyəsində məzmun xətləri üzrə təlim nəticələri***

**1. Tarixi zaman**

Şagird:

- mənbələr əsasında müxtəlif tarixi dövrləri təhlil edir, onların oxşar və fərqli cəhətlərini izah edir, tezis, referat, məruzə hazırlayır;

- tarixi hadisə, proses və təzahürlərin səbəb-nəticə əlaqələrini müəyyən edir və tarixi dövr baxımından qiymətləndirir;

- dünya tarixinin hadisə və proseslərini Azərbaycan tarixinin eyni dövrləri ilə müqayisə edir və təhlillər aparır, mülahizələrini bildirir.

**2. Tarixi məkan**

Şagird:

- müxtəlif tarixi hadisələri konkret məkan baxımından müqayisə edir və mülahizələrini bildirir;

- aqrar (ənənəvi), sənaye və informasiya cəmiyyətlərini məkana görə müqayisə edir, onların xarakterik cəhətlərini izah edir.

**3. Dövlət**

Şagird:

- cəmiyyət və dövlətlərin inkişafında islahat və inqilabların rolunu fərqləndirir, aqrar (ənənəvi), sənaye və informasiya cəmiyyətlərini müqayisə edir və münasibət bildirir;

- bəşəriyyəti narahat edən qlobal problemlərin həllində dövlətin rolunu şərh edir;

- mənbələr əsasında müxtəlif dövlətlərin tarixinə dair təhlillər aparır, referat, məruzə və tezislər hazırlayır.

**4. Şəxsiyyət**

Şagird:

- tarixi hadisə və proseslərin gedişində şəxsiyyətlərin rolunu qiymətləndirir, mülahizələri əsasında təqdimatlar edir;

- tarixi şəxsiyyətlərə dair tədqiqatlar aparır, mövqeyini bildirir və əsaslandırır.

**5. Mədəniyyət**

Şagird:

- aqrar (ənənəvi), sənaye və informasiya cəmiyyətlərində mədəniyyətin inkişaf xüsusiyyətlərini müqayisə edir və əsaslandırır;

- müasir dövrün qlobal problemlərinin həllində mədəniyyətlərəarası və sivilizasiyalrarası dialoqun qoluna dair materiallar toplayır, məruzə və referatlar hazırlayır.

## 1.4. Fəaliyyət xətləri

Ümumi tarixdə fəaliyyət xətləri biliklərin əldə olunması və istifadəsi yollarını müəyyənləşdirmək, onları təsvir etmək məqsədi daşıyır. Məzmun xətləri ilə fəaliyyət

xətləri üst-üstə düşdüyü üçün məzmun standartlarının müəyyənləşdirilməsində onların fəaliyyət xətləri ilə əlaqəsi nəzərə alınmışdır.

- Tarixi bilik mənbələrindən məlumatların toplanması və sistemləşdirilməsi.
- Tarixi materialın təhlili, sintezi və ümumiləşdirilməsi.
- Tarixi faktların müqayisəsi.
- Nəticə çıxarılması və əsaslandırılması.
- Yekun nəticənin təqdim edilməsi.
- Qiymətləndirmə.

## 1.5. Məzmun standartları

### VI sinif

**VI sinfin sonunda şagird:**

- tarixdə il hesabından istifadə edir;
- mühüm hadisələrin xronoloji çərçivəsini müəyyən edir;
- qədim insanların həyatında təbii-coğrafi şəraitin rolunu müəyyənləşdirir;
- dövlətlərin yaranmasını, onların siyasi quruluşunu, sosial-iqtisadi münasibətləri tarixi bilik mənbələri əsasında izah edir;
- tarixi şəxsiyyətlərin həyat və fəaliyyətini təsvir edir;
- mədəniyyətin yaranması və inkişafını insanların həyatında baş verən dəyişikliklərlə əlaqələndirir.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1.Tarixi zaman**

**Şagird:**

*1.1. Tarixi faktların tarixi zamanla əlaqəsini anladığını nümayiş etdirir.*

1.1.1.Tarixdə il hesabından istifadə edir.

1.1.2. İbtidai icma cəmiyyəti və quldar dövlətlərin meydana gəlməsi, inkişafı və tənəzzülü dövrlərini fərqləndirir.

1.1.3.Müxtəlif ölkələrdə baş vermiş mühüm hadisə, proses və təzahürlərin xronoloji çərçivələrini müəyyən edir.

**2. Tarixi məkan**

**Şagird:**

*2.1. Tarixi hadisə, proses və təzahürlərin baş verdiyi təbii-coğrafi şəraitlə bağlı bilik və bacarıqlar nümayiş etdirir.*

2.1.1. Ən qədim insan məskənlərinin, ilk sivilizasiyaların, dövlətlərin yaranması və inkişaf amillərini izah edir.

2.1.2. Təbii-coğrafi şəraiti əks etdirən xəritə əsasında hadisələrin baş verdiyi tarixi məkanı təsvir edir.

**3. Dövlət**

**Şagird:**

*3.1. Dövlətlərin yaranması, inkişafı və tənəzzülü ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.*

3.1.1. Qədim dövlətlərin (Misir, Şumer, Babil, Aşşur, İskit, Midiya, Əhəməni, Hun, Çin, Parfiya, Hindistan, Yunanıstan və Roma dövlətləri) yaranmasını, idarəetmə qaydalarını, sosial-iqtisadi münasibətləri təsvir edir.

3.1.2. Mənbələr əsasında qədim dövlətlərlə bağlı məlumatlar toplayır və təqdim edir.

**4. Şəxsiyyət**

**Şagird:**

*4.1.Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir.*

4.1.1. Tarixi şəxsiyyətləri (I Tutmos, III Tutmos, II Ramzes, Hammurapi, Aşşurbanipal, II Sarqon, II Kir, I Dara, Mete xaqan, İskəndər, Sin Şixuandi, Aşoka, Solon, Mitridat, Perikl, Yuli Sezar, Oktavian Avqust, Konstantin) müəyyənləşdirir.

4.1.2. Mənbələr əsasında qədim dövrün tarixi şəxsiyyətləri haqqında məlumatlar toplayır, təqdim edir.

**5. Mədəniyyət**

**Şagird:**

*5.1. Mədəniyyətləri və sivilizasiyaları qiymətləndirir.*

5.1.1. Mədəniyyətin ayrı-ayrı sahələrinin insanların həyat tərzi ilə əlaqələrini izah edir.

5.1.2. Mədəniyyətlərarası və sivilizasiyalararası əlaqələrə münasibət bildirir.

5.1.3. Mədəniyyətlərə, mədəniyyətlərarası əlaqələrə dair məlumat toplayır, təqdim edir.

## VII sinif

**VII sinfin sonunda şagird:**

- tarixi faktları davametmə müddətinə görə fərqləndirir, onların xronoloji ardıcıllığını və sinxronluğunu müəyyənləşdirir;
- xalqların və dövlətlərin ərazi məkanında baş verən dəyişiklikləri xəritə əsasında izah edir;
- erkən feodal dövlətlərin idarəçilik formalarını və sosial-iqtisadi münasibətlərini müqayisə edir;
- dövlətlərin və mədəniyyətlərin inkişafında tarixi şəxsiyyətlərin rolunu izah edir;
- erkən orta əsrlərdə mədəniyyətlərin inkişaf istiqamətlərini və xüsusiyyətlərini izah edir.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1.Tarixi zaman**

**Şagird:**

*1.1. Tarixi faktların tarixi zamanla əlaqəsini anladığını nümayiş etdirir.*

1.1.1. Mühüm tarixi faktları davametmə müddətinə görə fərqləndirir.

1.1.2. Müxtəlif ölkələrdə baş vermiş ayrı-ayrı tarixi faktların sinxronluğunu müəyyənləşdirir.

1.1.3. Tarixi faktları xronoloji qaydada sistemləşdirir.

**2.Tarixi məkan**

**Şagird:**

*2.1. Məkanda baş verən tarixi hadisə, proses və təzahürlərlə bağlı bilik və bacarıqlar nümayiş etdirir.*

2.1.1. Feodal münasibətlərinin yaranmasını və inkişafını dövlətlərin və xalqların geosiyasi məkanında baş verən dəyişikliklərlə əlaqələndirir.

2.1.2. Dövlətlərin və xalqların həyatında məkan baxımından baş verən dəyişiklikləri xəritələrdəki məlumatlar əsasında təhlil edir.

**3. Dövlət**

**Şagird:**

*3.1. Dövlətlərin yaranması, inkişafı və tənəzzülü ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.*

3.1.1. Feodal dövlətlərin (Çin, Sasani, Qafqaz xalqları, Ağ Hun, Qərbi Hun, Göytürk, Uyğur, Xəzər, Avar, Bulqar, Hindistan, Ərəb xilafəti, Frank, Bizans, Slavyan dövlətləri, Oğuz, Səlcuq, Samani, Qaraxanlı, Qəznəvi, Xarəzmşahlar, Monqol, Osmanlı, Qızıl Orda, Teymuri, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi, Böyük Moğol, Rusiya, İngiltərə, Fransa, İspaniya, İtaliya, Almaniya) yaranması, idarəçilik formaları və sosial-iqtisadi və siyasi münasibətlərini şərh edir.

3.1.2. Feodal dövlətlərin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl və diaqramlar hazırlayır.

**4.Şəxsiyyət.**

**Şagird:**

*4.1. Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir.*

4.1.1. Dövlətlərin və mədəniyyətlərin inkişafında şəxsiyyətlərin (Attila, Xlodviq, Bumın xaqan, Məhəmməd peyğəmbər, Böyük Karl, Mahmud Qəznəvi, Alp Arslan, Məlik şah, Çingiz xan, Qara Yusif, Uzun Həsən, Batı xan, II Mehmet, Əmir Teymur,

Sultan Süleyman Qanuni, Əkbər şah, Şah İsmayıl, I Təhmasib, Oranlı Vilhelm, IV İvan) rolunu izah edir.

4.1.2. Dövlətin və mədəniyyətin inkişafında tarixi şəxsiyyətlərin rolu ilə bağlı məlumatlar toplayır və təqdimatlar hazırlayır.

**5. Mədəniyyət**

**Şagird:**

*5.1. Mədəniyyətləri və sivilizasiyaları qiymətləndirir.*

5.1.1. Avropa və Şərq mədəniyyətinin inkişaf xüsusiyyətlərini izah edir.

5.1.2. Şərq mədəniyyətinin dünya mədəniyyətinə təsirini müəyyən edir.

5.1.3. Mədəniyyətlərin inkişafı ilə bağlı materiallar toplayır.

## VIII sinif

**VIII sinfin sonunda şagird:**

- hadisə, proses və təzahürlər arasında səbəb-nəticə əlaqələrini ifadə edən xronoloji cədvəllər hazırlayır;
- feodal münasibətlərinin inkişafı və dağılmasını xalqların və dövlətlərin geosiyasi məkanında baş verən dəyişikliklərlə əlaqələndirir, həmin dəyişiklikləri kontur xəritəyə köçürür;
- mərkəzləşmiş feodal dövlətlərinin yaranmasını və inkişaf xüsusiyyətlərini təhlil edir;
- tarixi şəxsiyyətləri oxşar və fərqli cəhətlərinə görə fərqləndirir;
- Şərqdə və Qərbdə intibah mədəniyyətlərinin inkişaf xüsusiyyətlərini, onların qarşılıqlı təsirini izah edir.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Tarixi zaman**

**Şagird:**

*1.1. Tarixi faktların tarixi zamanla əlaqəsini anladığını nümayiş etdirir.*

1.1.1. Oxşar tarixi faktların baş verdiyi zamandan irəli gələn fərqli cəhətlərini izah edir.

1.1.2. Oxşar proses və hadisələri əlaqələndirən sinxron cədvəllər tərtib edir.

1.1.3. Hadisə, təzahür və proseslər arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirən xronoloji cədvəllər tərtib edir.

**2. Tarixi məkan**

**Şagird:**

*2.1. Məkanda baş verən hadisə, proses və təzahürlərlə bağlı bilik və bacarıqlar nümayiş etdirir.*

2.1.1. Feodal münasibətlərinin dağılması və kapitalist münasibətlərinin yaranmasını, dünyada baş vermiş iqtisadi, sosial dəyşiklikləri məkanla əlaqədə izah edir.

2.1.2. Dövlətlərin və xalqların həyatında baş verən ərazi dəyişikliklərini xəritə və sxemlərdəki məlumatlar əsasında kontur xəritələrə köçürür.

**3.Dövlət**

**Şagird:**

*3.1. Dövlətlərin yaranması, inkişafı və tənəzzülü ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.*

3.1.1. Dövlətlərin (İngiltərə, Fransa, Rusiya, ABŞ, Osmanlı, İran, Çin, Hindistan, Mərkəzi Asiyanın türk dövlətləri, Qazaxıstan, Krım, Sibir, Volqaboyu, Qafqaz xalqları) yaranmasını, idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətləri təhlil edir.

3.1.2. Yeni tipli dövlətlərin qeyri-bərabər inkişafına aid esse yazır.

**4. Şəxsiyyət**

**Şagird:**

*4.1. Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir.*

4.1.1. Tarixi şəxsiyyətləri (Oliver Kromvel, Maksimilian Robespyer, I Pyotr, II Yekaterina, Corc Vaşinqton, Benjamin Franklin, Köprülü Mehmet paşa, III Səlim, Nadir şah, Ağa Məhəmməd şah Qacar) müqayisə edir.

4.1.2. Tarixi şəxsiyyətlərin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl hazırlayır.

**5. Mədəniyyət**

**Şagird:**

*5.1. Mədəniyyətləri və sivilizasiyaları qiymətləndirir.*

5.1.1. Şərq və Qərbdə intibah mədəniyyətinin xüsusiyyətlərini izah edir.

5.1.2. Elmi kəşf və ixtiraların dünya mədəniyyətinin inkişafına təsirini izah edir.

5.1.3. Dünya mədəniyyətinin nailiyyətlərinə dair cədvəl və qrafiklər hazırlayır.

## IX sinif

**IX sinfin sonunda şagird:**

- müxtəlif ölkələrdə baş verən oxşar tarixi hadisə və faktları dövr baxımından qiymətləndirir;
- kapitalist münasibətlərinin yaranmasını, dünya ölkələrində baş verən dəyişiklikləri məkanla əlaqədə izah edir;
- dünya ölkələrinin inkişafındakı qeyri-bərabərliyi onların siyasi quruluşu ilə əlaqələndirir;
- tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir;
- mədəniyyətləri, sivilizasiyaları xarakterik əlamətlərinə görə fərqləndirir.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Tarixi zaman**

**Şagird:**

*1.1. Tarixi faktların tarixi zamanla əlaqəsini anladığını nümayiş etdirir.*

1.1.1. Müxtəlif ölkələrdə oxşar tarixi faktların müxtəlif zamanlarda baş verməsinin səbəb və nəticələrini izah edir.

1.1.2. Oxşar tarixi faktların baş verdiyi tarixi şərait arasındakı fərqi müəyyən edir.
1.1.3. Mühüm tarixi faktların zaman əlaqəsini göstərən sinxron cədvəllər hazırlayır

**2. Tarixi məkan**

**Şagird:**

*2.1 Məkanda baş verən hadisə, proses və təzahürlərlə bağlı bilik və bacarıqlar nümayiş etdirir.*

2.1.1. Kapitalist münasibətlərinin inkişaf prosesində və müasir dünyada ölkələrin və xalqların sosial, siyasi, iqtisadi və mədəni həyatında baş verən dəyişiklikləri məkan baxımdan qiymətləndirir.

2.1.2. Dövlətlərin ərazi dəyişikliklərini əks etdirən cədvəl və sxemlər hazırlayır.

**3. Dövlət**

**Şagird:**

*3.1. Dövlətlərin yaranması, inkişafı və tənəzzülü ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.*

3.1.1. Dünyanın (Avropa dövlətləri və Rusiya, ABŞ və Latın Amerikası ölkələri, Türk dünyası və Qafqaz xalqları, Asiya, Afrika ölkələri) siyasi inkişaf mərhələsini şərh edir.

3.1.2. Dünyanın siyasi inkişaf mərhələsinə aid təqdimatlar hazırlayır.

**4. Şəxsiyyət**

**Şagird:**

*4.1. Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir.*

4.1.1. Tarixi şəxsiyyətləri (I Napoleon, Cüzeppe Haribaldi, I Aleksandr, Sultan II Əbdülhəmid, Otto Bismark, Avraam Linkoln, Franklin Ruzvelt, Vladimir İliç Lenin, İosif Visarianoviç Stalin, Mustafa Kamal Atatürk, Sun Yatsen, Şarl de Qoll, Konrad Adenauer, Turqut Özal, Mao Tszedun, Cəvahirləl Nehru, Heydər Əliyev) fəaliyyətini sosial qrupların mənafeyi baxımından təhlil etməklə onlara münasibət bildirir.

4.1.2. Topladığı materiallar əsasında tarixi şəxslərə dair esse və hekayələr yazır.

**5. Mədəniyyət**

**Şagird:**

*5.1. Mədəniyyətləri və sivilizasiyaları qiymətləndirir.*

5.1.1. Mədəniyyətlərin inkişafına təsir edən amilləri izah edir.

5.1.2. Mədəniyyətlərarası və sivilizasiyalararası qarşılıqlı təsiri və ziddiyyətləri izah edir.

5.1.3. Mədəniyyətlərarası və sivilizasiyalararası əlaqələrə dair esse və hekayələr yazır.

## X sinif

**X sinfin sonunda şagird:**

- ölkələrdə baş verən dəyişiklikləri tarixi zaman baxımından qiymətləndirir;
- dünyada və Azərbaycanda baş verən hadisə, proses və təzahürlər arasında əlaqələri tarixi zaman baxımından izah edir;
- ölkə və xalqların sosial-iqtisadi və mədəni həyatında baş verən dəyişiklikləri məkan baxımından qiymətləndirir;
- geosiyasi dəyişikliklərin cəmiyyətin sosial-iqtisadi, siyasi həyatına təsirini təhlil edir;
- tarixi şəxsiyyətləri mənsub olduqları dövlətlərin mənafeyi baxımından qiymətləndirir;
- ənənəvi və sənaye cəmiyyətlərini mədəniyyətin inkişafına və mədəniyyətlərarası münasibətlərə görə qiymətləndirir.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Tarixi zaman**

**Şagird:**

*1.1. Tarixi faktları tarixi zamanla əlaqədə qiymətləndirir.*

1.1.1. Asılı və müstəmləkə xalqlarının milli-azadlıq hərəkatını tarixi zamanla əlaqədə dəyərləndirir.

1.1.2. Ölkələrdə baş verən oxşar sosial-iqtisadi hadisə və prosesləri zaman baxımından tarixi şəraitlə əlaqədə müqayisə edir və dəyərləndirir.

1.1.3. Ölkələrdə baş verən oxşar mədəni hadisə və prosesləri baş verdiyi tarixi zamanla əlaqədə dəyərləndirir.

1.1.4. Dünyada və Azərbaycanda baş verən hadisə, proses və təzahürlər arasında əlaqələri tarixi zaman baxımından izah edir.

**2. Tarixi məkan**

**Şagird:**

*2.1. Məkanda baş verən hadisə, proses və təzahürlərlə bağlı bilik və bacarıqlar nümayiş etdirir.*

2.1.1. Müxtəlif tarixi dövrlərdə ölkələrin və xalqların sosial-iqtisadi və mədəni həyatında baş verən dəyşiklikləri məkan baxımından qiymətləndirir.

2.1.2. Dünya ölkələrində baş verən geosiyasi dəyişiklikləri müxtəlif formalarda (xəritə, sxem, cədvəl) təqdim edir.

**3. Dövlət**

**Şagird:**

*3.1. Dövlətlərin inkişafını siyasi, sosial-iqtisadi münasibətlərin xarakterinə görə qiymətləndirir.*

3.1.1. Cəmiyyətin inkişafının kapitalizimə qədərki dövründə dövlətlərin (Afrika ölkələri, Asiya, Avropa və Amerikanın aparıcı dövlətləri) yaranması və inkişafı prosesini, geosiyasi dəyişiklikləri izah edir.

3.1.2. Geosiyasi dəyişikliklərin cəmiyyətin sosial-iqtisadi həyatına təsirini şərh edir.

3.1.3. Mənbələr əsasında dövlətlərin tarixinə dair materiallar toplayır və məruzələr hazırlayır.

**4. Şəxsiyyət**

**Şagird:**

*4.1. Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir.*

4.1.1. Tarixi şəxsiyyətləri (II Ramzes, Hamurapi, II Kir, I Dara, İsgəndər, Yuli Sezar, Konstantin, Attila, Məhəmməd Peyğəmbər, Böyük Karl, Alp Arslan, Çingiz xan, II Mehmet Fateh, Əmir Teymur, Sultan Süleyman Qanuni, Şah İsmayıl, I Təhmasib, IV İvan) mənsub olduqları dövlətlərin mənafeyi baxımından qiymətləndirir.

4.1.2. Tarixi şəxsiyyətlərin fəaliyyətinə dair məruzə və referatlar hazırlayır.

**5. Mədəniyyət**

**Şagird:**

*5.1. Mədəniyyətləri və sivilizasiyaları qiymətləndirir.*

5.1.1. Aqrar (ənənəvi) və sənaye cəmiyyətlərinin mədəniyyətlərin inkişafına təsirini izah edir.

5.1.2. Aqrar (ənənəvi) və sənaye cəmiyyətlərinin mədəniyyətlərarası və sivilizasiyalararası əlaqələrə təsirini əsaslandırır.

5.1.3. Aqrar (ənənəvi) və sənaye cəmiyyətlərinin mədəniyyətlərarası və sivilizasiyalararası əlaqələrə təsiri ilə bağlı referat və məruzələr hazırlayır.

## XI sinif

**XI sinfin sonunda şagird:**

- ölkədə baş verən siyasi, sosial-iqtisadi və mədəni faktları onun inkişafının müəyyən dövrü ilə əlaqədə dəyərləndirir;
- dünyada və Azərbaycanda baş verən hadisə, proses və təzahürlər arasında əlaqələri tarixi zaman baxımından qiymətləndirir;
- ölkə və xalqların həyatında, beynəlxalq münasibətlərdə baş verən dəyişiklikləri məkan baxımından qiymətləndirir;
- aqrar (ənənəvi), sənaye və informasiya cəmiyyətlərində dövlətin rolunu qiymətləndirir;

- tarixi şəxsiyyətləri mənsub olduqları ölkənin daxili və beynəlxalq həyatına təsiri baxımından qiymətləndirir;
- aqrar (ənənəvi), sənaye və informasiya cəmiyyətlərində mədəniyyətin inkişafını və mədəniyyətlərarası münasibətləri qiymətləndirir.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1.Tarixi zaman**

**Şagird:**

*1.1. Tarixi faktları tarixi zamanla əlaqədə qiymətləndirir.*

1.1.1. Ölkədəki sosial-iqtisadi həyat faktlarını onun iqtisadi inkişafının müəyyən mərhələsi ilə əlaqədə dəyərləndirir.

1.1.2. Ölkədəki siyasi həyat faktlarını onun siyasi inkişafının müəyyən mərhələsi baxımından qiymətləndirir.

1.1.3. Ölkədəki mədəni həyat faktlarını onun mədəni inkişafının müəyyən mərhələsi ilə əlaqədə dəyərləndirir.

1.1.4. Dünyada və Azərbaycanda baş verən hadisə, proses və təzahürlər arasında əlaqələri tarixi zaman baxımından qiymətləndirir.

**2.Tarixi məkan**

**Şagird:**

*2.1 Məkanda baş verən hadisə, proses və təzahürlərlə bağlı bilik və bacarıqlarını nümayiş etdirir.*

2.1.1. Ölkələrin və xalqların sosial-iqtisadi və mədəni həyatında, beynəlxalq münasibətlərdə baş verən dəyişiklikləri, inteqrasiya prosesi ilə bağlı informasiyaları məkan baxımından qiymətləndirir.

2.1.2. Müasir dövrdə baş verən geosiyasi dəyişiklikləri müxtəlif formalarda (xəritə, sxem, cədvəl, diaqram) təqdim edir.

**3. Dövlət**

**Şagird:**

*3.1. Dövlətlərin inkişafını siyasi, sosial-iqtisadi münasibətlərin xarakterinə görə qiymətləndirir.*

3.1.1. Cəmiyyətin inkişafının yeni və müasir mərhələsində dövlətləri (Almaniya, İngiltərə, Fransa, ABŞ, SSRİ, Rusiya, Türkiyə, Yaponiya, Çin, Koreya, Hindistan, İran, Qafqaz, Mərkəzi Asiya, Krım, Volqaboyu, Sibirin türk xalqları, Ərəb ölkələri) siyasi quruluşuna, aqrar (ənənəvi), sənaye və informasiya cəmiyyətlərində vəzifələrinə görə dəyərləndirir.

3.1.2. Qlobal problemlərin həllində dövlətlərin rolunu şərh edir.

3.1.3. Mənbələr əsasında dövlətlərin tarixinə dair təhlillər aparır, referat və tezislər hazırlayır.

**4. Şəxsiyyət**

**Şagird:**

*4.1. Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir.*

4.1.1. Tarixi şəxsiyyətləri (I Pyotr, Corc Vaşinqton, III Səlim, Nadir şah, Ağa Məhəmməd şah Qacar, I Napaleon, I Aleksanadr, Avraam Linkoln, Franklin Ruzvelt, Vladimir Lenin, İosif  Stalin, Mustafa Kamal Atatürk, Sun Yatsen, Şarl de Qoll, Konrad Adenauer, Turqut Özal, Mao Tszedun, Cəvahirləl Nehru, Heydər Əliyev) mənsub olduqları ölkələrin daxili və beynəlxalq həyatına təsiri baxımından qiymətləndirir.

4.1.2. Tarixi şəxsiyyətlər haqqında araşdırmalar aparır, təqdimatlar edir.

**5. Mədəniyyət**

**Şagird:**

*5.1. Mədəniyyət və sivilizasiyaları qiymətləndirir.*

5.1.1. Aqrar (ənənəvi), sənaye və informasiya cəmiyyətlərinin mədəniyyətin inkişafına təsirini izah edir.

5.1.2. Aqrar (ənənəvi), sənaye və informasiya cəmiyyətlərinin mədəniyyətlərarası və sivilizasiyalararası əlaqələrə təsirini əsaslandırır.

5.1.3. Mədəniyyətlərarası və sivilizasiyalararası əlaqələrə dair referat və tezislər hazırlayır.

## 1.6. Fəndaxili və fənlərarası inteqrasiya

"Ümumi təhsil pilləsində dövlət standartları və proqramları (kurikulumlar)" sənədi və onun əsasında hazırlanmış Ümumi tarix kurikulumu fəndaxili və fənlərarası əlaqələrin geniş tətbiqini nəzərdə tutur. Ənənəvi təlimdə şagirdlərə faktlar toplusu verilir və onları əzbərləmək tələb olunur. Nəticədə şagirdlər həyatda onlara lazım olmayan məsələləri öyrənməli olurlar. İnteqrativ kurikulum isə fənn sahələrinin kombinasiyasını özündə əks etdirməklə şagirdi obyektə deyil, subyektə çevirir. Burada təhsilin məqsədinə hadisə və təzahürləri öyrənmək və bilmək deyil, həm də əldə olunmuş bilik, bacarıq və dəyərlərdən müxtəlif situasiyalarda istifadə etmək, araşdırmaları təkmilləşdirmək, anlama, birbaşa şəxsi iştirak daxildir. Belə kurikulum şagirdlərə öyrənmə zamanı müxtəlif fənlər arasında bilik və konsepsiya səviyəsində dəyərli əlaqələr yaratmaqda köməklik göstərir.

İnteqrasiya necə həyata keçrilməlidir? Hazırkı proqramlarda inteqrasiya cox zaman biliklərin əlaqələndirilməsi formasında həyata keçirilir. Burada bir fakt haqqında biliyə həmin fakt haqqında başqa fənlərdə verilən məlumat əlavə olunur. Müasir dövrdə inteqrasiyaya tamamilə başqa cür yanaşılır.

Ümumi tarix fənn kurikulumunda inteqrativlik fəndaxili əlaqələr (üfüqi inteqrasiya), fənlərarası əlaqələr (şaquli inteqrasiya) şəklində həyata keçirilir. Bu inteqrasiya pillələr üzrə məzmun xətləri, siniflər üzrə gözlənilən təlim nəticələri və məzmun standartları arasında (bilik və bacarıqlar sistemində) reallaşdırılır.

Ümumi orta və tam orta təhsil pillələri üzrə inteqrasiya olunmuş məzmun xətləri, siniflər üzrə gözlənilən təlim nəticələri və məzmun standartları arasındakı əlaqə cədvəl şəklində ifadə olunaraq sənədə əlavə edilmişdir.

Ümumi tarix fənn kurikulumuna əsasən əvvəlcə beş məzmun xətti, tarixi zaman, tarixi məkan, dövlət, şəxsiyyət və mədəniyyət üzrə ümumi orta və tam orta təhsil pilləsində ümumi təlim nəticələri müəyyənləşdirilmiş və inteqrasiya olunmuşdur. İki pillə üzrə müəyyənləşdirilmiş nəticələr cədvəldə əksini tapmışdır.

## Təhsil pillələri üzrə ümumi təlim nəticələrinin inteqrasiyası

| Ümumi orta təhsil pilləsində məzmun xətləri üzrə təlim nəticələri | Tam orta təhsil pilləsində məzmun xətləri üzrə təlim nəticələri |
|---|---|
| **1.Tarixi zaman** | **1.Tarixi zaman** |
| - tarixi dövrləri xarakterik əlamətlərinə görə fərqləndirir;<br>- hadisə və faktları dövr baxımından qiymətləndirir və onlara münasibət bildirir;<br>- tarixi paralellər aparmaq yolu ilə ayrı-ayrı dövlətlərin inkişaf xüsusiyyətlərini müqayisə edir, mülahizələrini şərh edir. | - mənbələr əsasında müxtəlif tarixi dövrləri təhlil edir, onların oxşar və fərqli cəhətlərini izah edir, tezis, referat, məruzə hazırlayır;<br>- tarixi hadisə, proses və təzahürlərin səbəb-nəticə əlaqələrini müəyyən edir və tarixi dövr baxımından qiymətləndirir;<br>- dünya tarixinin hadisə və proseslərini Azərbaycan tarixinin eyni dövrləri ilə müqayisə edir və təhlillər aparır, mülahizələrini bildirir. |
| **2. Tarixi məkan** | **2. Tarixi məkan** |
| - tarixi məkana görə ictimai, iqtisadi, siyasi və mədəni prosesləri müqayisə edir və mülahizələrini şərh edir, nəticələri təqdim edir. | - müxtəlif tarixi hadisələri konkret məkan baxımından müqayisə edir və mülahizələrini bildirir;<br>- aqrar (ənənəvi), sənaye və informasiya cəmiyyətlərini məkana görə müqayisə edir, onların xarakterik cəhətlərini izah edir. |
| **3. Dövlət** | **3. Dövlət** |
| - ayrı-ayrı dövlətlərin yaranması və inkişafı xüsusiyyətlərini, ictimai, iqtisadi və siyasi prosesləri müqayisə edir, mülahizələrini açıqlayır;<br>- dövlətlərə aid müxtəlif tarixi mənbələri araşdırmaqla lazımi materialları toplayıb sistemləşdirir və təqdim edir. | - cəmiyyət və dövlətlərin inkişafında islahat və inqilabların rolunu fərqləndirir, aqrar (ənənəvi), sənaye və informasiya cəmiyyətlərini müqayisə edir və münasibət bildirir;<br>- bəşəriyyəti narahat edən qlobal problemlərin həllində dövlətin rolunu şərh edir;<br>- mənbələr əsasında müxtəlif dövlətlərin tarixinə dair təhlillər aparır, referat, məruzə və tezislər hazırlayır. |
| **4. Şəxsiyyət** | **4. Şəxsiyyət** |
| - tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir, onlara münasibət bildirir;<br>- mənbələri araşdırmaqla tarixi şəxsiyyətlərə dair materiallar toplayır, təqdimatlar edir. | - tarixi hadisə və proseslərin gedişində şəxsiyyətlərin rolunu qiymətləndirir, mülahizələri əsasında təqdimatlar edir;<br>- tarixi şəxsiyyətlərə dair tədqiqatlar aparır, mövqeyini bildirir və əsaslandırır. |
| **5. Mədəniyyət** | **5. Mədəniyyət** |
| - mədəniyyətləri və sivilizasiyaları xarakterik əlamətlərinə görə müqayisə edir və fərqləndirir;<br>- müxtəlif xalqların mədəni nailiyyətlərinə dair araşdırmalar aparır, təqdimatlar edir. | - aqrar (ənənəvi), sənaye və informasiya cəmiyyətlərində mədəniyyətin inkişaf xüsusiyyətlərini müqayisə edir və əsaslandırır;<br>- müasir dövrün qlobal problemlərinin həllində mədəniyyətlərarası və sivilizasiyalararası dialoqların roluna dair materiallar toplayır, |

| | |
|---|---|
| | məruzə və referatlar hazırlayır. |

Göründüyü kimi, ümumi orta və tam orta təhsil pillələri üzrə təlim nəticələrinin (bacarıqların) ardıcıl qeyd olunması cədvəldə inteqrasiyanı əyani şəkildə əks etdirməyə imkan verir.

Belə ki, ümumi orta təhsil pilləsində formalaşdırılan bacarıqlarla tam orta təhsil pilləsində formalaşdırılan bacarıqlar məzmun etibarilə bir-biri ilə sıx əlaqəlidir, biri digərini tamamlayır və inkişaf etdirir.

Ümumi orta təhsil pilləsinin birinci blokunda verilmiş (tarixi dövrləri xarakterik əlamətlərinə görə fərqləndirir, hadisə və faktları dövr baxımından qiymətləndirir və onlara münasibət bildirir, tarixi paralellər aparmaq yolu ilə ayrı-ayrı dövlətlərin inkişaf xüsusiyyətlərini müqayisə edir, mülahizələrini şərh edir) təlim nəticələri tam orta təhsil pilləsində verilmiş təlim nəticələri ilə (mənbələr əsasında müxtəlif tarixi dövrləri təhlil edir, onların oxşar və fərqli cəhətlərini izah edir, tezis, referat, məruzə hazırlayır, tarixi hadisə, proses və təzahürlərin səbəb-nəticə əlaqələrini müəyyən edir və tarixi dövr baxımından qiymətləndirir, dünya tarixinin hadisə və proseslərini Azərbaycan tarixinin eyni dövrləri ilə müqayisə edir və təhlillər aparır, mülahizələrini bildirir) sıx əlaqəlidir.

Ümumi orta təhsil pilləsinin ikinci blokunda verilmiş ( tarixi məkana görə ictimai, iqtisadi, siyasi və mədəni prosesləri müqayisə edir və mülahizələrini şərh edir, nəticələri təqdim edir) təlim nəticələri tam orta təhsil pilləsindəki ikinci blokda verilmiş təlim nəticələri ilə (müxtəlif tarixi hadisələri konkret məkan baxımından müqayisə edir və mülahizələrini bildirir, aqrar (ənənəvi), sənaye və informasiya cəmiyyətlərini məkana görə müqayisə edir, onların xarakterik cəhətlərini izah edir.) qarşılıqlı əlaqədədir.

Sənəddə siniflər üzrə təlim nəticələri arasında inteqrasiya gözlənilmişdir. Bu şagirdin siniflər üzrə inkişafını izləməyə imkan verir.

Nəzərə almaq lazımdır ki, Ümumi tarixin məzmununda inteqrativlik yüksək dərəcədədir. Çünki hər növbəti tarixi mərhələnin hadisə və təzahürləri müəyyən dərəcədə əvvəlki hadisələrlə bağlıdır və ondan asılıdır. Buna görə də şaquli

inteqrasiya prinsipi gözlənilmədən tarixi gedişi anlamaq mümkün deyildir. Həmin prisipin gözlənilməsi Ümumi tarix fənninin əsas xüsusiyyətlərindən biridir. Digər tərəfdən, Ümumi tarix ölkə ərazisində yaşamış və yaşayan insanların həyatının bütün sahələrini və təzahürlərini əhatə etdiyi üçün onun başqa fənlərlə, başqa bilik sahələri ilə yüksək bağlılığı vardır. Buna görə də Ümumi tarix fənninin hər mərhələsində üfüqi inteqrasiya gözlənilməlidir. Bu şagirdlər tərəfindən fənnin məzmununun mənimsənilməsinin zəruri şərtlərindəın biridir. Ümumi tarixi tədrisində iki tip inteqrasiya tətbiq etmək məqsədəuyğundur. Birinci tipə fənn daxilində (şaquli və üfqi) inteqrasiya, ikinci tipə isə fənlərarası (üfüqi) inteqrasiya daxildir. Birinci tip inteqrasiya özündə aşağıdakı modelləri birləşdirir:

-fraqmentləşdirilmiş (hissələrə bölünmüş) inteqrasiya;

-əlaqəli inteqrasiya;

- sıxlaşdırılmış (iç-içə yerləşdirilmiş) inteqrasiya.

Kurikulumun ənənəvi planlaşdırma və təşkili modeli olan fraqmentləşmiş fənlərdə olduğu kimi, Ümumi tarix də müstəqil tədris sahəsidir. Ümumi orta və tam orta təhsil pillələrində Ümumi tarix ayrıca fənn kimi tədris olunur. Bu modeldə fraqmentləşmə olmasına baxmayaraq, Ümumi tarix fənni daxilində tədris prioritetlərini sistemli təşkil etmək, üst-üstə düşmə və yüklənmə hallarını azaltmaq üçün inteqrasiya mövzularının, bacarıqların və konsepsiyaların sıra ilə qeyd olunması və dəyərləndirilməsi ilə başlana bilər.

## Siniflər üzrə ümumi təlim nəticələri

| | VI | VII | VIII | IX | X | XI |
|---|---|---|---|---|---|---|
| **1.** | -tarixdə il hesabından istifadə edir; | -tarixi faktları davametmə müddətinə görə fərqləndirir, onların xronoloji ardıcıllığını və sinxronluğunu müəyyənləşdirir; | - hadisə, proses və təzahürlər arasında səbəb-nəticə əlaqələrini ifadə edən xronoloji cədvəllər hazırlayır; | - müxtəlif ölkələrdə baş verən oxşar tarixi hadisə və faktları dövr baxımından qiymətləndirir; | - ölkələrdə baş verən dəyişiklikləri tarixi zaman baxımından qiymətləndirir; | - ölkədə baş verən siyasi, sosial-iqtisadi və mədəni faktları onun inkişafının müəyyən dövrü ilə əlaqədə dəyərləndirir; |
| **2.** | -mühüm hadisələrin xronoloji çərçivəsini müəyyən edir; | - xalqların və dövlətlərin ərazi məkanında baş verən dəyişiklikləri xəritə əsasında izah edir; | -feodal münasibətlərinin inkişafı və dağılmasını xalqların və dövlətlərin geosiyasi məkanında baş verən dəyişikliklərlə əlaqələndirir, həmin dəyişiklikləri kontur xəritəyə köçürür; | -kapitalist münasibətlərinin yaranmasını, dünya ölkələrində baş verən dəyişiklikləri məkanla əlaqədə izah edir; | - dünyada və Azərbaycanda baş verən hadisə, proses və təzahürlər arasında əlaqələri tarixi zaman baxımından izah edir; | - dünyada və Azərbaycanda baş verən hadisə, proses və təzahürlər arasında əlaqələri tarixi zaman baxımından qiymətləndirir; |
| **3.** | - qədim insanların həyatında təbii-coğrafi şəraitin rolunu müəyyənləşdirir; | - erkən feodal dövlətlərin idarəçilik formalarını və sosial-iqtisadi münasibətlərini müqayisə edir; | - mərkəzləşmiş feodal dövlətlərinin yaranmasını və inkişaf xüsusiyyətlərini təhlil edir; | - dünya ölkələrinin inkişafındakı qeyri-bərabərliyi onların siyasi quruluşu ilə əlaqələndirir; | - ölkə və xalqların sosial-iqtisadi və mədəni həyatında baş verən dəyişiklikləri məkan baxımından qiymətləndirir; | - ölkə və xalqların həyatında, beynəlxalq münasibətlərdə baş verən dəyişiklikləri məkan baxımından qiymətləndirir; |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **4.** | - dövlətlərin yaranmasını, onların siyasi quruluşunu, sosial-iqtisadi münasibətlərini tarixi bilik mənbələri əsasında izah edir; | - dövlət və mədəniyyətlərin inkişafında tarixi şəxsiyyətlərin rolunu izah edir; | - tarixi şəxsiyyətləri oxşar və fərqli cəhətlərinə görə fərqləndirir; | - tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir; | -geosiyasi dəyişikliklərin cəmiyyətin sosial-iqtisadi, siyasi həyatına təsirini təhlil edir; | - aqrar (ənənəvi), sənaye və informasiya cəmiyyətlərində dövlətin rolunu qiymətləndirir; |
| **5.** | -tarixi şəxsiyyətlərin həyat və fəaliyyətini təsvir edir; | - erkən orta əsrlərdə mədəniyyətlərin inkişaf istiqamətlərini və xüsusiyyətlərini izah edir. | - Şərqdə və Qərbdə intibah mədəniyyətlərinin inkişaf xüsusiyyətlərini, onların qarşılıqlı təsirini izah edir. | -mədəniyyətləri, sivilizasiyaları xarakterik əlamətlərinə görə fərqləndirir. | - tarixi şəxsiyyətləri mənsub olduqları dövlətlərin mənafeyi baxımından qiymətləndirir; | - tarixi şəxsiyyətləri mənsub olduqları ölkənin daxili və beynəlxalq həyatına təsiri baxımından qiymətləndirir; |
| **6.** | -mədəniyyətin yaranması və inkişafını insanların həyatında baş verən dəyişikliklərlə əlaqələndirir. | | | | -ənənəvi və sənaye cəmiyyətlərini mədəniyyətin inkişafına və mədəniyyətlərarası münasibətlərə görə qiymətləndirir. | -aqrar (ənənəvi), sənaye və informasiya cəmiyyətlərində mədəniyyətin inkişafını və mədəniyyətlərarası münasibətləri qiymətləndirir. |

## Fəndaxili və fənlərarası inteqrasiya

| **Tarixi zaman** | | | | | |
|---|---|---|---|---|---|
| **VI sinif** | **VII sinif** | **VIII sinif** | **IX sinif** | **X sinif** | **XI sinif** |
| **1.1.** ***Tarixi faktların tarixi zamanla*** | ***1.1. Tarixi faktların tarixi zamanla*** | ***1.1.Tarixi faktların tarixi*** | ***1.1.Tarixi faktların tarixi zamanla əlaqəsini anladığını*** | ***1.1. Tarixi faktları tarixi zamanla*** | **1*.1. Tarixi faktları tarixi zamanla əlaqədə*** |

| | | | | | |
|---|---|---|---|---|---|
| ***əlaqəsini anladığını nümayiş etdirir.***<br>1.1.1.Tarixdə il hesabından istifadə edir.<br><br>*Az-t. 1.1.1, 1.1.2.*<br>*C. 1.1.1.*<br>*İnf.-1.2.1.* | ***əlaqəsini anladığını nümayiş edir.***<br>1.1.1. Mühüm tarixi faktları davametmə müddətinə görə fərqləndirir.<br><br>*Az-t. 1.1.1, 1.1.2.*<br>*B.1.1.1.*<br>*İnf.-1.1.1.*<br>*C. 1.1.1.* | ***zamanla əlaqəsini anladığını nümayiş etdirir.***<br>1.1.1. Oxşar tarixi faktların baş verdiyi zamandan irəli gələn fərqli cəhətlərini izah edir.<br>*Az-t. 1.1.1.*<br>*C. 1.1.1.*<br>*İnf.-1.1.1.* | ***nümayiş etdirir.***<br>1.1.1. Müxtəlif ölkələrdə oxşar tarixi faktların müxtəlif zamanlarda baş verməsinin səbəb və nəticələrini izah edir.<br><br>*Az-t. 1.1.1.*<br>*İnf.- 1.1.1.*<br>*C. 1.1.1.*<br>*H-b.1.1.1.* | ***əlaqədə qiymətləndirir.***<br>1.1.1. Asılı və müstəmləkə xalqlarının milli-azadlıq hərəkatını tarixi zamanla əlaqədə dəyərləndirir.<br>*İnf.-1.1.1.*<br>*B.1.1.1.*<br>*C. 1.1.1.* | ***qiymətləndirir.***<br>1.1.1. Ölkədəki sosial-iqtisadi həyat faktlarını onun iqtisadi inkişafının müəyyən mərhələsi ilə əlaqədə dəyərləndirir.<br><br>*Az-t. 1.2.1.*<br>*İnf.-1.1.2.*<br>*C. 1.1.1.* |
| 1.1.2. İbtidai icma cəmiyyəti və qədim dövlətlərin meydana gəlməsi, inkişafı və tənəzzülü dövrlərini fərqləndirir.<br><br>*H-b. 2.1.1., 2.1.2.* | 1.1.2. Müxtəlif ölkələrdə baş vermiş ayrı-ayrı tarixi faktların sinxronluğunu müəyyənləşdirir.<br><br>*Ə. 2.1.3.* | 1.1.2. Oxşar proses və hadisələri əlaqələndirən sinxron cədvəllər tərtib edir.<br><br>*Az-t. 1.1.2.*<br>*H-b. 1.1.1.* | 1.1.2. Oxşar tarixi faktların baş verdiyi tarixi şərait arasındakı fərqi müəyyən edir.<br><br>*X-d. 2.1.3.* | 1.1.2. Ölkələrdə baş verən oxşar sosial-iqtisadi hadisə və prosesləri zaman baxımından şəraitlə əlaqədə müqayisə edir və dəyərləndirir.<br>*Az-t. 1.1.1.* | 1.1.2. Ölkədəki siyasi həyat faktlarını onun siyasi inkişafının müəyyən mərhələsi baxımından qiymətləndirir. |
| 1.1.3. Müxtəlif ölkələrdə baş vermiş bəzi mühüm hadisə, proses və təzahürlərin xronoloji çərçivəsini müəyyən edir.<br>*Az-t. 1.1.2*<br>*X-d. 3.2.4.* | 1.1.3. Tarixi faktları xronoloji qaydada sistemləşdirir.<br><br>*Az-t.1.1.1, 1.1.2.*<br>*1.2.1.*<br>*Ə. 2.1.3.* | 1.1.3. Hadisə, təzahür və proseslər arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirən xronoloji cədvəllər tərtib edir.<br><br>*Az-t. 1.1.2.*<br>*İnf. 3.2.4.* | 1.1.3. Mühüm tarixi faktların zamanla əlaqəsini göstərən sinxron cədvəllər hazırlayır.<br><br>*Az-t. 1.1.2.*<br>*İnf. 3.2.4.* | 1.1.3. Ölkələrdə baş verən oxşar mədəni hadisə və prosesləri tarixi şəraitlə əlaqədə dəyərləndirir. | 1.1.3. Ölkədəki mədəni həyat faktlarını onun mədəni inkişafının müəyyən mərhələsi ilə əlaqədə dəyərləndirir.<br><br>*Az-t. 1.2.1.* |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | 1.1.4. Dünyada və Azərbaycanda baş verən hadisə, proses və təzahürlər arasında əlaqələri tarixi zaman baxımından izah edir. | 1.1.4.Dünyada və Azərbaycanda baş verən hadisə, proses və təzahürlər arasında əlaqələri tarixi zaman baxımından qiymətləndirir. |

**Tarixi məkan**

| VI sinif | VII sinif | VIII sinif | IX sinif | X sinif | XI sinif |
|---|---|---|---|---|---|
| **2.1.Tarixi hadisə, proses və təzahürlərin baş verdiyi təbii-coğrafi şəraitiə bağlı bilik və bacarıqlar nümayiş etdirir.** | **2.1. Məkanda baş verən hadisə, proses və təzahürlərələ bağlı bilik və bacarıqlar nümayiş etdirir.** | **2.1. Məkanda baş verən hadisə, proses və təzahürlərlə bağlı bilik və bacarıqlar nümayiş etdirir.** | **2.1. Məkanda baş verən hadisə, proses və təzahürlərlə bağlı bilik və bacarıqlar nümayiş etdirir.** | **2.1. Məkanda baş verən hadisə, proses və təzahürlərlə bağlı bilik və bacarıqlar nümayiş etdirir.** | **2.1. Məkanda baş verən hadisə, proses və təzahürlərlə bağlı bilik və bacarıqlar nümayiş etdirir.** |
| 2.1.1. Ən qədim insan məskənlərinin, ilk sivilizasiyaların, dövlətlərin yaranması və inkişaf amillərini izah edir.<br><br>*Az-t. 2.1.1.*<br>*Ə. 2.4.3.*<br>*X-d . 2.1.3.* | 2.1.1.Feodal münasibətlərinin yaranmasını və inkişafını dövlətlərin və xalqların geosiyasi məkanında baş verən dəyişikliklərlə əlaqələndirir.<br>*Az-d. 1.2.2*<br>*X-d. 2.1.3.*<br>*Az-t. 2.1.1.* | 2.1.1. Feodal münasibətlərinin dağılması və kapitalist münasibətlərinin yaranmasını, dünyada baş vermiş iqtisadi, sosial dəyşiklikləri məkanla əlaqədə izah edir.<br><br>*Az-d. 1.2.2.*<br>*Az-t. 2.1.1.* | 2.1.1. Kapitalist münasibətlərinin inkişaf prosesində və müasir dünyada ölkələrin və xalqların sosial, siyasi, iqtisadi və mədəni həyatında baş verən dəyşiklikləri, məkan baxımdan qiymətləndirir.<br><br>*X-d. 4.1.2.*<br>*Az-d. 1.2.2.*<br>*Ə. 3.1.2.*<br>*H-d. 2.3.1.* | 2.1.1. Müxtəlif tarixi dövrlərdə ölkələrin və xalqların sosial-iqtisadi və mədəni həyatında baş verən dəyşiklikləri məkan baxımından qiymətləndirir.<br><br>*Az-t. 2.1.1.* | 2.1.1. Ölkələrin və xalqların sosial-iqtisadi və mədəni həyatında, beynəlxalq münasibətlərdə baş verən dəyişiklikləri, inteqrasiya prosesi ilə bağlı informasiyaları məkan baxımından qiymətləndirir.<br><br>*Ə. 2.1.3.*<br>*C. 3.2.2.* |

| | | | | | |
|---|---|---|---|---|---|
| 2.1.2. Təbii-coğrafi şəraiti əks etdirən xəritə əsasında hadisələrin baş verdiyi tarixi məkanı təsvir edir.<br><br>*Az-t. 2.1.2.*<br>*X-d. 2.1.3,*<br>*İnf. 3.2.3.*<br>*Ə. 2.1.3.* | 2.1.2. Dövlətlərin və xalqların ərazi məkanında baş verən dəyişiklikləri xəritələrin məlumatı əsasında təhlil edir.<br>*İnf. 3.2.3.*<br>*Ə. 2.1.3.*<br>*C. 3.1.1.*<br>*Az-t. 2.1.2.* | 2.1.2. Dövlətlərin və xalqların həyatında baş verən ərazi dəyişikliklərini xəritə və sxemlərdəki məlumatlar əsasında kontur xəritələrə köçürür.<br>*Az-t. 2.1.2.*<br>*İnf. 3.2.3.*<br>*C. 3.1.1.* | 2.1.2. Dövlətlərin ərazi dəyişikliklərini əks etdirən cədvəl və sxemlər hazırlayır.<br><br>*Az-t. 2.1.2.*<br>*İnf. 3.3.3., 3.3.4.*<br>*Ə. 2.1.3.*<br>*C. 3.1.1.* | 2.1.2. Dünya ölkələrində baş verən geosiyasi dəyişiklikləri müxtəlif formalarda (xəritə, sxem, cədvəllər) təqdim edir.<br>*Az-d. 4.1.4.*<br>*İnf. 2.2.4.*<br>*Az-t. 2.1.2.* | 2.1.2. Müasir dövrdə baş verən geosiyasi dəyişiklikləri müxtəlif formalarda (xəritə, sxem, cədvəl, diaqram) təqdim edir.<br>*Az-t.2.1.1., 2.1.2.*<br>*İnf. 2.2.2.*<br>*X-d. 4.1.4.*<br>*A-d. 1.2.4.*<br>*Ə. 3.1.2.*<br>*C. 3.2.3.* |
| **Dövlət** | | | | | |
| **VI sinif** | **VII sinif** | **VIII sinif** | **IX sinif** | **X sinif** | **XI sinif** |
| **3.1. Dövlətlərin yaranması, inkişafı və tənəzzülü ilə bağlı bilik və bacarıqlarını nümayiş etdirir.**<br><br>3.1.1. Qədim dövlətlərin (Misir, Şumer, Babil, Aşşur, İskit, Midiya, Əhməni, Hun, Çin, Parfiya, Hindistan, Yunanıstan və Roma dövlətləri) yaranmasını, idarəetmə qaydalarını, sosial-iqtisadi münasibətlərini təsvir edir. | **3.1. Dövlətlərin yaranması, inkişafı və tənəzzülü ilə bağlı bilik və bacarıqlarını nümayiş etdirir.**<br><br>3.1.1. Feodal dövlətlərinin (Çin, Sasani, Qafqaz xalqları, Ağ Hun, Qərbi Hun, Göytürk, Uyğur, Xəzər, Avar, Bulqar, Hindistan, Ərəb xilafəti, Frank, Bizans, Slavyan | **3.1. Dövlətlərin yaranması, inkişafı və tənəzzülü ilə bağlı bilik və bacarıqlarını nümayiş etdirir.**<br><br>3.1.1.Dövlətlərin (İngiltərə, Fransa, Rusiya, ABŞ, Osmanlı, İran, Çin, Hindistan, Mərkəzi Asiyanın türk dövlətləri, Qazaxıstan, Krım, Sibir, Volqaboyu, Qafqaz xalqları) yaranmasını, | **3.1.Dövlətlərin yaranması, inkişafı və tənəzzülü ilə bağlı bilik və bacarıqlarını nümayiş etdirir.**<br><br>3.1.1. Dünyanın (Avropa dövlətləri və Rusiya, ABŞ və Latın Amerikası ölkələri, Türk dünyası və Qafqaz xalqları, Asiya, Afrika ölkələri) siyasi inkişaf mərhələsini şərh edir.<br><br>*X-d. 2.1.1.*<br>*Ə.2.1.3.*<br>*H-b. 2.1.1., 2.1.2, 2.2.1.*<br>*Az-t. 3.1.1.* | **3.1. Dövlətlərin inkişafını siyasi, sosial, iqtisadi münasibətlərin xarakterinə görə qiymətləndirir.**<br><br>3.1.1. Cəmiyyətin inkişafının kapitalizimə qədərki dövründə dövlətlərin (Afrika ölkələri, Asiya, Avropa və Amerikanın aparıcı dövlətləri) yaranması və inkişafı prosesini, geosiyasi | **3.1. Dövlətlərin inkişafını siyasi, sosial, iqtisadi münasibətlərin xarakterinə görə qiymətləndirir.**<br><br>3.1.1. Cəmiyyətin inkişafının yeni və müasir mərhələsində dövlətləri (Almaniya, İngiltərə, Fransa, ABŞ, SSRİ, Rusiya, Türkiyə, Yaponiya, Çin, Koreya, Hindistan, İran, Qafqaz xalqları, Mərkəzi Asiya, Krım, Volqaboyu, Sibirin türk xalqları, |

| | | | | | |
|---|---|---|---|---|---|
| *Az-t. 3.1.1.*<br>*Ə. 2.1.3.*<br>*H-b. 2.1.1, 2.1.2, 2.2.1.* | dövlətləri, Oğuz, Səlcuq, Samani, Qaraxanlı, Qəznəvi, Xarəzmşahlar, Monqol, Osmanlı, Qızıl Orda, Teymuri Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi, Böyük Moğol, Rusiya, İngiltərə, Fransa, İspaniya, İtaliya, Almaniya) yaranması, idarəçilik formaları və sosial-iqtisadi və siyasi münasibətlərini şərh edir.<br>*Ə. 2.1.3.*<br>*H-b. 2.1.1, 2.1.2, 2.2.1.*<br>*Az-t. 3.1.2. 3.1.3.* | idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətləri təhlil edir.<br><br>*Az-t. 3.1.1.*<br>*Ə. 2.1.3.*<br>*H-b. 2.1.1, 2.1.2, 2.2.1.* | | dəyişiklikləri izah edir.<br><br>*Az-t.3.1.1.*<br>*X-d. 3.1.4.* | Ərəb ölkələri) siyasi quruluşuna, aqrar (ənənəvi), sənaye və informasiya cəmiyyətlərində vəzifələrinə görə dəyərləndirir.<br><br>*Az-t. 3.1.1., 3.1.2.*<br>*Az-d. 1.2.2.*<br>*Ə. 2..1.3.* |
| 3.1.2. Mənbələr əsasında qədim dövlətlərlə bağlı məlumatlar toplayır və təqdim edir.<br><br>*İnf. 3.2.1., 3.2.3.*<br>*Ə. 3.1.2.*<br>*Az-t. 3.1.2.3.1.3.* | 3.1.2. Feodal dövlətlərin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl və dioqramlar hazırlayır.<br>*İnf. 2.1.2.*<br>*Az-t. 3.1.3.* | 3.1.2. Yeni tipli dövlətlərin qeyri-bərabər inkişafına aid esse yazır.<br><br>*Az-d. 3.1.1.*<br>*Ə. 3.1.3.*<br>*X-d. 4.1.2.* | 3.1.2. Dünyanın siyasi inkişaf mərhələsinə aid təqdimatlar hazırlayır<br><br>*Az-t. 3.1.3.*<br>*İnf. 3.3.3.*<br>*Az-d. 1.2.4.* | 3.1.2.Geosiyasi dəyişikliklərin cəmiyyətin sosial-iqtisadi həyatına təsirini şərh edir.<br><br>*Az-d. 1.2.2.* | 3.1.2. Qlobal problemlərin həllində dövlətlərin rolunu şərh edir.<br><br>*C. 3.2.5.*<br>*Az-d. 1.2.2.*<br>*Ə. 2..1.3.*<br>*C. 3.1.1.* |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | 3.1.3. Mənbələr əsasında dövlətlərin tarixinə dair materiallar toplayır və məruzələr hazırlayır.<br>*Az-d. 3.1.4.*<br>*X-d. 4.1.4.* | 3.1.3. Mənbələr əsasında dövlətlərin tarixinə dair təhlillər aparır, referat və tezislər hazırlayır.<br>*Az-d. 3.1.4.*<br>*Ə. 3.1.3.* |
| ***4.1.Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir.***<br>4.1.1. Tarixi şəxsiyyətləri (I Tutmos, III Tutmos, II Ramzes, Hammurapi, Aşşurbanipal, II Sarqon, II Kir, I Dara, Mete xaqan, İskəndər, Sin Şixuandi, Aşoka, Solon, Mitridat, Perikl, Yuli Sezar, Oktavian Avqust, Konstantin) müəyyənləşdirir.<br>*Az-d. 2.2.3.*<br>*Ə. 2.1.3.*<br>*Az-t. 4.1.1.* | ***4.1. Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir.***<br>4.1.1. Dövlətlərin və mədəniyyətlərin inkişafında şəxsiyyətlərin (Attila, Xlodviq, Bumın xaqan, Məhəmməd peyğəmbər, Böyük Karl, Mahmud Qəznəvi, Alp Arslan, Məlik şah, Çingiz xan, Qara Yusif, Uzun Həsən, Batı xan, II Mehmet, Əmir Teymur, Sultan Süleyman Qanuni, Əkbər şah, Şah İsmayıl, I Təhmasib, Oranlı Vilhelim, IV İvan) | ***4.1. Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir.***<br>4.1.1. Tarixi şəxsiyyətləri (Oliver Kromvel, Maksimilian Robespyer, I Pyotr, II Yekaterina, Corc Vaşinqton, Benjamin Franklin, Köprülü Mehmet paşa, III Səlim, Nadir şah, Ağa Məhəmməd şah Qacar) müqayisə edir.<br>*Mus. 1.1.1*<br>*Ə. 2.1.3.*<br>*Az-t. 4.1.1.* | ***4.1. Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir.***<br>4.1.1. Tarixi şəxsiyyətləri (I Napoleon, Cüzeppe Haribaldi, I Aleksandr, Sultan II Əbdülhəmid, Otto Bismark, Avraam Linkoln, Franklin Ruzvelt, Vladimir İliç Lenin, İosif Visarianoviç Stalin, Mustafa Kamal Atatürk, Sun Yatsen, Şarl de Qoll, Konrad Adenaur, Turqut Özal, Mao Tszedun, Cəvahirləl Nehru, Heydər Əliyev) fəaliyyətini sosial qrupların mənafeyi baxımından təhlil etməklə onlara münasibət bildirir.<br>*Mus. 1.1.1*<br>*X-d. 4.1.2.*<br>*Az-t. 4.1.1.* | ***4.1. Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir***.<br>4.1.1. Tarixi şəxsiyyətləri (II Ramzes, Hamurapi, II Kir, I Dara, İsgəndər, Yuli Sezar, Konstantin, Atilla, Məhəmməd Peyğəmbər, Böyük Karıl, Alp Arsla, Çingiz xan, II Mehmet Fateh,Əmir Teymur, Sultan Süleyman Qanuni, Şah İsmayıl, Təhmasib, IV İvan) mənsub olduqları dövlətlərin mənafeyi baxımından qiymətləndirir. | ***4.1. Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir.***<br>4.1.1. Tarixi şəxsiyyətləri (I Pyotr, Corc Vaşinqton, III Səlim, Nadir şah, Ağa Məhəmməd şah Qacar, I Napaleon, I Aleksanadır, Avraam Linkoln, Franklin Ruzvelt, Vladimir İliç Lenin, İosif Visarianoviç Stalin, Mustafa Kamal Atatürk, Sun Yatsen, Şarl de Qoll, Konrad Adenaur, Turqut Özal, Mao Tszedun, Cəvahirləl Nehru, Heydər Əliyev) mənsub olduqları ölkələrin daxili və beynəlxalq həyatına təsiri baxımından qiymətləndirir. |

| | | | | | |
|---|---|---|---|---|---|
| | rolunu izah edir.<br>*Mus. 1.1.1*<br>*Az-d. 2.2.3.*<br>*Ə. 2.1.3.*<br>*Az-t. 4.1.1.* | | | *Az-t. 4.1.1.*<br>*Az-d. 2.2.3.* | *Az-d.2.2.3.*<br>*Az-t. 4.1.1.* |
| 4.1.2. Mənbələr əsasında qədim dövrün tarixi şəxsiyyətləri haqqında məlumatlar toplayır, təqdim edir.<br><br>*Az-t. 4.1.2.*<br>*Ə.2.1.3.*<br>*İnf. 3.2.3.*<br>*T-i. 1.3.1.* | 4.1.2. Dövlətin və mədəniyyətin inkişafında tarixi şəxsiyyətlərin rolu ilə bağlı məlumatlar toplayır və təqdimatlar hazırlayır.<br>*Az-t. 4.1.2.*<br>*İnf. 3.2.3.*<br>*Ə.2.1.3.*<br>*T-i. 1.3.1.* | 4.1.2. Tarixi şəxsiyyətlərin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl hazırlayır.<br><br>*İnf. 3.2.4.*<br>*Az-t.4.1.2.*<br>T-i. 1.3.1. | 4.1.2. Topladığı materiallar əsasında tarixi şəxslərə dair esse və hekayələr yazır.<br><br>*Az-d. 3.1.4.*<br>*X-d. 4.1.1.*<br>*Az.t. 4.1.2.*<br>T-i. 1.3.1. | 4.1.2. Tarixi şəxsiyyətlərin fəaliyyətinə dair məruzə və referatlar hazırlayır.<br><br>*İnf. 4.1.2.*<br>*A-d. 4.1.4.*<br>*Ə. 3.1.3.*<br>*X-d. 4.1.4.*<br>Az-t. 4.1.2. | 4.1.2. Tarixi şəxsiyyətlər haqqında araşdırmalar aparır, təqdimatlar edir.<br><br>*İnf. 3.3.2.*<br>*Ə. 3.1.2.*<br>*X-d. 4.1.4.*<br>Az-t. 4.1.2. |

| **Mədəniyyət** | | | | | |
|---|---|---|---|---|---|
| **VI sinif** | **VII sinif** | **VIII sinif** | **IX sinif** | **X sinif** | **XI sinif** |
| *5.1. Mədəniyyətləri və sivilizasiyaları qiymətləndirir.*<br>5.1.1. Mədəniyyətin ayrı-ayrı sahələrinin insanların həyat tərzi ilə əlaqələrini izah edir.<br>*Az-d. 1.2.4.*<br>*Ə. 2.1.3.*<br>*X-d. 1.1.1.*<br>*Az-t. 5.1.1.* | *5.1. Mədəniyyətləri və sivilizasiyaları qiymətləndirir.*<br>5.1.1. Avropa və Şərq mədəniyyətinin inkişaf xüsusiyyətlərini izah edir.<br>*İnf. 3.2.1. 3.2.3.*<br>*X-d. 2.1.3.*<br>*Az-t. 5.1.1.* | *5.1. Mədəniyyətləri və sivilizasiyaları qiymətləndirir.*<br>5.1.1. Şərq və Qərbdə intibah mədəniyyətinin xüsusiyyətlərini izah edir.<br><br>*Az-d. 1.2.1.*<br>*X-d. 2.1.3.* | *5.1. Mədəniyyətləri və sivilizasiyaları qiymətləndirir.*<br>5.1.1. Mədəniyyətlərin inkişafına təsir edən amilləri izah edir.<br><br>*Az-d. 2.2.3.*<br>*X-d. 2.1.3.* | *5.1. Mədəniyyətləri və sivilizasiyaları qiymətləndirir.*<br>5.1.1. Aqrar (ənənəvi) və sənaye cəmiyyətlərinin mədəniyyətlərin inkişafına təsirini izah edir.<br>*X-d. 2.1.1.*<br>*A-d. 2.2.3*<br>*B.3.2.5.;4.2.1.*<br>*K.4.2.1.* | *5.1. Mədəniyyət və sivilizasiyaları qiymətləndirir.*<br>5.1.1. Aqrar (ənənəvi), sənaye və informasiya cəmiyyətlərinin mədəniyyətin inkişafına təsirini izah edir.<br><br>*Ə. 3.1.1.*<br>*X-d. 3.1.1.* |

| | | | | | |
|---|---|---|---|---|---|
| 5.1.2. Mədəniyyətlərarası və sivilizasiyalararası əlaqələrə münasibət bildirir.<br>*Az-d. 1.2.4.*<br>*Ə. 3.1.2.*<br>*Az-t. 5.1.2.* | 5.1.2. Şərq mədəniyyətinin dünya mədəniyyətinə təsirini müəyyən edir.<br>Az-t. 5.1.2.<br>*Ə. 2.1.3.*<br>*X-d . 2.1.3.* | 5.1.2. Elmi kəşf və ixtiraların dünya mədəniyyətinin inkişafına təsirini izah edir.<br>*Az-t. 5.1.2.*<br>*Ə. 4.1.3.*<br>*Az-d. 2.1.3.* | 5.1.2.Mədəniyyətlərarası və sivilizasiyalararası qarşılıqlı təsiri və ziddiyyətləri izah edir.<br><br>*Az-t. 5.1.2.*<br>*H-b. 3.2.1.*<br>*X-d. 2.1.3.* | 5.1.2. Aqrar (ənənəvi) və sənaye cəmiyyətlərinin mədəniyyətlərarası və sivilizasiyalararası əlaqələrə təsirini əsaslandırır.<br>*X-d. 2.1.3.*<br>*Ə. 2.1.3.* | 5.1.2. Aqrar (ənənəvi), sənaye və informasiya cəmiyyətlərinin mədəniyyətlərarası və sivilizasiyalararası əlaqələrə təsirini əsaslandırır.<br>*Az-t. 5.1.2.*<br>*Ə. 2.1.3.*<br>*X-d. 3.1.4.* |
| 5.1.3. Mədəniyyətlərə, mədəniyyətlərarası əlaqələrə dair məlumat toplayır, təqdim edir.<br>*Az-t. 5.1.3.*<br>*İnf. 3.2.1.*<br>*Az-d. 1.2.1.*<br>*X-d. 2.1.3.*<br>*Ə. 3.1.2.* | 5.1.3. Mədəniyyətlərin inkişafı ilə bağlı materiallar toplayır.<br><br>*Az-t. 5.1.3.*<br>*Az-d. 3.1.2.*<br>*Ə.3.1.2.* | 5.1.3. Dünya mədəniyyətinin nailiyyətlərinə dair cədvəl və qrafiklər hazırlayır.<br>*Az.t. 5.1.3.*<br>*İnf. 2.1.2.*<br>*Az-d. 3.1.3.*<br>*X.d. 4.1.4.* | 5.1.3.Mədəniyyətlərarası və sivilizasiyalararası əlaqələrə dair esse və hekayələr yazır.<br><br>*Az-d. 3.1.3.*<br>*X-d. 4.1.1.*<br>*H-b. 3.2.1.* | 5.1.3. Aqrar (ənənəvi) və sənaye cəmiyyətlərinin mədəniyyətlərarası və sivilizasiyalararası əlaqələrə təsiri ilə bağlı referat və məruzələr hazırlayır.<br>*Az-t. 5.1.2, 5.1.3.*<br>*Az-d. 3.1.4.*<br>*Ə. 3.1.2.*<br>*X-d. 4.1.4.* | 5.1.3.Mədəniyyətlərarası və sivilizasiyalararası əlaqələrə dair referat və tezislər hazırlayır.<br><br>*Az-t.5.1.3.*<br>*Az-d. 3.1.4.*<br>*Ə.3.2.1.*<br>*X-d. 2.1.3.* |

***İxtisarlar:***

*Azərbaycn taix -Az-t.*

*Azərbaycan dili-Az-d.*

*Ədəbiyyat-Ə.*

*İnformatika-İnf.*

*Xarici dil-X-d.*

*Təsviri incəsənət-T-i.*

*Musiqi-Mus.*

*Kimya- K.*

*Biologiya- B.*

*Coğrafiya- C.*

*Həyat bilgisi- H-b.*

## II Təlim strategiyaları

### 2.1. Ümumi tarix təliminin təşkilinə verilən əsas tələblər

Demokratik cəmiyyət quruculuğu yolu ilə gedən ölkəmizdə hər hansı bir fənn üzrə təlim strategiyasını hazırlayarkən demokratiyanın aşağıdakı beş şərti nəzərə alınmalıdır:

- Demokratiya müzakirə-düşüncələrin mübadiləsi deməkdir.
- Demokratiyaya yalnız müzakirə zamanı nail olmaq mümkündür. Ona görə də əgər sinifdə demokratik ab-havanın olmasını istəyiriksə, o zaman bütün şagirdlərin müzakirəyə qatılması planlaşdırılmalıdır.
- Öz fikrini, öz baxışını bölüşənlər üçün demokratik şərait lazımdır. Ona görə də bu, təlim elə təşkilat formalarını və üsullarını planlaşdırılmağı tələb edir ki, orada hər bir şagird öz baxışlarını sərbəst şəkildə elan edə bilsin.
- Hər bir kəsin öz fikrini, baxışını bildirmək haqqı vardır. Təlim prosesində elə bir psixoloji mühitin yaradılması planlaşdırılmalıdır ki, burada başqasının rəyinə hörmətlə yanaşılsın, plüralizm şəraiti mövcud olsun.
- Demokratiya görkəmli şəxsiyyətlərə hörməti qəbul edir, lakin «nüfuzlu adamlar səhv etmir» fikri ilə razılaşmır. (Düşüncəyə təzyiq, fikir ağalığı tiranın hakimiyyəti qədər qorxuncdur). Bu sözlər həm sinifdə aparıcı şəxsiyyət hesab edilən müəllimə, həm də dərsdə rəyi müzakirə olunan istənilən subyektə aiddir.

Bu şərtlər istər təlim strategiyasının planlaşdırılmasının, istərsə də onun dərsdə reallaşdırılmasının əsasında durmalıdır.

Hər hansı bir dövrdə cəmiyyətin təhsilə verdiyi tələblər həmin cəmiyyətin iqtisadi, sosial-siyasi və mədəni inkişafından doğan tələbatları ilə sıx bağlı olur. Bununla əlaqədar olaraq, müasir dövrdə ölkəmizdə tarix dərsinə verilən tələbləri müəyyənləşdirən amillərdən aşağıdakıları göstərmək olar:

- Bazar iqtisadiyyatına keçid: bazar iqtisadiyyatına əsaslanan cəmiyyət şəxsiyyətdən dərin bilik, mənəvi zənginlik, yüksək qabiliyyət, bacarıq və vərdişlər tələb edir
- Ölkəmizin hazırki beynəlxalq vəziyyəti: beynəlxalq münasibətlər sistemində baş verən sürətli dəyişikliklər şəraitində ermənilərin ölkəmizə qarşı

ərazi iddiaları ilə bağlı tarixi saxtakarlıqları, xalqımıza qarşı böhtan və iftiralar cəmiyyətdən dünyada gedən hadisə və təzahürləri düzgün qiymətləndirməyi, öz baxışlarının düzgünlüyünü sübut etməyi bacaran şəxsiyyət yetişdirməyi tələb edir.

- Müasir dövrdə elmi biliklərin sürətli artımı, informasiya axınının intensivləşməsi bu informasiya axınından baş açmağı, özü üçün zəruri olan məlumatları seçməyi və sistemləşdirməyi, təhlil etməyi və nəticə çıxarmağı, öz mülahizələrini təqdim etməyi bacaran şəxsiyyətlərin yetişdirilməsini tələb edir.
- Müasir dövrdə uşaqların sürətli inkişafı məktəbdə təlimin məzmununun, metod, forma və vasitələrinin həmin surətə cavab verməsini tələb edir.
- Fiziki, emosional və intellektual inkişaf səviyyəsi müxtəlif olan uşaqlara differensiyal yanaşmanın zərurətə çevrilməsi.

Bu amillər təhsilin modernləşdirildiyi müasir dövrdə xüsusi əhəmiyyət kəsb edir.

Təhsilin modernləşdirilməsi müasir dərsə verilən tələblərə yeni prizmadan yanaşmağı nəzərdə tutur. Müasir dərsin əsas əlamətləri təhsilin keyfiyyəti ilə bağlıdır. Təhsilin keyfiyyəti isə şəxsiyyətin, cəmiyyətin və dövlətin aktual və perspektiv tələbatlarına müvafiq olmalıdır. Beləliklə, təhsilin modernləşdirilməsi vəzifələrinin həlli dərsin bu tələbatlara istiqamətlənməsini tələb edir, bu tələbatların yerinə yetirilməsində dərs mühüm rol oynayır. Bu ondan irəli gəlir ki:

- Uşaq məktəbdə keçirdiyi vaxtın çoxunu dərsdə oturur. Təhsilin modernləşdirilməsinin əsas vəzifələri isə dərsdə həyata keçirilir.
- Müasir dərs şagirdlər tərəfindən təhsil standartlarının mənimsəməsində əsas mexanizm kimi çıxış edir.
- Dərs zamanı şagirdlərdə bacarıqlar formalaşır. Bu isə təhsilin modernləşdirilməsinin əsas ideyalarından biridir.

- Şagirdə fərdi yanaşmanın ən mühüm forması dərsdir. Dərsdə onun maraq və qabiliyyətləri, şəxsi keyfiyyətlərinin inkişafı nəzərə alınır və inkişaf etdirilir.

Modernləşdirmənin əsas nəticələrindən biri məktəb məzunlarında həm öz rifahı, həm də cəmiyyətin rifahı üçün şəxsi məsuliyyətin formalaşdırılmasıdır. Ona görə də müasir dərs şagirdləri yalnız biliklərlə silahlandırmamalı, onların bütöv şəxsiyyətini, idraki və yaradıcı qabiliyyətlərini inkişaf etdirməlidir.

Bu mövqeyə uyğun olaraq müasir dərsin təşkilinə qoyulan yeni yanaşmanı ümumi şəkildə aşağıdakı kimi ifadə etmək olar:

- dərsin sosialyönümlülüyünün gücləndirilməsi, kommunikativ mədəniyyətin inkişafı;
- təhsilin təcrübiyönümlülüyü (bu, fundamental və praktik biliklərin optimal əlaqələndirilməsini nəzərdə tutur);
- təfəkkürün, praktik vərdişlərin inkişafına yönümlülük;
- müxtəlif intellektiv kursların, kolelktiv iş formalarının genişləndirilməsi, öyrənilən materialın gündəlik həyatın problemlərinə bağlanması;
- təhsil prosesinin diferensiallaşdırılması, şagirdlərin müstəqil işinin artırılması (referat, layihə və s.)

Tarix təlimi məktəbdə həyata keçirilən təlim-tərbiyə sisteminin bir həlqəsidir. İstər bütövlükdə bu sistemin, istərsə də ayrılıqda tarix təliminin səmərəliliyinə nail olmaq üçün onların arasında sıx əlaqənin yaradılması təmin olunmalıdır. Bu əlaqə olmadan, ayrı-ayrılıqda onların heç biri məktəblilərin təlim-tərbiyəsi sahəsində qarşıya qoyulan vəzifələrin öhdəsindən gələ bilməz. Buna görə də ümumi tarixdən kurikumun hazırlanması prosesində aşağıdakı amillər nəzərə alınmalıdır:

- Tarix dərslərində şagirdlərin təlimi, tərbiyəsi və inkiaşfı prosesinin digər məktəb fənlərinin öyrənilməsində həyata keçirilən təlim-tərbiyə prosesi ilə əlaqələndirilməsi;

- Tarixin öyrənilməsi prosesində həyata keçirilən təlim-tərbiyə işlərinin ailədə, ictimaiyyətdə, kütləvi informasiya və təbliğat vasitələrində həyata keçirilən tərbiyəvi təsirlərlə əlaqələndirilməsi;
- Şagirdlərin tarix dərslərindəki fəaliyyətinin ictimai fəalliyyət ilə əlaqələndirilməsi.

Bütün bunları nəzərə alaraq mövcud psixoloji-metodiki ədəbiyyatı təhlil edərək tarix dərsində təlimin təşkilinə verilən tələbləri aşağıdakı kimi formalaşdırmışıq:

- tarix dərsinin məzmunu cəmiyyətin sosial, iqtisadi, siyasi və mədəni həyatının inkiaşf səviyyəsinə və tələblərinə, o cümlədən tarix elminin müasir vəziyyətinə uyğun olmalıdır;
- Təlimin məzmunu dövlət standartlarının və fənn kurikumunun tələblərinə, dərsin təhsil, tərbiyəvi və inkişafetdirici vəzifələrinə, şagirdlərin yaş xüsusiyytələrinə, bilik, bacarıq və vərdişlərinin inkişaf tələblərinə müvafiq olmalıdır;
- Təlimin təhsil, tərbiyə və inkişafetdirici vəzifələri düzgün müəyyənləşdirilməli və kompleks şəkildə həyata keçirilməlidir;
- Təlimin hər bir mərhələsində şagirdlərin idrakı fəallığını təmin edən kollektiv və fərdi işin müxtəlif formalarını əlaqələndirməyə imkan verən öyrənmə, stimullaşdırma və nəzarətin ən səmərəli üsul, metod və vasitələri seçilməli, onların optimallığı təmin edilməlidir;
- Şagirdlərin dərketmə fəaliyyəti təlimin digər komponentlərinə uyğun olaraq təşkil edilməlidir;
- Şagirdlərin fəallığının təmin edilməsi üçün təlim motivləşdirilməlidir, yəni şagirdlərdə işin məzmun və metodlarına maraq oyadılmalı, dərsdə yaradıcı, emosional şərait təmin edilməlidir;
- Təlimin metod və vasitələri dərsin növü və onun strukturu ilə uyğunlaşdırılmalıdır;
- Təlimdə müəllim və şagird fəaliyyətinin vəhdəti təmin olunmalıdır;
- Təlimin səmərəliliyi təmin olunmalıdır. Yəni:

a) şagirdlər özünütəhsil və refleksiya təcrübəsi əldə etməli, sinifdə onların tətbiqi təmin olunmalıdır;

b) məktəblilərin öz öyrənmə fəaliyyətinin nəticələrini təqdimat, esse, layihə, veb-sayt formasında təqdim etmək təcrübəsinin tətbiqinə nail olunmalıdır;

c) təlimin qarşısına qoyulan standartların maksimum reallaşdırılmasına nail olunmalıdır;

- tarix təliminin müasir həyatla əlaqəsi təmin edilməlidir;
- tarix üzrə dərs və dərsdənkənar (sinifdənkənar) işin vəhdəti təmin olunmalıdır;
- təlimdə bütün didaktik prinsiplərin optimal nisbətdə həyata keçirilməsi təmin edilməlidir.

### *Fəal dərsin mərhələləri:*

**<u>I mərhələ: motivasiya, problemin qoyulması</u>**

"Ümumi tarix" fənninin tədrisi prosesndə hər bir tədqiqat problemin müəyyənləşdirilməsi ilə başlayır. Əsl problem həmişə çoxsaylı fərziyyələr, ehtimallar doğurur və bunları yoxlamaq üçün ilk növbədə tədqiqat sualının formalaşdırılması lazım gəlir. Çünki tədqiqat sualı yeni biliklərin kəşf olunmasında bələdçi kimi çıxış edir.

Bu mərhələdə şagirdlər düşünməyə, idraki fəallığa sövq edildiyindən, o həm də **motivasiya** adlandırılır.

"Ümumi tarix" fənnində motivasiyanın uğurlu alınması üçün aşağıdakı şərtlərin əməl edilməsi tövsiyə edilir:

1. Motivasiya üçün seçilən material qeyri-adi, maraqlı olmalı;
2. Fərziyyələri yoxlamaq, tədqiqat aparmaq və yaradıcılıq üçün imkan verməli;
3. Müəllim şagirdlərə yönəldici suallar verməli, fərziyyələri irəli sürərkən onları həvəsləndirməli;

4. Tədqiqat sualı təlim standartlarına əsasən müəyyənləşdirilməli və dərsin məqsədinə yönəldilməli.
5. Müxtəlif audio-vüzual vasitələrlə şagirdlərin diqqətini şəkərək maraq oyatmalıdir.
6. Motivasiya mürəkkəb olmamalı, dərsin çox hissəsini aparmamalıdır.
7. Motivasiya tədqiqat sualının ortaya qoyulması ilə bitməlidir.

**II mərhələ: tədqiqatın aparılması**

Dərsin məqsədinə və tədqiqat sualına uyğun iş üsulları seçilir. Tədqiqat sualına cavab verməyə kömək edəcək faktları tapmaq üçün məqsədyönlü iş aparılır. Şagirdlərə müxtəlif çalışmalar verilir. Beləliklə, tədqiqat sualına cavab tapmaq üçün zəmin yaranır. Dərsin əsas hissəsini təşkil edir. Şagirdlərin fəaliyyətə, analizə, araşdırıcılığa cəlb edilən hissəsidir. Müəllim bütün şagirdlərin tədqiqatda iştirakına şərait yaratmalıdır. Tədqiqat toplanmış faktlar əsasında təqdimatların hazırlanması ilə bitir.

Tədqiqat müxtəlif formalarda: kollektiv, qruplarla, cüt şəklində və fərdi qaydada aparıla bilər.

**III mərhələ: məlumatın mübadiləsi**

"Ümumi tarix" fənnindən verilmiş problemə aid tədqiqat üçün ayrılmış vaxt bitdikdən sonra müəllim tapşırığın icrasının başa çatdığını bildirir. Bundan sonra şagirdlər informasiyanın təqdimatına başlayır, əldə etdikləri yeni informasiyaları digər iştirakçılarla bölüşürlər. Həmin təqdimatların əks olunduğu iş vərəqləri lövhədən asılır.

**IV mərhələ: məlumatın müzakirəsi**

Mövcud mərhələnin məqsədi yeni əldə edilmiş informasiyanı sistemləşdirmək və qrupların hazırladıqları təqdimatlar arasındakı əlaqəni üzə çıxarmaqdır.

Bu mərhələdə müəllim köməkçi suallardan istifadə etməklə əldə olunmuş faktların məqsədyönlü müzakirəsini təşkil edir. Məlumat sxem, qrafik, cədvəl, təsnifat və s. formalarda təqdimatlar dinlənilir. Nəticədə tədqiqat sualına cavab aydınlaşır.

**V mərhələ: nəticə və ümumiləşdirmə**

Aparılan tədqiqatdan sonra nəticəyə gəlmək üçün müəllim şagirdlərin köməyi ilə yeni bilikləri, əldə edilmiş ideyanı tədqiqat sualı ilə və şagirdlərin ilkin fərziyyələri ilə müqayisəsə edərək ümumiləşdirir. Hamı tədqiqat sualına cavab verildiyinə əmin olur.

**VI mərhələ: yaradıcı tətbiqetmə və ya ev tapşırıqları**

"Ümumi tarix" fənnində yaradıcı tətbiqetmə biliyi möhkəmləndirir, onun praktiki əhəmiyyətini artırır. Bu məqsədlə şagirdlərə həyatla əlaqəli praktik tapşırıqlar verilir. Əgər yaradıcı tətbiqetməni dərhal icra etmək mümkün olmursa, o sonrakı dərslərdə həyata keçirilir.

Dərsdə alınmış bilik, bacarıq və vərdişlərin möhkəmləndirilməsi üçün ən geniş yayılmış sərbəst iş forması ev tapşırıqlarıdır.

**Refleksiya və Qiymətləndirmə**

Refleksiya – təlim prosesinin bütün mərhələlərini təhlil etməyə və onu dərindən başa düşməyə imkan verir. Qiymətləndirmə şagirdlərin təlimdəki nailiyyətlərinin dəyərləndirilməsi prosesidir. Qiymətləndirmə konkret meyarlar üzrə aparılmalıdır. Müəllim şagirdləri əvvəlcədən bu meyarlarla tanış etməlidir.

## 2.2. Tarix təlimin təşkilində istifadə olunan forma və üsullar barədə

Təcrübə göstərir ki, fəal təlim şəraitində kollektiv, qruplarla, cütlərlə və fərdi iş daha əhəmiyyətlidir. Kolektiv iş şagirdlərdə qazanılmış kollektivçilik vərdişlərini inkişaf etdirir.

Kiçik qruplarda iş bir çox interaktiv üsulların ayrılmaz tərkib hissəsidir. Bu iş interaktiv dərslərdə müxtəlif formalarda həyata keçirilə bilər. Bəzən dərsdə qarşıya çıxan (və ya qarşıya qoyulan) problemi şagirdlər müstəqil həll etməyə qadir olmurlar. Bu zaman qrupla iş üsulundan istifadə etməklə şagirdlərin birlikdə, kollektiv şəkildə, əməkdaşlıq şəraitində problemin həllinə nail olması mümkündür. Lakin kiçik qruplarda iş adətən çox vaxt apardığından ondan tez-tez istifadə etmək məqsədəuyğun sayılmır.

Kiçik qruplarda işi təşkil etmək üçün müəllim aşağıdakı məsləhətlərə əməl etməlidir:

1. Qrupla işləməyə başlayarkən tələsmək lazım deyil. Əgər müəllimin və şagirdlərinizin kiçik qruplarla iş təcrübəsi yoxdursa, əvvəlcə cütlərlə iş təşkil etmək olar. Qrupla işləməyə çətin öyrəşən şagirdlərə qarşı xüsusilə diqqətli olmaq lazımdır. Şagirdlər cütlərlə işləməyi öyrənəndən sonra qruplarda işləməyə başlamaq olar. Bu zaman əvvəlcə 3 nəfərlik qruplardan başlamaq, şagird qruplarının müstəqil işləmək qabiliyyəti inkişaf etdikcə qruplardakı şagirdlərin sayını artırmaq olar. Lakin kiçik qrupa 5 nəfərdən artıq şagird cəlb etmək məqsədəuyğun deyil.

2. Qruplarda işləməyə öyrədin və onların işinə nəzarət edin.

Sinifdə daima gəzin, qrupda yarana bilən problemi həll etməkdə şagirdlərə kömək edin. Elə etmək lazımdır ki, şagirdlərə qrupda işləmək üçün hansı bacarıqların lazım olduğu aydınlaşsın. Nəzərə alın ki, onlar sizin köməyiniz olmadan qruplarda işləmək üçün tələb olunan bacarıqlara yiyələnə bilməzlər.

Qruplarla işin gedişində aşağıdakı vəziyyətlərə fikir vermək lazımdır:

- Qrupların hər bir üzvü öz fikrini söyləyə bilirmi?

- Qrup üzvləri kompromisə və əməkdaşlığa hazırdırmı? Bəzən qruplarda öz rəyini başqalarına zorla qəbul etdirməyə, öz fikrindən dönməyən şagirdlərə də təsadüf olunur. Müəllim bu cəhəti diqqət mərkəzində saxlamalıdır.

- Qrup üzvləri bir-birini eşitməyə hazırdırmı? Ancaq özləri danışmaq istəyir, yoxsa başqasına qulaq asmağa üstünlük verirlər?

- Məsələyə müxtəlif baxışlar yarandıqda onu müzakirəyə çıxarırlarmı?

- Qrup üzvləri bir-birinə suallar verirlərmi, razılıqlarını bildirirlərmi, nəzakət qaydalarını gözləyirlərmi?

3. Qrupun həcmini müəyyən edin.

Qrup nə qədər böyük olsa, şagirdlərdən bir o qədər çox bacarıq tələb olunur. Çünki, hər kəsə öz fikrini söyləmək imkanı vermək lazımdır. Dərsdə problemin öyrənilməsinə nə qədər az vaxt qalırsa, qrupda iştirakçıların sayı bir o qədər az olmalıdır. İki nəfərdən ibarət qruplarda informasiya mübadiləsinə daha çox imkan olur. Lakin burada emosional gərginlik ehtimalı çoxdur. Rəylər bir-birinə uyğun olmayanda qrup iştirakçılarından birinə tərəfdar olacaq adam yoxdur.

3 nəfərlik qruplarda isə iki güclü iştirakçı qrupun zəif üzvünü təzyiq altına ala bilir. Buna baxmayaraq burada müvəqqəti koalisiyanın yaranması imkanı da vardır. Bu isə fikir müxtəlifliyini aradan qaldırmağa imkan verir.

Cüt və tək saylı qruplar fikir müxtəlifliyini aradan qaldırmaq imkanı baxımından fərqlidir. Təksaylı qrupda mübahisəni səsvermə yolu ilə yoluna qoymaq mümkün olduğu halda, cütsaylı qrupda buna imkan olmur. Buna görə də təlim məqsədləri baxımından ən əlverişli qrup 5 nəfərlik qruplardır.

4. Şagirdləri qruplara düzgün bölmək lazımdır.

Qrupların tərkibinin rəngarəng olması məqsədəuyğundur. Qrupda güclünün yanında zəif, oğlanın yanında qız, müxtəlif mədəniyyətin, sosial qrupun nümayəndələri birləşməlidir. Bu, məsələni müxtəlif cəhətlərdən nəzərdən keçirməyə imkan verir.

Şagirdlərin qruplara bölməyin aşağıdakı üsullarını göstərmək olar:

- qrupların siyahısı əvvəlcədən hazırlanır və lövhənin kənarından asılır. Bu zaman hər qrupun toplanış yeri də göstərilir.

- şagirdlərdən 1-dən 5-dək saymaq tələb olunur. Birincilər birinci qrupu, ikincilər ikincini və s. yaradırlar.

- rəngli kağızlardan istifadə etməklə də qruplar yaratmaq mümkündür.

Qruplar yaradılmasının başqa üsulları da mövcuddur.

Qrupların tərkibini tez-tez dəyişmək məqsədəuyğun deyil. Stabil qruplar şagirdlərin qrup işində ustalığının artmasına daha çox kömək edir.

5. Qrup daxilində rolları bölüşdürün.

Qruplarda şagirdlər aşağıdakı rollarda çıxış edə bilərlər:

- fasilitator – qrupun fəaliyyətini təşkil edən – yardımçı;

- katib-qeydiyyatçı – işin nəticələrini qeyd edir;

- məruzəçi – qrupun işinin nəticələri haqqında bütün sinfə məruzə edir;

- jurnalist – tapşırığı qrupun daha yaxşı yerinə yetirməsinə kömək etmək üçün dəqiqləşdirmə tələb edən, yaxud rəqib qrupun diskussiyada verə biləcəyi sualları verir;

- fəal dinləyici – qrup üzvlərinin ifadə etdiyi mühüm fikirləri öz sözləri ilə ifadə edir, bununla da, fikrin formalaşmasına kömək edir.

- müşahidəçi – verilən tapşırığın yerinə yetirilməsinin gedişini qeyd edir. Bu qeydlər qrup üzvlərinə tapşırığın yerinə yetirilməsini daima diqqət mərkəzində saxlamağa kömək edir. O, həm də qrupun hər bir iştirakçısına qiymət və ya bal verir.

- vaxtölçən (xronometrist) – tapşırığın yerinə yetirilməsinə verilmiş vaxtdan istifadə olunmasını izləyir.

Əgər qruplar uzun müddət stabililyini saxlasalar, onda şagirdlərin rollarını dəyişmək məqsədəuyğundur.

6. Qruplarda işi səmərəli təşkil etmək üçün aşağıdakı cəhətlərə fikir vermək lazımdır:

- Qrupa elə tapşırıqlar verin ki, onların yerinə yetirilməsi üçün tələb olunan bilik və bacarıqlar şagirdlərdə mövcud olsun;

- Öz təlimatınızın maksimum dəqiq olmasına çalışın. Onu lövhədə və ya kartoçkalarda yazın.

- Qrupa tapşırığı yerinə yetirmək üçün kifayət qədər vaxt verin. Tapşırığı tez həll edib qurtaran qrupları məşğul etmək üçün də bir şey fikirləşmək lazımdır.

- Fikir verin ki, sizin qiymətləndirmə metodunuz qrupla iş üsülündan istifadəyə necə təsir edir.

- Hər bir qrup üzvünün hüquqlarının qorunmasına fikir verin.

- kooperativ təlim metodları üçün xarakterik olan səs-küylü dərsə hazır olun.

- İş zamanı qrupdan-qrupa keçərək, onların işlərinə nəzarət edin.

Kiçik qruplarda iş metodundan istifadə qaydaları.

1. Kiçik qruplarda iş üçün tapşırıqlar hazırlayarkən aşağıdakı şərtlərə əməl edilməlidir:

- hər qrupda işin sonunda əldə olunacaq nəticəni fikirləşmək lazımdır;

- sinfin işinin ümumi yekun nəticəsi müəyyənləşdirilməlidir.

- vaxt amili nəzərə alınmalıdır;

- qrupların səviyyəsi nəzərə alınmalıdır;

2. Tapşırıq haqqında məlumatı bütün sinfə hələ qruplara bölünməzdən əvvəl vermək lazımdır.

3. Tapşırığın şagirdlərə aydın olub-olmadığı müəyyənləşdirilməlidir.

4. Qruplarda iş qaydalarını hazırlayın və ya yada salın.

5. Tapşırığın yerinə yetirilməsinin hər mərhələsi üçün və ya bütün tapşırıq üçün ayrılmış vaxt haqqında məlumat verin.

6. Şagirdləri kiçik qruplara bölün, tapşırığı yerinə yetirmək üçün zəruri materialları paylayın və tapşırığı yerinə yetirməyə başlamaq haqqında göstəriş verin.

7. Qrupdan qrupa yan olaraq şagirdlərə lazımi köməkliyi göstərin.

8. Qruplarda iş tamamlandıqdan sonra tapşırığın yerinə yetirilməsinin nəticələri haqqında məlumat üçün qrupların nümayəndələrinə söz verin.

Təqdimat zamanı plakat, cədvəl, şəkil və b. əyani vəsaitlərdən istifadə olunmasına həvəsləndirin. Qrupların iş nəticələrini qeyd etməklə ümumi tapşırığın yerinə yetirilməsi istiqamətində irəliləyişi göstərmək üçün siz də cədvəl tərtib edə bilərsiniz.

9. Hər bir təqdimatın yekununu müzakirə edin. Xatırladın ki, qruplar bir-birinə suallar verə bilərlər.

Qrupda işləyərkən aşağıdakı qaydaları gözləyin:

- hər bir iştirakçı, istəyərsə, öz sözünü deyə bilər;
- qrupun bütün üzvləri o biri üzvlərin baxışlarına, dəyərlərinə hörmətlə yanaşmalıdır;
- müzakirə olunan ideyalar, təkliflərdir, onları söyləyənlərin kim olmasının mənası yoxdur;
- bütün iştirakçılar öz fikirlərini qısa şəkildə ifadə edirlər;
- hər bir iştirakçı öz fikrini müdafiə etsə belə, qrup yoldaşının ideyasını qəbul etməyə hazır olmalıdır;
- iş zamanı məsələdə anlaşılmazlıq, informasiya çatışmazlığı və başqa çətinliklər meydana çıxarsa, müəllimə və ya dəvət olunmuş ekspertə müraciət olunmalıdır.

Qrupda iş başa çatdıqdan sonar müstəqil və qrup yoldaşları ilə birlikdə aşağıdakı sualları cavab tapmaq lazımdır:

- Öz qrupunuzun işini necə qiymətləndirəcəksiniz?
- Nəyi və nə üçün nailiyyət hesab edirsiniz?
- Hansı çətinliklər meydana çıxmışdır?
- Qrupda iş qaydasına nə əlavə etmək və nəyi dəyişmək lazımdır?

Cütlər şəklində iş zamanı məktəblilər tapşırıqlar üzərində cütlərə ayrılaraq (adətən öz parta yoldaşı ilə və ya yerini dəyişərək digər şagirdlə birlikdə) işləyirlər. Bu zaman məktəblilər qarşıya qoyulan suala cavab tapmaq üçün bir-birinə kömək edir, fikir mübadiləsi aparır, bir-birinin cavabını qiymətləndirir.

Təlim prosesində fərdi iş hər bir şagirdin maraq və meyllərini nəzərə almağa, onların hər biri ilə gücçatan səviyyədə iş aparmağa imkan verir.

Təlimin təşkili formaları və üsulları təlim prosesinin qanunauyğunluqları əsasında müəyən edilir. Bu qanunauyğunluqlar təlim prosesinin aşağıdakı komponentləri arasındakı obyektiv, zəruri, ümumi, sabit və təkrarlanan əlaqələrdə təzahür edir:

- Ümimi tarix fənninin təlim məqsədləri.
- Ümumi tarix fənninin təlim məzmunu.
- Ümumi tarix fənni üzrə şagirdlərin dərketmə imkanları.
- Ümumi tarix fənninin təlimində müəllimin təşkilatçılıq və şagirdlərin öyrənmə fəaliyyətləri, onun təşkili formaları, üsulları və vasitələri.
- Ümumi tarix fənninin təlim nəticələri.

Təlim prosesinin idarə edilməsi müəllimdən bu komponentlərin, amillərin mühüm əlamətlərini, onların hər birinin tərkib hissələrini və bir-biri ilə əlaqələrini bilməsini tələb edir.

Tarix təliminin məqsədləri üç qrupa bölünür:

1. Təhsil məqsədləri.
2. Tərbiyə məqsədləri.
3. İnkişafetdirici məqsədlər.

Hər bir tarix dərsində şagirdlər mükəmməl tarix təhsilinə daxil olan biliklər sisteminin müəyyən elementlərini qavrayır, başa düşür, yadda saxlamaq üçün onu tətbiq edirlər. Tarix təliminin əsasında faktlar durur. Tarixi faktları öyrətmədən və öyrənmədən şagirdlərin təsəvvüründə keçmişin canlı mənzərəsini yaratmaq, keçmişin və ya müasir dövrün icitimai həyat hadisələrinin elmi izahını vermək mümkün deyil. Tarixin elmi izahını verə bilmək üçün isə şagirdlər faktları, onların əlaqə və münasibətlərini təhlil etməli, faktik materialdan mühüm cəhətləri ayırmalı və ümumiləşdirməli, tarixi anrlayışlar sistemi, icitmai inkişafın qanunları və dünyagörüşü ideyaları haqqında biliklərlə silahlanmalıdırlar. Tarixin elmi izahında hər bir tarix dərsinin öz yeri var. Buna görə də hər bir tarix dərsinin təhsil məqsədi hansı tarixi təsəvvürlərin, yaradılan obrazların, hansı tarixi anlayışlalrın, və onların əlamətlərinin, hansı qanunların

və ya onların konkret təzahürünün, hansı dünyagörüşü ideyalarının öyrənməsi və mənimsənilməsi kimi suallara verilən konkret cavablardan ibarətdir.

Tarix təliminin tərbiyəedici vəzifəsi tərbiyənin təlimlə dialektik vəhdətdə olmasından irəli gəlir. Tarix təlimi prosesində şagirdlərdə öyrənilən hadisə və təzahürlərə müəyyən münasibətlər formalaşır, mənimsənilmiş biliklər vasitəsi ilə gerçək aləmi qiymətlənidrmək bacarığı yaranır, qiymətlər, fərdi baxışlar sistemi əmələ gəlir.

Tarix təlimi prosesində müəyyən şəxsiyyət tipinin formalaşdırılması sahəsində tərbiyə işi bir-biri ilə sıx surətdə bağlı olan üç istiqamətdə aparılır: ümumbəşəri, milli və sosial dəyərlərə yiyələnmək. Odur ki, təlim məqsədlərində təhsil vəzifələri ilə yanaşı şəxsiyyət tipinin formalaşdırılması istiqamətlərində qarşıda duran vəziyələr konkret göstərilməlidir.

Təlimin həm təhsil, həm də tərbiyə məqsədlərinin reallaşdırılması inkişafetdirici məqsədin düzgün müəyyənləşdirilməsindən və dərsdə həyata keçirilməsindən asılıdır. Bu da şagirdlərin təlimi, tərbiyəsi və inkişafının vəhdətindən irəli gəlir.

İnkişafetdirici məqsəd dedikdə şagirdlərin inkişaf etdirilməsi sahəsində dərsdə əldə ediləcək nəticənin konkret olaraq göstərilməsi başa düşülür. Tarix təlimi prosesində şagirdin bir şəxsiyyət kimi aşağıdakı cəhətləri inkişaf etdirilməlidir:

- Tarixi materialın öyrənilməsi üçün şagirdlərdə diqqətin inkişaf etdirilməsi.
- Şagirdlərin zehni fəaliyyətinin çevikliyinə, müxtəlif çətinlik səviyyəsində olan təlim məsələlərini nəzəri bilikləri tətbiq etməklə həll etmək qabiliyyətinin inkişafına nail olunmalıdır.

Təlimin həm tərbiyə, həm də təhsil məqsədlərinin həyata keçirilməsi inkişafetdirici məqsədlərin nə dərəcədə düzgün müəyyənləşdirilməsindən və reallaşdırılmasından asılıdır. Təhsilsiz tərbiyə olmadığı kimi, inkişafsız da nə təhsil, nə də tərbiyə mümkündür. Bu mənada təlimin hər üç məqsədi kompleks şəkildə götürülməli, hər bir dərsdə həll edilməlidir.

Təlimin məqsədi onun məzmunu ilə qarşılıqlı əlaqədə olsada yalnız biliy əks etdirmir. Ö özündə biliklə yanaşı qazanılan fəaliyyəti də birləşdirir. Buna görə də məqsədin çıxarılmasında dövlətin qoyduğu standartlar əsas rol oynayır. Təsadüfi deyil ki, cəmiyyətin məktəb qarşısına qoyduğu vəzifələrdə müəyyən ciddi dəyişikliklər baş verdikdə təlimin məzmununu özündə əks etdirən tədris proqramları və dərsliklərdə də müvafiq dəyişikliklər edilmişdir.

Təlim nəticələrinin kompleks şəkildə yerinə yetirilməsi üçün nəzəri və praktik fəaliyyəti əks etdirən material (iş vərəqləri və s.) elə işlənilməlidir ki, müxtəlif inkişaf səviyyəsinə malik şagirdlər onu dəqiq başa düşsünlər Əks halda dərsə qoyulan tələblər reallaşmayacaq və ya natamam reallaşacaqdır.

Dərsə hazırlaşarkən müəllim hər şeydən əvvəl faktlarda «gizlənmiş» nəzəri materialı ayırmalıdır. Məsələn, məlumdur ki, feodal malikanəsi faktında feodal istehsalını səciyyələndirmək üçün lazım ola biləcək nəzəri biliklər («nəzəri yük») də vardır (məsələn, feodal istehsal üsulunun quldarlıq istehsal üsuluna nisbətən daha yüksək əmək məhsuldarlığını təmin etməsi). Lakin bu nəzəri bilik həmin faktda açıq-aşkar şərh olunmur. Bu biliyi feodal malikanəsini təhlil edərkən şagird faktın özündən çıxarır. Bu zaman tədqiqat sualının rolu böyükdür. Məhz tədqiqat sualında həmin bilik "gizlənmişdir".

Şagirdlərin dərketmə imkanları təlim prosesinin mühüm komponentlərindən biridir. Hər hansı təlim materialının öyrədilməsi sahəsində müəllimin gördüyü işin nəticəsi şagirdlərin fəaliyyət və dərketmə imkanlarının nəzərə alınıb-alınmamasından asılıdır.

Hər bir dərsin təlim, tərbiyə və inkişafetdirici məqsədləri, onun məzmunu müəyyənləşdirilərkən sinifdəki şagirdlərin dərketmə imkanları nəzərə alınmalıdır. Dərsin məqsədi və məzmunu şagirdlərin dərketmə imkanlarına nə qədər uyğun olarsa, təlimin nəticəsi də bir o qədər uğurlu olacaqdır: qarşıya qoyulan məqsəd reallaşdırılacaq, sinfin zəif, orta və quvvətli şagirdləri yeni materalın məzmunu asanlıqla dərk edəcəklər. Təlimin düzgün müəyyən edilmiş məqsədə uyğun təşkil edildiyi şəraitdə fənnin məzmunu dərsdən-dərsə şagirdlərin dərketmə imkanlarını inkişaf etdirir.

Şagirdlərin dərketmə imkanları təkcə dərsin məqsəd və məzmunun müəyyənləşdirilməsinə təsir göstərmir. Məlumdur ki, növbəti dərsin məzmununu işləyib hazırlayarkən müəllim onun öyrənilməsi üsullarını da müəyyənləşdirir. Müəllimin təşkilatçılıq, şagirdlərin öyrənmə üsulları şagirdlərin dərketmə imkanlarına müvafiq olaraq seçilir.

Müəllimin fasilitatorluq və şagirdlərin tədqiqatşılıq fəaliyyəti, onun təşkili formaları, üsulları və vasitələri təlim prosesində əsas yer tutur. Ümumiyyətlə, təlimin, ayrılıqda hər bir dərsin məqsədlərinin reallaşdırılması təlimin şagirdlərin qazanacağı bilik və bacarığa çevrilməsi, məktəblilərin tərbiyəsi və inkişafı bu amildən asılıdır. Müəllimin təlimdəki xüsusi rolu da bununla müəyyən olunur. O, tarix təliminin üsul və vasitələrinə dərindən bələd olmalı, bunları təlimin məqsəd və məzmununa, şagirdlərin dərketmə və bacarıq imkanlarına müvafiq olaraq tətbiq etməyi bacarmalıdır.

Təlimin təşkili forması, müəllimin fasilitatorluq, şagirdlərin isə tədqiqatçılıq üsulları və vasitələri onun təlim məqsədlərinə, məzmununa və şagirdlərin imkanlarına uyğun olaraq seçilir; bu uyğunluq nə qədər çox olarsa, təlimin nəticəsi də bir o qədər uğurlu olur.

Hazırda təlimin nəticəsi reallışdırılmış məqsəd kimi başa düşülür. O, dərsin sonunda şagirdlərin bilik, bacarıq və vərdişlərə yiyələnməsi, habelə tərbiyə edilməsi sahəsində müəllim və şagirdlərin nailiyyətlərini göstərir.

Hazırki dövrdə bütövlükdə təlim prosesi fənnin ümumi təlim nəticələrinin reallaşdırılması istiqamətində təşkil edilməlidir. Hər bir sinfin, bütövlükdə isə fənnin ümumi təlim nəticələrinə nail olunması təlimin təşkili forma və üsullarının nə dərəcədə uğurlu seçilməsindən asılı olacaqdır.

Fənnin ümumi təlim nəticələrinin həll edilməsi bilavasitə şagirdlərin fəaliyyəti ilə bağlıdır. Hər hansı bir nəticə şagirdin fəaliyyətinin nəticəsidir. Ona görə də təlim prosesi elə təşkil olunmalıdır ki, şagirdlərin çoxsahəli fəaliyyətini və çoxşaxəli qabiliyyətlərinin inkişafına şərait yaratmış olsun. Buna görə də təlimin təşkilinin elə formalarına üstünlük verilməlidir ki, burada şagird təlim materialları – müxtəlif informasiya mənbələri üzərində müstəqil işləməklə

nəzərdə tutulan standartlara uyğun olan bacarıq və vərdişlərə yiyələnsinlər. Lakin nəzərə almaq lazımdır ki, nə qədər əhəmiyyətli olsa da yalnız təlimin təşkilat forması ilə buna nail olmaq mümkün deyil. Burada birinci növbədə təlimin metod və üsullarının düzgün seçilməsi tələb olunur. hazırki dövrdə şagirdlərin fəallığına geniş imkan verən metod interaktiv metod hesab edilir. Ona görə də ümumi tarix fənninin ümumi təlim nəticələrinə nail olunması üçün interaktiv metoddan istifadə edilməsini zəruri hesab etmişik.

Ümumi tarix fənninin tədris edilməsi üçün dairəvi masa məşğələləri, beyin həmləsi, söz assosiasiyaları, diskussiya, debatlar, layihələrin hazırlanması, konkret situasiyaların təhlili, sərbəst söhbət, rollu oyunlar, BİBÖ, Venn dioqramı, şaxələndirmə kimi interaktiv metodlardan istifadə etmək daha məqsədəuyğundur.

**Dairəvi (dəyirmi) masa məşğələləri**

Dairəvi «(Dəyirmi) masa» anlayışının 3 əsas əlaməti mövcuddur:

1) müzakirə edilən məsələ hələ həll olunmamışdır
2) maraqlı tərəflərin nümayəndələrinin bərabər hüquqla iştirakı
3) bütün iştirakçılar üçün münasib olan qərarın, məsləhətlərin qəbul edilməsi.

Bu əlamətlərə əsasən təlim məşğələsi kimi «dairəvi masa»nı aşağıdakı kimi səciyyələndirmək olar: «Dairəvi masa» haqqında bir neçə nöqteyi-nəzərin mövcud olduğu məsələnin bərabərlik şəraitində müzakirəsinə və tərəflər üçün münasib şərarın qəbul edilməsinə həsr edilən seminar məşğələsidir. Bu məşğələ 3 mərhələdən ibarət olur:

1) hazırlıq mərhələsi
2) problemin müzakirəsi
3) görülmüş işin yekunlaşdırılması

**I. Hazırlıq mərhələsi.**

Bu mərhələdə aşağıdakı məsələlər həll edilir:

1) Tematik plan və tədris proqramı əsasında müzakirə ediləcək mövzu seçilir. Mövzu (məsələ) birmənalı olmamalı, zididyyətli, problem məsələ olmalıdır.

2) Məşğələnin məqsədlərinin müəyyənləşdirilməsi. Məqsədlər 3 əsas müddəa əsasında müəyyən edilir:

- mövzuya aid biliklərin dərinləşdirilməsi

- müzakirə edilən məsələlər ümumiyyətlə tarix təhsilinin məqsədlərinə, o cümlədən öyrənilən mövzunun məqsədlərinə nə dərəcədə yararlıdır;

3) Hazırlıq mərhələsində həll edilən məsələlərdən biri də mütəxəssislərin dəvət olunmasıdır. Onlar mövzunun məzmunundan asılı olaraq dəvət olunurlar. Elə adamlar olmalıdır ki, onların nöqteyi-nəzərləri bir-birinə zidd olsun, lakin yekunda razılaşma əldə edilə bilsin. «Qarabağ problemi»nin müzakirəsinə Qarabağ müharibəsinin iştirakçısını, xarici işlər nazirliyinin, Dağlıq Qarabağın Azərbaycanlı icmasının, müxalifətin, Milli Məclisin, beynəlxalq təşkilatların nümayəndələrini dəvət etmək olar.

4) Şagirdlərə məsləhətlərin verilməsi. Məsləhətlər fərdi və qrup xarakterli ola bilər. Qrup məsləhətləri hazırlığın başlanğıc və son mərhələsində verilə bilər. Fərdi məsləhətlər həm şagirdlərin, həm də müəllimin təşəbbüsü ilə təşkil oluna bilər.

5) Otağın (yerin) hazırlanması. Bütün iştirakçıların dairə üzrə oturması məsləhətdir. Bütün texniki vasitələr ekranın qarşısında yerləşdirilir. Müəyyən mövqe üzrə və yaranmış şagird mikroqrupları oturduqları stulların arxasındakı divardan öz mövqeyini bildirən plakatları asa bilərlər.

**II Problemin müzakirəsi mərhələsi.**

Müəllim «dairəvi masa» məşğələsini açıq elan edir.

Aparıcının fəaliyyətində mühüm yer tutan məşğələyə nədən başlamaq məsələsidir. Məşğələ aparıcının giriş sözü ilə başlanır. Burada o, görüşün məqsədləri, iştirakçıların mövqeləri haqqında ümumi məlumat verir.

Aparıcının fəaliyyətindəki əsas məsələlərdən biri də kimə və hansı ardıcıllıqla söz verilməsi məsələsidir. Müzakirə olunan məsələ haqqında hər bir iştirakçı bir neçə dəfə söz deyə bilər. Bu zaman kimə nə vaxt söz vermək məsələsi ortaya çıxır. Əgər şagirdlər mövqelər üzrə mikroqruplarda birləşməyiblərsə, o zaman bütün arzu edənlər çıxır edirlər.

Aparıcı müəllimin həll etməli olduğu məsələlərdən biri də çıxışlardakı təkrarlanmaların qarşısını almaqdır. Çox zaman məşğələdə eyni fikir təkrarlanır, mövqelər dəqiqləşmir, iştirakçıların mövqelərində yaxınlaşmaya nail olmaq mümkün olmur. Bu cür hallarda müəllim ya müzakirəni tamamlayır, ya nəzəri istiqamət almış müzakirəni praktik məcraya yönəldir, ya da praktik xarakterli çıxışlardan məsələnin nəzəri cəhətdən əsaslandırılması üçün istifadə edir.

**III İşin nəticələrinin yekunlaşdırılması.**

İşin nəticələrini yekunlaşdırmaq üçün müəllim aşağıdakıları etməlidir:

- «dairəvi masa» nın məqsədlərini yada salmalıdır
- problemə baxışlarına görə görüş iştirakçılarının yekun mövqelərini göstərməlidir
- tutduqları mövqelərə görə iştirakçıları səciyyələndirməlidir (mövqeyində möhkəmdir, tərəddüdlüdür və s.)
- görüş iştirakçılarının gəldiyi, yaxud yaxınlaşdığı ümumi mövqeyi ifadə etməlidir
- görüşə dəvət olunanlara minnətdarlıq etməlidir.

«Dairəvi masa»da işgüzar və yaradıcı şəraitə nail olmaq üçün müəllim aşağıdakı qaydalara əməl etməlidir:

- məşğələnin bütün iştirakçılarının hüquq bərabərliyi gözlənilməlidir;
- «masa»nın iştirakçıları arasında şəxsi konfliktlərin baş verməsinə yol verməməlidir;
- hamı üçün yaxşı olsun deyə mübahisə edənləri barışdırmağa çalışmamalıdır.

### *Fəal təlim üsulları*

"Ümumi tarix" fənninin tədrisi zamanı istifadə olunan üsullar təlim strategiyalarının qurulmasında və təhsilin həyata keçirilməsində əhəmiyyətli yer tutur. Təlim prosesində fəal təlimin müxtəlif növlərinindən; BİBÖ, beyin həmləsi, klaster (şaxələndirmə), anlayışın çıxarılması, söz assosasiyaları, müzakirə, akvarium, rollar üzrə oyun, Venn diaqramı, layihələrin hazırlanması və s.istifadə olunur.

## Beyin həmləsi

“Ümumi tarix” fənninin tədrisi zamanı şagirdlərdə yeni mövzuya maraq oyatmaq, habelə onların nəyi yaxşı və ya pis bildiklərini aydınlaşdırmaq məqsədilə beyin həmləsindən istifadə olunur. Bunu əqli hücum da adlandırılır. Hazırlanmış sual lövhədə yazılır, yaxud şifahi şəkildə şagirdlərin diqqətinə çatdırılır. Şagirdlər suallara əsasən fikirlərini bildirirlər. İdeyalar şərhsiz və müzakirəsiz lövhədə yazılır. Sonra söylənilmiş ideyaların müzakirəsi, şərhi və təsnifatı aparılır. Əsas ideyalar yekunlaşdırılır, şagirdlər söylənmiş fikirləri təhlil edir və qiymətləndirir. Müəllim mümkün qədər çox şagirdin fikir söyləməsinə nail olmalıdır. Şagirdlər vaxt itirmədən problemlə bağlı yığcam şəkildə müxtəlif ideyalar, təkliflər irəli sürürlər. Söylənilən bütün mülahizələr heç bir şərh verilmədən, tənqidi münasibət bildirilmədən lövhədə qeyd olunur. Sonra təhlil, müzakirə mərhələsi gəlir. Müxtəlif ideyalar qiymətləndirilir, lehinə və əleyhinə fikirlər söylənilir. Şagirdlər müzakirə olunan problemin həlli üçün faydalı hesab etdikləri ideyaları seçirlər. Beyin həmləsini reallaşdırmaq motivasiya mərhələsində daha çox istifadə olunur. Buna misal olaraq: Hindistan mövzusu. Müəllim beyin həmləsi edərək öncə Hindistana aid olan bəzi şəkilləri göstərir. Sonra açar sözlərdən istifadə edərək “hücuma” keçir. Şahmatın vətənidir, Mahbarata və Ramayana pomesı burda yaranıb, kasta quruluşu müvcud olub, rəqəmlər ilk dəfə burda yaradılıb, ən nəhayyətsə filimləri ilə məhşurdu və ən çox filim u ölkədə çəkilir. Təbii ki, şagirdlər belə sözlərdən sonra bu ölkənin Hindistan olduğunu düşünüb tapa bilər.

Əqli hücum şagirdləri fəallaşdırmaqla bərabər, fikri yığcam və dəqiq ifadə etmək, sinifdə bir-birini dinləmək bacarığı aşılanmasına, mövzunun öyrənilməsinə yeni yanaşmaların meydana çıxmasına səbəb olur.

**BİBÖ (KWL)**

**BİBÖ – Bilirəm/İstəyirəm bilim/Öyrəndim**

“Ümumi tarix” fənnində BİBÖ üsulu aşağıdakı mərhələlər üzrə aparılır:

1. Məqsədə görə problem müəllim tərəfindən elan edilir.
2. Müəllim lövhədə 3 sütundan ibarət cədvəl qurur və aşağıdakı bölmələri qeyd edir: – Bilirəm/İstəyirəm bilim/Öyrəndim




3. Şagirdlər problemlə bağlı bildiklərini söyləyir və cavablar birinci sütunda qeyd olunur.
4. İkinci sütuna həmin məsələ ilə bağlı bilmək istədikləri yazılır.
5. Üçüncü sütuna dərsin sonunda mövzu ilə bağlı öyrəndikləri qeyd edilir.

## Suallar

"Ümumi tarix" fənninin tədrisində suallar şagirdin qazandığı bilik və bacarıqları sistemləşdirməyə xidmət edir, dərs prosesində tədqiqatların səmərəli qurulmasını stimullaşdırır. Şagirdlərin idrak fəallığının artırılmasında böyük rol oynayır. Sualların sayı sinifin səviyyəsinə görə 4-5 arasında və daha artıq ola bilər. Sualların qoyuluşu məntiqi təfəkkürün inkişafına doğru yönəldilməli, ardıcıllıq gözlənilməlidir.

## Mühazirə

Mühazirə məlumatın müəllimdən şagirdə ötürülmə üsuludur. "Ümumi tarix" fənninin tədrisində bu üsuldan qoyulmuş problemlə bağlı şağirdin təsəvvürünün genişləndirilməsi, problemin həllinin ən asan, ən qısa yolunun izahı və məqsədə çatmaq üçün müraciət ediləcək mənbələri tanıtmaq üçün istifadə edilir. Mühazirələr 10-15 dəqiqə ərzində aparılır.

Mühazirə deyərkən aşağıdakıları nəzərə almaq tövsiyyə edilir:

- Mühazirənin məqsəd və vəzifələrini dəqiq müəyyənləşdirmək,

- Plan tərtib etmək və onu şagirdlərə paylamaq (və ya lövhədə yazmaq).
- Əyani və texniki vasitələrdən istifadə etmək.

Müəllim mühazirə prosesini verbal (suallar vermək) və vizual (şagirdlərin sifətlərinin ifadəsini və jestlərini müşahidə etmək) olaraq tənzimləməlidir.

**Söz assosiasiyaları**

"Ümumi tarix" fənninin tədrisində bu üsuldan istifadə edilərkən öyrəniləcək mövzuya aid əsas söz (və ya söz birləşməsi) lövhəyə yazılır. Şagirdlər həmin söz ilə bağlı ilk xatırladıqları fikirləri söyləyir və həmin fikirlər müəllim tərəfindən lövhəyə yazılır. Mövzu ilə bağlı olan sözlər deyilən fikirlərin arasından seçilir və əlaqələndirilir, onlardan anlayış və yaxud ideya çıxarılır. Bu anlayış əsasında yeni materialın öyrənilməsinə başlanır. Bu üsul həm də şifahi formada tətbiq edilə bilər.

**Müzakirə**

"Ümumi tarix" fənninin tədrisində müzakirə mövzu ətrafında ideya, məlumat, təəssürat, təhlil və təkliflərin qarşılıqlı mübadiləsidir. Onun əsas vəzifəsi problemi təhlil edərək həlli yolunu tapmaq, düzgün qərar qəbul etmək üçün imkan yaratmaqdır. Müzakirə dinləmək, təqdim etmək, sual vermək mədəniyyətini formalaşdırır, şagirdlərin məntiqi və tənqidi təfəkkürünü, şıfahi nitqini inkişaf etdirir.

Müzakirə apararkən əvvəlcədən şagirdlərə müzakirə qaydaları xatırladılır. Mövzu aydın şəkildə ifadə olunur. Müzakirə prosesini inkişaf etdirən suallar vermək və şagirdlərin cavablarını nəzərdən keçirməklə müəllim müzakirəni tənzimləyir. Bu zaman cavabı "Bəli" və ya "xeyr" olan qapalı suallar vermək məqsədəuyğun hesab edilmir.

**Akvarium**

Bu üsulun məqsədi diskussiya vərdişlərini inkişaf etdirməkdir. "Ümumi tarix" fənninin tədrisində akvarium bir neçə variantda keçirilə bilər.

***"Akvarium"un keçirilməsinin 1-ci variantı:***

Şagirdlərin köməyi ilə diskussiya aparmaq qaydaları (məsələn, reqlamentə əməl etmək, bir-birinin sözünü kəsməmək və.s) müəyyən edilir. Şagirdlər 2 qrupa bölünür. Bir qrup dairənin daxilindəki stullarda əyləşərək müəllimin təklif etdiyi problemi müzakirə edir. Dairədən kənardakı stullarda əyləşmiş digər qrup isə diskussiyanın müəyyən edilmiş qaydalara uyğun aparıldığını müşahidə edir.

Müəyyən olunmuş mövzu üzrə birinci qrup diskussiya aparır. 10-15 dəqiqədən sonra diskussiya dayandırılır, "xarici dairənin" iştirakçıları diskussiyanın gedişini qiymətləndirir və qruplar yerini dəyişərək bu və ya digər problemin müzakirəsini davam etdirirlər.

***"Akvarium" un keçirilməsinin digər bir nümunəsi:***

"Daxili dairənin" iştirakçıları müəllimin təklif etdiyi problemi müzakirə edir və birinci variantdan fərqli olaraq iştirakçılar bu zaman yalnız problemin "leyhinə" olan dəlilləri söyləyirlər.

Digər qrupun üzvləri xarici dairədə stullarda əyləşirlər, dəlilləri dinləyir, yazıya alır, təhlil edir, öz əks dəlillərini hazırlayırlar. 15-20 dəqiqədən sonra diskussiya dayandırılır, xarici və daxili dairədən olan şagirdlər öz yerlərini dəyişirlər. Onlar əvvəlki iştirakçıların dəlillərini təkzib etmək üçün diskussiya aparırlar. Burada qrupların vahid fikrə gəlməsi önəmli deyil.

## Rollar üzrə oyun

"Ümumi tarix" fənninin tədrisində rollar üzrə oyun hər hansı bir problemə müxtəlif nöqteyi-nəzərdən yanaşmağı tələb edir. Bu üsul şagirdlərə hadisələrin iştirakçısı olmaq və mövcud vəziyyətə başqalarının gözu ilə baxmaq imkanı verir.

Müəllim rollu oyunlardan istifadə edərkən əldə etmək istədiyi məqsədi, oyunun mövzusunu, ssenarisini və oyunda iştirak edəcək obrazları əvvəlcədən müəyyənləşdirir, ifa olunacaq rolların mətni yazılmış kartlar hazırlayır. Rollar bölüşdürüldükdən sonra digər şagirdlərdən kimin aparıcı, kimin müşahidəçi

olacağını planlaşdırır. Hazırlaşmaq üçün şagirdlərə vaxt verir. Oyun nümayiş etdirildikdən sonra müəllim qoyulmuş problemlə bağlı müzakirə təşkil edir. Misal üçün qeyd etmək olar: Şagirdlərə tapşırılır ki, Vaterloo döyüşünü rollaşdırsınlar. Yaxudda, Troya müharibəsi mövzusu şagirdlərə təqdim olunur. Orda öz əksini tapan hadisələrin səhnələşdirilməsi uşaqlar üçün maraqlı və yadda qalan ola bilər.

**Venn diaqramı**




Hadisələri və ya problemləri müqayisə etmək, onların oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək üçün bu üsuldan "Ümumi tarix" fənninin tədrisində istifadə olunması məqsədə uyğundur.

Məsələn, tarixdə baş vermiş hər iki Dünya müharibəsi müzakirə olunur. Onların özünəməxsus cəhətləri qeyd olunduqdan sonra ümumi cəhətləridə seçilərək qeyd olunur. Bu şagirdlərdə araşdırıcılıq, müqayisə və təhlil etmə bacarağını formalaşdırır. Yaxud da iki şəxsiyyəti Bismarkla I Napaleonu venn diaqramına uyğun şagirdlər qruplaşdıra bilər. Onların özünəməxsus xüsusiyyətlərini sadalamaqla yanaşı oxşar tərəflərini də qeyd etməklə şəxsiyyətlər şərh edə bilərlər.

## Layihələrin hazırlanması

Layihələrin hazırlanması müxtəlıf mövzuların müstəqil şəkildə tədqiq edilməsidir. Şagirdlər öz layihələrini təqdim etməzdən əvvəl uzun müddət onun üzərində işləyirlər. Layihələr şagirdlərin tədqiqat vərdişlərinin, biliklərə

müstəqil yiyələnmə bacarıqlarının formalaşmasında mühüm rol oynayır, onlara müstəqil şəkildə öz fəaliyyət proqramlarını qurmağa, habelə öz vaxtını və işini qrafik üzrə planlaşdırmağa kömək edir. “Ümumi tarix” fənninin tədrisində bu üsul şagirdlərin bir-biri ilə, eləcə də məktəbdən kənarda müxtəlif adamlarla qarşılıqlı əlaqəsi üçün şərait yaradır, hadisələrin hər hansı bir aspektini daha dərindən anlamağa imkan verir, əlavə ədəbiyyatdan istifadə etməyə istiqamətləndirir. Layihələrin hazırlanması tarix fənninin tədrisində ən uğurlu üsullardan biridir. Şagirdlərdə araşdırma bacarıqı formalaşır. Layihələr hazırlayarkən müəllim mövzu və ya problemi müəyyən edir və sinfə bunlardan birini seçmək imkanı verir.

Problem konkret olmalıdır. Müəllim və şagirdlər birlikdə layihə üzərində işin başlama və başa çatma müddətini, istifadə olunacaq əyani vasitələri (ədəbiyyatlar, mənbələr, təsviri vasitələr və s.) bunları əldə etmək yollarını, iş formalarını (fərdi yoxsa, qrup şəklində) müəyyən edirlər.

İş prosesində müəllim suallara cavab verə və ya yol göstərə bilər. İşin icrasına isə şagirdlər özü cavabdehdir.

Tədqiqatın nəticəsi hesabat, xəritə, illüstrasiya, fotoşəkillər cədvəllər, qrafiklər, formasında ifadə oluna bilər.

**Sorğu vərəqləri və müsahibə**

Bu üsullar **a**raşdırılan məsələ ilə bağlı fakt və hadisələr haqqında müəyyən qrupların ictimai rəyini öyrənmək məqsədilə aparılır.

Sorğu vərəqi “Ümumi tarix” fənninin tədrisində **a**raşdırılan məsələ ilə bağlı tərtib edilir və burada suallar qoyulur. Sorğuda iştirak edənlər bu vərəqi müstəqil doldurur.

Müsahibə isə **a**raşdırılan məsələ ilə bağlı məlumat almaq üçün aparılır.

Bu üsullardan istifadə edərkən aşağıdakı mərhələlər gözlənilərsə daha doğru olar:

1. Problemi müəyyən etmək.
2. İşi təşkil etmək (Sorğu və ya müsahibə keçirmək üçün suallar hazırlamaq).

3. Məlumatları toplamaq ( Sualların cavablarını toplamaq).
4. Əldə edilmiş məlumatları təhlil etmək və ümumləşdirmək.

**“Qərarlar ağacı”**

“Ümumi tarix” fənninin tədrisində bu üsul qərarların qəbul edilməsi zamanı alternativ yolları araşdırmaq və təhlil etmək məqsədi daşıyır.

Müzakirə olunacaq problem müəllim tərəfindən izah edilir və onun həlli yollarının bir neçə variantı şagirdlərlə birlikdə müəyyənləşdirilir. Məsələn dünyanın üzləşdiyi hər hansı bir qlobal problem müzakirəyə qoyulur. 4-6 nəfərdən ibarət qruplarda şagirdlər problemin həlli yollarının üstünlüklərini və çatışmazlıqlarını təhlil edir, onları “+”, və ya “-” işarəsinin qarşısında müvafiq qaydada qeyd edirlər. Son nəticə cədvəlin qərar hissəsində yazılır və üstü örtülür.

Bütün qrupların təqdimatından sonra müəllim əldə olunmuş nəticələri ümumiləşdirmək üçün müzakirə aparır.

<table>
<tr><td colspan="4">Problem</td></tr>
<tr><td rowspan="2">Problemin həlli yollarının mənfi və müsbət tərəfləri</td><td colspan="3">Problemin həlli yolları</td></tr>
<tr><td>1-ci həll yolu</td><td>2-ci həll yolu</td><td>3-cü həll yolu</td></tr>
<tr><td>+</td><td></td><td></td><td></td></tr>
<tr><td>–</td><td></td><td></td><td></td></tr>
<tr><td colspan="4">Qərar:</td></tr>
</table>

## Problemli vəziyyət

Bu üsul tətbiqi "Ümumi tarix" fənninin tədrisində tənqidi təfəkkürü, təhliletmə və ümumiləşdirmə vərdişlərini inkişaf etdirir.

Müəllim əvvəlcədən "Ümumi tarix" fənninə aid problemi və müzakirə üçün sualları hazırlayır. Şagirdlər 4-5 nəfərlik qruplara bölünür. Problemli vəziyyət əks olunmuş iş vərəqləri, məsələn "Qarabağ məsələsi" və s. şagirdlərə paylanır. Hər qrup təklif edilən vəziyyətlərdən birini müzakirə edir və həlli yolunu göstərir. Qruplar öz işlərini bitirdikdən sonra sinifdə ümumi müzakirə aparılır.

## Ziqzaq

"Ümumi tarix" fənninin tədrisində bu üsuldan istifadə edərək mətnin məzmununun qısa müddət ərzində şagirdlər tərəfindən mənimsənilməsinə imkan yaradılır.

Şagirdlər dörd nəfərlik qruplara bölünür. Əsas adlanan bu qrupun üzvləri nömrələnir. (Məslən 1. 2. 3... ) Hər qrupdakı eyni rəqəmli şagirdlərdən yeni qruplar (ekspert qrupu) yaradılır. Öyrəniləcək mətn qrupların sayı qədər hissələrə bölünür və ekspert qruplarına verilir. Ekspert qrupları onlara verilən hissəni oxumalı, məzmununu qavramalı və öz əvvəlki qrupuna qayıdaraq öyrəndiyi hissəni onlara danışmalıdır. Müəllim informasiyanın dəqiq verildiyinə əmin olmaq üçün suallar verə bilər.

Yerli şəraitə, zamana, məkana, mövzuya və məqsədə görə daha başqa üsullardan da "Ümumi tarix" fənninin tədrisində istifadə edilir.

## Auksion

Fəal təlim texnikalarından biridir. Bu üsul tarix dərslərində geniş istifadə oluna bilər. Bütün kollektivin fəaliyyətə cəlb olunması mümkündür. Hafizə, məntiqi, hətta tənqidi tipli sualla müraciət edərək cavablar şagirdlər tərəfindən bir-bir sadalanır. Nə qədər çox cavab verilərsə bir o qədər yaxşıdır. Bu şagirdlərin biliklərinin ortaya çıxması deməkdir. Sonuncu cavab verən şagird

qalib elan olunur. Buna görə də auksion keçirilərkən sual geniş əhatəli olmalıdır. Sadalayın, təsnif edin, göstərin, öz dikrinizi əlavə edin və sair. Bununla belə auksionla dərsin böyük hissəsi aparılmır.

**Təqdimatlar**

Təqdimat tarix fənni üçün çox əlverişli metoddur. Bu kiçik summativ qiymətləndirmələr üçün də məqbul sayıla bilər. Təqdimatlar müxtəlif formalarda (elektron təqdimat, qəzet, buklet, kollaj, vebsayt və sair) və müxtəlif xarakterli ola bilər. Təqdimat həm fərdi, həm də qrup şəklində tapşırıla bilər. Məqsəd şagirdləri fəaliyyətə, yaradıcılığa, tədqiqatçılığa sövq etməkdir. Şagirdlərin təqdimatları müxtəlif olduğundan onlara maraq çox yüksəkdir. Bu üsul həm də şagird özünüqiymətləndirməsində də səmərəlidir. Nəzərə alamaq lazımdır ki, bu iş daha çox əmək tələb etdiyindən ona verilən vaxt da adekvat olmalıdır. Buna örə də təqdimatların hazırlanması həftədə bir saatlıq ümumi tarix fənni üçün ən münasib üsullardan biri hesab oluna bilər.

## 2.3. Müəllimin təlim fəaliyyətinin planlaşdırmasına dair nümunələr

"Ümumi tarix" fənninin tədrisində illik planlaşdırma müəllimlərin qarşısında duran ən mühüm vəzifədir. Planlaşdırma əsas məqsədləri müəyyənləşdirmək və onlara nail olmaq üçün müəllimlərin fəaliyyət istiqamətidir. İllik planlaşdırmada tədris vahidinin nə zaman və hansı ardıcıllıqla tədris ediləcəyi göstərilir. Eyni zamanda hər fəslə ayrılacaq vaxtı müəyyənləşdirilir. Fənnin planlaşdırılması ardıcıllığı aşağıdakı kimidir:

1. Tədris ediləcək tədris vahidlərini məzmun standartlarına əsasən müəyyən etmək. Yəni ilk növbədə standartlar müəyyənləşir, sonra isə tədqis vahidi onlara uyğunlaşdırılır.

2. Tədris vahidlərinin ardıcıllıq prinsiplərini müəyyənləşdirmək. (Tədris vahidlərinin ardıcıllıqla müəyyənləşdirilməsi dedikdə, didaktik tələblərə əməl edilir: məzmunun ardıcıllığı (bəsitdən mürəkkəbə doğru), xronoloji ardıcıllıq (zaman ardıcıllığı), məntiqi ardıcıllıq (əvvəlcə o anlayışlar öyrədilir ki, onlar növbəti anlayışların açılmasında mühüm əhəmiyyət daşıyır) nəzərdə tutulur.

3. Hər tədris vahidi üçün tədris planına əsasən vaxt bölgüsü aparmaq.

Tədris vahidləri üçün vaxt bölgüsünü müəyyənləşdirərkən fənn üzrə illik dərs saatlarının ümumi sayı hesablanır. Hər tədris vahidinin əhəmiyyətliliyi və mürəkkəbliyi baxımından vaxt müəyyən edilir. Hər bir halda şagird maraqlarını nəzərə almaq.

Təqvim planı tərtib edilərkən dərs ilinin həftələri, tədris ilində baş verəcək mühüm hadisələr (tarixi günlər), tədris vahidlərinin və onlara daxil olan mövzuların adı müəyyən edilir. Hər tədris vahidi və mövzu vasitəsilə reallaşdırılacaq məzmun standartları (alt-standartlar) seçilir, istifadə olunacaq mənbələr (resurslar) müəyyən edilir, hər mövzu üçün ayrılmış vaxt qeyd olunur.

| **Standart** | **Tədris vahidi** | **Mövzu** | **İnteqrasiya** | **Resurslar** | **Qiymətləndirmə** | **Saat** | **Tarix** |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |

Nümunəvi illik planlaşdırma əsasında müəllim fərdi olaraq gündəlik və ya həftəlik dərs planlaşdırması tərtib edir.

**Fənn üzrə təlimin planlaşdırılması.**

İşini səmərəli təşkil etmək üçün ilk növbədə müəllimin planlaşdırma bacarığı olmalıdır. O, dərs dediyi fənn üzrə bütün mərhələləri aydın təsəvvür edə bilməli, onlara aid prespektiv və cari planlar hazırlamağa bacarmalıdır.

Perspektiv planın hazırlanma ardıcıllığı aşağıdakı kimidir:

1. Tədris ediləcək tədris vahidlərini məzmun standartlarına əsasən müəyyən etmək. Əvvəlcə standartlar sonra isə tədris vahidi müəyyənləşir.
2. Tədris vahidlərinin ardıcıllığını müəyyənləşdirmək.
3. Hər tədris vahidi üçün düzgün vaxt bölgüsü aparmaq.
4. Müəllim üçün vəsait, dərslik və digər materialların nəzərə alınması.

## Tam orta təhsil pilləsi üçün Ümumi tarix üzrə illik planlaşdırma nümunəsi

## XI sinif

| Tədris vahidi | Standartlar | Məzmun | Resurslar | Saat |
|---|---|---|---|---|
| **II Dünya müharibəsi. İkinci Dünya müharibəsinin başlanması, gedişi və yekunları. 7 saat** | 1.1.4, 2.1.2, 3.1.2, | **1.Müharibənin başlanması** | “Dünya XX əsrin əvvəllərində” siyasi xəritəsi, “İkinci dünya müharibəsi” xəritəsi, “1939-1941-ci illərdə Avropada hərbi əməliyyatlar” xəritəsi. “Hərbi siyasi bloklar” cədvəl, atlas və kontur xəritələr, iş dəftəri, dərslik, audiovizual vəsaitlər, kinofilimlər, cədvəllər, ədəbiyyatlar, | 1 |
| | 1.1.2, , 2.1.2, | **2. Qərbdə, Afrikada və Balkanlarda hərbi əməliyyatlar** | Dünya XX əsrin əvvəllərində” siyasi xəritəsi, “Faşist blokunun işğallarının əsas istiqamətləri” xəritəsi, tematik xəritə, atlas və kontur xəritə, iş dəftəri, cədvəl və sxemlər, dərsliklər, audio vizual vəsaitlər, kinofilimlər, cədvəllər, ədəbiyyatlar. | 1 |
| | 3.1.2, 4.1.1. | **3. SSRİ və ABŞ-ın müharibəyə qatılması** | Dünya XX əsrin əvvəllərində” siyasi xəritəsi, tematik xəritə, atlas və kontur xəritə, iş dəftəri, cədvəl və sxemlər, dərsliklər, audiovizual vəsait, portretlər, vəsaitlər, kinofilmlər, cədvəllər, ədəbiyyatlar, şəkillər, “Faşist blokunun işğallarının əsas istiqamətləri” xəritəsi. | 1 |
| | 1.12, 1.1.4, 2.1.1. | **4. Müharibənin gedişində əsaslı dönüş** | “Dünya XX əsrin əvvəllərində” siyasi xəritəsi, “İkinci dünya müharibəsi” xəritəsi, “İkinci dünya müharibəsinin əsas hərbi əməliyyatları” cədvəli, iş dəftəri, dərslik, ədəbiyyatlar, cədvəl və sxemlər, dərsliklər, audiovizual vəsaitlər, portretlər, kinofilmlər, şəkillər. | 1 |
| | 2.1.1, 3.1.3. | **5. Türk və Qafqaz xalqları müharibə illərində** | “Dünya XX əsrin əvvəllərində” siyasi xəritəsi, “İkinci dünya müharibəsi” xəritəsi, sxem və cədvəllər, diaqramlar, audiovizüal vəsaitlər, filmlər, ədəbiyyatlar, dərslik, iş dəftəri. | 1 |
| | 1.1.2, 2.1.2, 3.1.2. | **6. Müharibənin başa** | Dünya XX əsrin əvvəllərində” siyasi xəritəsi, “İkinci dünya müharibəsi” xəritəsi, “Avropada ikinci dünya | 1 |

| | | | | |
|---|---|---|---|---|
| | | **çatması** | müharibəsinin yekun mərhələsi (1944-1945)" xəritəsi, sxem və cədvəllər, diaqramlar, audiovizüal vəsaitlər, filimlər, iş dəftəri, dərslik, ədənbiyyatlar. | |
| | | **7. Summativ qiymətləndirmə** | Mövzu üzrə testlərin hazırlanması və tətbiqi. | 1 |

## Ümumi orta təhsil pilləsi üçün Ümumi tarix üzrə illik planlaşdırma nümunəsi

### VI sinif

| Tədris vahidi | Standartlar | Məzmun | Resurslar | Saat |
|---|---|---|---|---|
| **Qədim Roma**<br><br>**6 saat** | 2.1.2, 3.1.1. | **1. Qədim Roma dövləti. Respublikanın qurulması** | Dünyanın siyasi xəritəsi, Romanın tematik xəritəsi, VI sinif üçün iş dəftəri, Romanın qədim dövrünə aid audiovizual vəsait, cədvəl və sxemlər, dərslik və ədəbiyyatlar. | 1 |
| | 2.1.2, 4.1.1, | **2. Roma işğalları və Romada quldarlığın inkişafı** | Dünyanın siyasi və fiziki xəritəsi, Roma dövlətinin tematik xəritəsi, kontur xəritə, audiovizual vəsait, sxemlər, dərslik və iş dəftəri. | 1 |
| | 3.1.2, 4.1.1, 4.1.2. | **3. Roma imperiyası** | Dünyanın siyasi xəritəsi, Roma imperiyasının tematik xəritəsi, dünyanın inzibati xəritəsi, atlas və kontur xəritələr, audiovizual vəsait, sxemlər, dərslik və iş dəftəri, ədəbiyyatlar və flimlər | 1 |
| | 5.1.1, 5.1.2, 5.1.3. | **4. Roma mədəniyyəti** | Dünyanın siyasi xəritəsi, Roma dövlətinin tematik xəritəsi, audiovizual vəsait, iş dəftəri və vərəqləri, sxemi və cədvəllər, ədəbiyyatlar və flimlər. | 1 |
| | 1.1.2, 1.1.3, 3.1.2. | **5. Roma imperiyasının tənəzzülü** | Romanın tematik xəritəsi, Roma tarixinin qədim dövrünə aid audiovizual vəsait, dərsliklər, iş dəftəri, atlas, ədəbiyyatlar, flimlər. | 1 |
| | | **6.Summativ qiymətləndirmə** | Mövzu üzrə testlərin hazırlanması və tətbiqi | 1 |

**Müəllimin təlim fəaliyyətinin planlaşdırılmasına dair gündəlik plan nümunələri.**

Müəllim dərsə hazırlaşarkən ilk növbədə sinif üzrə təlim nəticələrini və alt standartları nəzərə almalıdır. Keçiriləcək hər bir mövzu üzrə standartlar təhlil olunmalıdır və qruplaşdırılmalıdır. Mövzunun dərslər üzrə bölgüsü də bu qruplaşdırma əsasında həyata keçirilməlidir. Mövzu dərslərə bölündükdən sonra hər dərsin öz standartları müəyyənləşdirilməlidir. Həmin standartlar əsasında isə dərsin təlim-tərbiyə və inkişafetdirici məqsədləri müəyyənləşdirilməlidir. Bu məqsədlərə və dərsdə öyrəniləcək təlim materialının məzmununa, habelə malik olduğu təlim vasitələrinə uyğun olaraq təlimin təşkilat formasını və üsullarını müəyyənləşdirməlidir.

**VI sinif**

**Mövzu:** Qədim Roma dövləti. Respublikanın qurulması.

**Standartlar:** 1.1.2, 2.1.2, 3.1.1.

**Məqsəd:**

I. Qədim Roma dövlətinin meydana gəlməsi, inkişafı və tənəzzülü dövrlərini fərqləndirir.

II. Qədim Roma dövlətinin təbii-coğrafi şəraiti əks etdirən xəritəsi əsasında hadisələrin baş verdiyi tarixi məkanı təsvir edir.

III. Qədim Roma dövlətinin yaranmasını, idarəetmə qaydalarını, sosial-iqtisadi münasibətləri təsvir edir.

**İnteqrasiya:** H.b. 2.1.1., 2.1.2.,

**İş forması:** qruplarla iş.

**İş üsulları:** Beyin həmləsi, suallar, klaster

**Resurslar:** Dünyanın siyasi xəritəsi, Romanın tematik xəritəsi, VI sinif üçün iş dəftəri, cədvəl və sxemlər, dərslik və ədəbiyyatlar.

**Motivasiya**: Respublika anlayışı barədə şagirdlərlə sorğu aparılır. Respublika quruluşunun yarandığı ilk dövlət müəyyənləşdirilir.

**Tədqiqat sualı:** Romada qurulan Respublikanın xüsusiyyətləri nədən ibarət idi?

**Tədqiqatın aparılması**: Şagirdlər 4 qrupa bölünür və onlara aşağıdakı suallardan ibarət sorğu vərəqləri verilir:

I qrup: Nə üçün İtaliyada əhalinin sayı durmadan artırdı? Bu Romanın genişlənməsinə nə kimi təsir göstərirdi? Klaster çəkin və müəyyənləşdirin

II qrup: Roma əhalisinin iki sosial hissələrə bölgüsünü-patrisləri və plebeyləri müqaisə edin. Venn diaqramını tamamlayın.

III. qrup: Roma İtaliya xalqları üzərində hakimiyyətini necə saxlaya bilirdi? Cavablarınızı təsnif edin.

IV qrup: Romanın respublika olması sosial təbəqələri necə razı salırdı? Klaster çəkin və onu tamamlayın.

**Məlumat mübadiləsi:** Qruplar öz işlərini təqdim edirlər və dəqiqləşmələr aparılır

**Məlumatların müzakirəsi:** Suallar əsasında şagirdlər müzakirəyə başlayır.

**Nəticənin çıxarılması:** Nəticədə şagirdlər Roma dövlətinin meydana gəlməsini, əhalisini, orada yaşayan sosial təbəqələrin mövqeyini öyrənirlər. Romada respublikanın əhəmiyyətini izah edirlər.

**Yaradıcı tədbiqetmə və ya ev tapşırığı:** Qədim Roma Respublikası ilə müasir İtaliyada Respublikanın oxşar və fərqli tərəfləri aşkar edin və esse yazın

**Qiymətləndirmə:** Şagirdlər özünüqiymətləndirmə vərəqləri əsasında qiymətləndirilir.

## VI sinif

**Mövzu:** *Qədim Roma Mədəniyyəti*

**Standartlar: 5.1.1 5.1.3**

**İnteqrasiya:** A.d. 1.2.4. Əd. 2.1.3. X.d. 1.1.1. Az.t. 5.1.1

**İş forması:** çütlərlə, kollektiv iş

**Üsul:** diskkusiya, klaster

**Resurslar:** dərslik, flipçat, marker, şəkillər, illüstrasiyalar

**Məqsəd:**

1. Roma mədəniyyətinin yaranmasını və inkişafını insanların həyatındakı dəyişikliklərlə əlaqələndirilir.

2.Roma mədəniyyətinin sivilizasiyalararası əlaqələrini dəyərləndirir.

3.Roma mədəniyyətinə dair məlumatlar toplayır və təqdim edir.

**Motivasiya (5)**

"Yol" anlayışından istifadə edirəm.

Qərim zamanlarda mövcud olan deyimə görə bütün yollar məhz bu şəhərə aparır. Sizcə bu hansı şəhər ola bilrdi? ( "Bütün yollar Romaya aparır")

-Ümumiyyətlə, şəhərə əsasən nə üçün gedirlər?

-Təsəvvür edin ki, siz evdən çıxmısınız və yol gedirsiniz? Siz yol boyu nə görəcəksiniz?

Evlər, teatrlar, kitabxanalar, küçələr, meydançalar, parklar.

-Bütün bunları bir sözlə ifadə etsək nə ad verərik?

Mədəniyyət

**Tədqiqat sualı**

-Bəs, onda qədimdə Romaya nə üçün gedirdilər? Həqiqətənmi Roma mədəniyyəti qədər zəngin idi?

**Tədqiqatın aparılması (14)**

A. Sinif çüütlərə bölünür. Hər bir çütə orta həcmli paylanılır. Eyni zamanda bir neçə şəkil paylanılır. İlk şəkillər Romanın ən iri mədəniyyət tikililəri olur (Kolizey,

Trayanın termləri, forum və Parfenon) Onları ağacın budaq hissəsinə bir-birindən aralı şəkildə yapışdırmalıdırlar. (2 dəq)

B. Sonra isə ikinci şəkil nümunələri paylanılır (imperator və sərkərdə heykəlləri, yazılı papirus nümunələri, relyeflər və tibbi ləvazimatlar). Tapşırıq həmin şəkildəkiləri məntiqi olaraq bu yerlərə yerləşdirməklə yapışdırmaqdır. (5dəq)

C. Nəhayət iş bitdikdən sonra üçüncü qrup şəkillər verilir. Bunlar: senatorlar, sərkərdələr, şəhər adamlarının və qulların rəsmləridir (5dəq).

Həmin mədəniyyət ocaqlarından kimlər istifadə edirdilər və hansı məqsədlə? (Şagirdlər təsnif edərək onları memar ) hər bir mümarlıq abidəsinin yanında bu şəkilləri lazımı qaydada yapışdırmalıdırlar.

D. Siz qədim Romada olsaydınız harada olmaq istərdiniz? Nə üçün? (2 dəq) diskusiya şəklində cavab alınır.

**Məlumatın mübadiləsi və müzakirəsi (7)**

Çütlər öz işlərini divardanasırlar. Müəllimlər diskusiya şəklində verdiyi tapşırıqların məntiqi cavablarını alır. Cütlər öz səhvlərini özləri aşkar edirlər. Lakin düzəlişlər olmur. Müəllim işləri dərsdən sonra götürməli və evdə yoxlamalıdır.

**Müzakirəs sualları:**

Romalılar nə üçün belə möhtəşəm binalar tikirdilər? Bu binaları kim tikirdi?

**Tədqiqatın davamı**

**Tədqiqat sualı:**

Roma mədəniyyətinin hüdudları nə qədər geniş ola bilərdi?

**Tədqiqat: (5 dəq)**

Bunun üçün cütlərə Roma imperiyasının siyasi-inzibati xəritəsi paylanılır. Xəritədə imperiya ərazisində yaşayan xalqların adları qeyd olunur. Tapşırıq xəritədə Romaya gedən şərq, qərb, şimal, cənub yolları istiqamətlərində yaşayan tayfaların adlarını müəyyən edib, onların romaya gedən yollarını müəyyənləşdirsinlər və onları sadalamaqla klasteri tamamlamaq. Sadalama auksion şəklində aparılır, müəlim verilən cavabları klasterə yerləşdirir.

Sonra müzakirə aparılır:

-Sizcə bu qədər xalqların yaşadığı və Romaya gedən bu qədər yolların mövcud olduğu ərazidə xalqlar bir-biri ilə necə ünsiyyət yaradırdılar? Onların vahid dilə ehtiyacı vardırmı?
-Bu hansı dil ola bilərdi?

**Refleksiya (2 dəq)**

Nəhayət kollektivə müasir dövrdə məlum olan yapışqanlı mədəniyyət nümunələri göstərilir (məsələn, stadion, kitabxana, müasir tipli hamam,çoxmərtəbəli yol). Fasilitator onların məsləhəti ilə həmin şəkli ona uyğun qədim Romanın mədəniyyət nümunəsinin qarşısında yapışdırır.

**Ümumləşdirmə və nəticə (2)**

Beləliklə, məlum oldu ki, Roma şəhəri Aralıq dənizi zahillərində ən iri mədəniyyət mərkəzi olub. Roma imperatorları və sərkərdələri onun tikilməsində qulların əməyindən istifadə etmişdilər. Bu mədəniyyətin hüdudları bütün Avropayanı əhatə etmiş, hətta müasir sivilizasiyamıza qədər gəlib çatmışdır.

**Ev tapşırığı və ya yaradıcı tədbiqetmə**

Müasir təqvimə baxırsınız, təqvimin aylarının adlarının mənasını müəyyənləşdirin və Roma mədəniyyəti nümunələrindən istifadə etməklə elektron təqvim hazırlayın.

**Qiymətləndirmə**

| Meyarlar qruplar | Seçir | Müəyyən edir | Fərqləndirir | əməkdaşlıq edir |
|---|---|---|---|---|
| I QRUP | | | | |
| II QRUP | | | | |
| III QRUP | | | | |
| IV QRUP | | | | |

Formativ qiymətləndirmə meyara görə aparılır.

**VII sinif**

**Mövzu: Qərbi Hun dövləti.**

**Standartlar: 2.1.2. 3.1.1, 4.1.1.**

**Məqsəd:** I. Hun dövlətinin yaranmasını, idarə etmə qaydalarını, sosial-iqtisadi münasibətləri nümayiş etdirir.

II. Qərbi Hun dövlətinin inkişafında şəxsiyyətlərin rolunu izah edir.

III. Hun dövlətinin ərazisini xəritədə müəyyənləşdirir.

**İnteqrasiya:** Ə. 2.1.3. H.b. 2.1.1, 2.1.2, 2.2.1. Az.t. 3.1.2. 3.1.3

**İş forması**: kollektiv və qruplarla iş.

**Təlim üsulları**: Beyin həmləsi, klaster, venn diaqramı və müzakirə.

**Resurslar**: Dünyanın siyasi xəritəsi, Qərbi Hun dövlətinin tematik xəritəsi, VII sinif üçün iş dəftəri, Qərbi Hun dövlətinə aid audiovizual vəsait, cədvəl və sxemlər, dərslik və ədəbiyyatlar.

**Motivasiya:** Şagirdlərə "Atilla" filmindən bir epizod nümayiş etdirilir. Sonra filmin baş qəhrəmanı barədə hansı məlumatlara malik olmaları soruşulur.

Baş qəhrəmanın adı məlum olduqdan sonra tədqiqat sualı lövhəyə yazılır.

**Tədqiqat sualı:** Necə oldu ki, Avropada böyük Hun dövləti yarandı?

Bu dövlətin idarə olunması, sosial-iqtisadi münasibətləri necə qurulmuşdur?

**Tədqiqatın aparılması:** Şagirdlərə qrup şəklində işləmək üçün sorğu vərəqləri paylanılır. Sorğu vərəqlərində aşağıdakı tapşırıqlar əksini tapır:

**I qrup:** Hə üçün hunlar Avropaya axın etməyə başladılar?

**II qrup:** Hun dövlətinin ərazisinecə genişləndi? Xronoloji cədvəli tamamlayın

**III qrup:** Qərbi Hun dövlətinin sosial-iqtisadi münasibətləri Qədim Roma ilə müqaisə edin. Venn diaqramı çəkin və onu tamamlayın

**IV qrup:** Nə üçün Hun dövləti tez süqut etdi? Atillanın ölümü hiyə hunların faciəsinə çevrildi? Mülahizələrinizi yazın.

**Məlumat mübadiləsi:** Qruplar ümumi müzakirə nəticəsində yazdıqlarına düzəlişlər edir, bəzi dəqiqləşmələr aparır.

**Məlumatın müzakirəsi:** Qazanılmış biliklər müəllim və şagirdlər tərəfindən müzakirə olunur.

**Nəticənin çıxarılması və ümumiləşdirmə:** Şagirdlər Hun dövlətinin yaranması, idarə etmə qaydalarını, sosial-iqtisadi münasibətlərini, Qərbi Hun dövlətinin inkişafında şəxsiyyətlərin rolunu müəyyənləşdirdilər.

**Yaradıcı tədbiqetmə və ya ev tapşırığı**: Evdə böyük hun imperiyasının xəritəsini çəkin və orada yaşayan müasir xalqların adlarını qeyd edin.

**Qiymətləndirmə:** Qrupların fəaliyyəti sonda məqsədəuyğun meyarlar əsasında qiymətləndirilir. Formativ qiymətləndirmə meyara görə aparılır.

## VIII sinif

**Mövzu:***Fransa*

**Standartlar:** *3.1.1. 3.1.2*

**Məqsəd:** 1. Mərkəzləşmiş Fransa feodal dövlətinin yaranmasını izah edir.

2. Mərkəzləşmiş Fransa feodal dövlətinin sosial-iqtisadi münasibətləri təhlil edir.
3. Fransanın tarixinə dair esse yazır

**İnteqrasiya:** A.d. 3.1.1. Ə. 3.1.3. X.d. 4.1.2.

**İş forması:** qruplarla iş

**İş üsulları:** Beyin həmləsi, müsahibə, venn diaqramı, klaster.

**Resurslar:** Dünyanın siyasi xəritəsi, Fransa feodal dövlətinin tematik xəritəsi, VIII sinif üçün iş dəftəri, Fransa dövlətinə aid audiovizual vəsait, cədvəl və sxemlər, dərslik və ədəbiyyatlar.

**Motivasiya:** Şagirdlərə "Janna Dark" filmindən bir epizod nümayiş etdirilir. Sonra filimin baş qəhrəmanı barədə hansı məlumatlara malik olmaları soruşulur.

Onun Fransanın müstəqilliyinin qorunmasındakı rolu müəyyənləşdirilir. Müzakirədən sonra tədqiqat sualı lövhəyə yazılır.

**Tədqiqat sualı:** Fransanın birləşdirilməsi uğrunda mübarizə və mərkəzləşmiş Fransada feodal dövlətinin yaranması barədə nə bilirsiniz?

**Tədqiqatın aparılması:**

1. “Yüzillik müharibə”nin başlanmasının səbəblərini müəyyənləşdirin?

2. “Yüzillik müharibə” döyüşən tərəflərə nə verdi? Venn dioqarmı çəkin və Fransa və İngiltərəni müqaisə edin.

3. Janna Darkın fransa tarixindəki rolunu Babəkin Azərbaycan tarixindəki rolu ilə müqaisə etmək olarmı? İki tərəfli klaster çəkin və onu tamamlayın

4. Nə üçün “Yüzillik müharibə”Fransanın birləşdirilməsində əsaslı rol oynadı? Mülahizələrinizi yazın.

**Məlumatların müzakirəsi:** Şagirdlər suallara cavab verərək, fikir mübadiləsi aparır.

**Nəticənin çıxarılması:** Fransanın birləşdirilməsi uğrunda mübarizə və Mərkəzləşmiş Fransa feodal dövlətinin yaranması barədə məlumata malik oldular.

**Yaradıcı tədbiqetmə:** “Yüzillik müharibə” : Azərbaycan tarixində anoloji hadisə olmuşdurmu? Adlı esse yazın

**Qiymətləndirmə:** qiymətləndirmə meyara görə aparılır.

## IX sinif

**Mövzu:** *Amerika Birləşmiş Ştatlarının yaradılması*

**Standart:** 3.1.1.

**Məqsəd:** ABŞ-ın yaranması prosesini izah edir.

ABŞ-ın siyasi quruluşunu təhlil edir.

**İnteqasiya:** X.d. 2.1.1. Əd.2.1.3. H.b. 2.1.1., 2.1.2, 2.2.1. Az.t. 3.1.1.

**İş forması:** qruplarla iş.

**İş üsulları**: Beyin həmləsi, Venn diaqramı, Klaster.

**Resurslar:** Dünyanın siyasi xəritəsi, ABŞ-ın tematik xəritəsi, IX sinif üçün iş dəftəri, ABŞ dövlətinə aid cədvəl və sxemlər, dərslik və ədəbiyyatlar.

**Motivasiya:** Üzərində Corc Vaşinqtonun şəkli olan ABŞ-ın pul vahidi nümayiş olunur. Təbi ki, şagirdlər bu pull vahidinin dollar olduğunu sğyləyir. Bu pul vahidinin hansı dövlətə məxsus olduğu soruşulur. Cavab alındıqdan sonra ABŞ-ın yaranması barədə sullar verilir. İşin aparılması üçün aşağıdakı tədqiqat sualı qoyulur.

**Tədqiqat sualı:** ABŞ- dövləti necə yarandı. Onun digər dövlətlərdən fərqi nə də idi?

**Tədqiqatın aparılması:** Şagirdlər 3 qrupa bölünür və onlara aşağıdakı tapşırıqlar verilir.

**I qrup:** ABŞ-ın yaranması zərurəti nədən irəli gəlirdir? Klaster tərtib edin və Amerikada yaşayan əhalini sosial qruplara ayrıraraq, hər birinin qarşısında zəruri amilləri qeyd edin.

**II qrup:** Nə üçün İngiltərə ilə aparılan "İstiqlaliyyət uğrunda" müharibə həm də inqilab adlanır. Bu hərəkatı Fransa Burjua inqilabı ilə müqaisə edin. Venn diqaramı ilə

**III qrup:** İstiqlal qazandıqdan sonra ABŞ-ın siyasi quruluşunu təhlil edin. Onu İngiltərənin siyasi quruluşu ilə müqaisə edin (Venn diaqramı ilə). Hansı daha demokratik idi?

**Məlumatların mübadiləsi:** Şagirdlər təqdimat edir və öyrəndikləri məlumatları digər yoldaşları ilə mübadilə edirlər.

**Məlumatların müzakirəsi**: Qazanılmış biliklər müzakirə olunur.

Müzakirə sualları:

ABŞ öz istiqalal mübarizəsində hansıyollardan keçmişdi? Gəlin xronologi cədvəl quraq.

Nə üçün bu mübarizə "İstiqlal müharibəsi adlanırdı"?

ABŞ-ın istiqlaliyyəti yolunda hansı tarixi şəxsiyyətlərin rolu olmuşdu?

Niyə ABŞ-ın yeni qurduğu dövlət quruluşu bir çox dövlətlər üçün nümunəvi oldu?

**Nəticənin çıxarılması:** Şagirdlər dərsin sonunda tədqiqat sualına cavab tapır. ABŞ-ın istiqlal yolunu, bu mübarizədə iştirak edən şəxsiyyətlərin rolunu, onun dövlət

quruluşunu öyrəndilər. "İstiqlal müharibəsinin" dünya tarixindəki rolunu müəyyənləşdirirlər.

**Yaradıcı tədbiqetmə:** ABŞ- konstitusiyasıına nə əlavə edərdiniz. Nə üçün amerikalılar azadlığa heykəl qoymuşlar? Bu suallara cavab axtarın və öz fikirlərinizi istədiyiniz formada çatdırın: esse, təqdimat, kollaj, rəsm və sair.

**Qiymətləndirmə:** qiymətləndirmə meyarı əsasında şagirdlər qiymətləndirilir.

## X sinif

**Mövzu:** İngiltərə XIX əsrdə.

**Standart: 2.1.1. 3.1.2.**

**Məqsəd:** 1. İngiltərənin XIX əsrdəki vəziyyətini araşdırır.

1. İngiltərədə baş vermiş dəyişikliklərin cəmiyyətin sosial-iqtisadi həyatındakı rolunu şərh edir.
2. İngiltərədə baş verən dəyişikliklərin dünyanın inkişafına etdiyi təsirini izah edir.

**İnteqrasiya:** Az.t. 2.1.1. , .3.1.1. , X.d. 3.1.4.

**İş forması:** fərdi və kollektivlə iş.

**İş üsulları**: beyin həmləsi, müsahibə, Venn diaqramı.

**Resurslar:** Dünyanın siyasi xəritəsi, İngiltərənin siyasi xəritəsi, X sinif üçün iş dəftəri, İngiltərə dövlətinə aid audiovizual vəsait, cədvəl və sxemlər, dərslik və ədəbiyyatlar.

**Motivasiya:** Şagidlərə belə bir suallar verilir: Çəpərləmə siyasətini tarixdə hansı dövlət həyata keçirib? İlk dəmir yolu nə vaxt və harada çəkilmişdi? Ilk parlament harada yaradılıb? Parlamentdə qoyun yununu sinvolik olaraq qoyan dövlət hansıdır və s.

**Tədqiqat sualı:** İngiltərədə baş vermiş dəyişikliklərin cəmiyyətin sosial-iqtisadi həyatındakı rolunu nədən ibarətdir?

**Tədqiqatın aparılması:**

1. Sənaye çevrilişi nə deməkdir? İngiltərədə sənaye çevrilişi necə baş verirdi? İstehsalın sahələri üzrə təsnif edin.

2. İqtisadi böhran nə deməkdir? İngiltərədə baş verən iqtisadi böhranların səbəblərini açıqlayın.

3. Aqrar və sənye İngiltərəsini müqaisə edin. Ven diqaramı çəkin. İngiltərənin demokratik ölkəyə çevrilməsinin sənaye çevrilişinin rolu nədən ibarət idi?

**Məlumatların mübadiləsi:** şagirdlər həll etdikləri tapşırıqları digər yoldaşları ilə mübadilə edirlər.

**Məlumatların müzakirəsi**: Qazanılmış biliklər müzakirə olunur.

**Nəticənin çıxarılması:** Aqrar və sənaye İngiltərəsini müqaisə edərək İngiltərədə baş vermiş geosiyasi dəyişikliklərin cəmiyyətin sosial-iqtisadi həyatındakı rolunu müəyyənləşdirdi.

**Yaradıcı tədbiqetmə və ya ev tapşırığı:** "Müasir İngiltərədə demokratiya" adlı təqdimat hazırlayın

**Qiymətləndirmə:** Meyarlar əsasında şagirdlər qiymətləndirilir.

## XI sinif

**Mövzu:** İtaliya iki cahan müharibəsi arasındakı dövrdə

**Standart:** 3.1.1.

**Məqsəd:** İtaliya dövlətinin inkişaf prosesi haqqında məlumat verir.

İtaliyanın həyatında baş vermiş geosiyasi dəyişiklikləri izah edir.

**İnteqrasiya:** Az.t. 3.1.1., 3.1.2. A.d. 1.2.2. Əd. 2..1.3.

**İş forması:** fərdi və qrupla iş.

**İş üsulları**: beyin həmləsi, klaster,müsahibə.

**Resurslar:** Dünyanın siyasi xəritəsi, İtaliya dövlətinin xəritəsi, XI sinif üçün iş dəftəri, cədvəl və sxemlər, dərslik və ədəbiyyatlar.

**Motivasiya:** Çəkmə şəkli nümayiş olunaraq xəritədə hansı dövlətin formasına bənzədiyi soruşulur. Həmçinin müəllim ilk faşist blokunun harda yaranmasını

şagirdlərdən soruşmaqla şagirdlərin diqqətini öyrəniləcək problemə çəkə bilər. İtaliyanın Birinci dünya müharibəsindəki iştirakı barədə suallar verilir. I Dünya müharibəsinin sülh şərtlərini şagirdlərdən suallar vasitəsi ilə alan müəllim İtaliyanın bu müharibədən sonrakı, eləcədə II Dünya müharibəsi ərəfəsindəki vəziyyəti araşdırmaq üçün tədqiqat sualını qoyur.

**Tədqiqat sualı:** Birinci Dünya müharibəsindən sonra İtaliyanın sosial-iqtisadi və siyasi vəziyyəti necə idi?

**Tədqiqatın aparılması:**

I qrup: Necə oldu ki, İtaliyada faşizimin meydana gəldi. Mülahizələriniz xronoloji şəkildə qeyd edin.

II qrup: İtaliyada faşizmin meyadana gəlməsində dünya iqtisadi böhranını səbəb kimi göstərə bilərsinizmi. İki hissəli cədvəl çəkin və bir hissəsində "hə", digər hissəsində isə "yox" cavablarını qeyd edin.

III qrup: İtaliyanın xarici siyasətini təsnif edin. Ölkələrə görə klasteri tamamlayın.

IV qrup: Faşim İtaliyaya nə verə bilərdi? Bunun üçün İtaliyanın daxili siyasəti barədə klaster hazırlayın.

**Məlumatların mübadiləsi:** Şagirdlər təqdimat edir və öyrəndikləri məlumatları digər yoldaşları ilə mübadilə edirlər.

**Məlumatların müzakirəsi**: Qazanılmış biliklər müzakirə olunur.

**Nəticənin çıxarılması:** Şagirdlər I Dünya müharibəsindən sonra İtaliyanın sosial-iqtisadi və geosiyasi dəyşikliklərini müqaisə edirlər və faşizmin səhf siyasət olduğunu müəyyənləşdirirlər.

**Yaradıcı qiymətləndirmə:** Evdə faşist İtaliyası ilə müasir İtaliyanı müqaisə edin və təqdimat hazırlayın.

**Qiymətləndirmə:** Meyarlar əsasında şagirdlər qiymətləndirilir.

| ***Meyarlar*** / ***qruplar*** | **Tufan** | **Alov** | **Hərb** | **Sülh** |
|---|---|---|---|---|
| **İzah etmə** | | | | |

| | | | | |
|---|---|---|---|---|
| **Şərh etmə** | | | | |
| **Təqdim etmə** | | | | |
| **Vaxta qənaət etmə** | | | | |
| **Əməkdaşlıq etmə** | | | | |

## 2.4. Tarix fənninin məzmun standartlarının şərhi[1]

| | | |
|---|---|---|
| | **VI sinif** | |
| | **Tarixi zaman** | |
| | ***1.1. Tarixi faktların tarixi zamanla əlaqəsini anladığını nümayiş etdirir.*** | |
| **Standart** | **Məzmun** | **Açar söz** |
| 1.1.1. Tarixdə il hesabından istifadə edir. | *Tarixdə il hesabından istifadə edərək miladdan öncəni və miladımızı seçib ayıra bilir. Miladi, hicri təqvim, minillik , era, əsr, yüzillik, , qərinə kimi anlayışlar izahını verir, onların özündə neçə ili birləşdirməsini bilir və hesabını aparır. Miladi təqvimin İsa peyğəmbərin doğumu ilə əlaqədar olaraq birinci il kimi götürülməsi. Hicri təqvimin İslam dünyasının peyğəmbəri Məhəmməd Peyğəmbərin Məkkədən Mədinəyə 622-ci ildə köç etməsi ilə başlamasını və heablanılması.* | Miladi və hicri təqvim, era, əsr, qərinə, yüz illik, minillik, bizim era, bizim eradan əvvəl. |
| 1.1.2. İbtidai icma cəmiyyəti və quldar dövlətlərin meydana gəlməsi, inkişafı və tənəzzülü dövrlərini fərqləndirir. | *Misir, Şumer, Babil, Aşşur, İskit, Midiya, Əhəməni, Hun, Çin, Hindistan, Parfiya, Yunanıstan və Romanın yaranma tarixi, onların inkişafı tarixində hansı mühüm hadisələrin baş verdiyini və bu hadisələrin zamanını müəyyən etməsi. Dövlətlərin tənəzzül tarixinin zamanını fərqləndirməsi. Onların bizim eradan əvvəl yaranması, tənəzzülərinin bizim era daxilində baş verməsini, quldar münasibətlərin formalaşdığı minillik və əsrləri müəyyən edir və bu münasibətlərin dövlətlər tərəfindən möhkəmləndirilməsni tənəzzülə gətirən səbəbləri fərqləndirməsi.* | Ibtidai icma, cəmiyyət, insan sürüsü, qəbilə, tayafa, inkişaf, tənəzzül, quldarlıq, qul, quldar. |
| 1.1.3.Müxtəlif ölkələrdə baş vermiş | *Müxtəlif ölkələrdə baş vermiş mühüm hadisələri müəyyən etməsi, onların zaman* | Xronologiya, təzahür, |

[1] **Məzmun standartalrının şərhinə aid verilmiş izahlar və aşar sözlər ancaq tövsiyə xarakteri daşıyır. Siniflər üzrə şagirdlərin inkişaf səviyyəsinə və marağına uyğun olaraq müvafiq dəyişikliklər və əlavələr etməklə onlara yaradıcı yanaşmaq məqsədəuyğun hesab edilir.**

| | | |
|---|---|---|
| mühüm hadisə, proses və təzahürlərin xronoloji çərçivələrini müəyyən edir. | *ardıcıllıqını bilir, proses və təzahürləri xronoloji qaydada davam etməsini müəyyənləşdirərək birinin digərindən daha tez, ya da sonra baş verməsini müəyyən edilməsi. Həmçinin xronoloji ardıcıllıq zamanı miladdan əvvəl və milladan sonrakı dövrdə baş verən hadisələrin düzgün ardıcıl düzülüşünü, zaman oxuna uyğun inkişaf etdirilməsi.* | proses, zaman ardıcılığı, zaman oxu. |
| | **2. Tarixi məkan** | |
| | ***2.1. Tarixi hadisə, proses və təzahürlərin baş verdiyi təbii-coğrafi şəraitlə bağlı bilik və bacarıqlar nümayiş etdirir.*** | |
| 2.1.1. Ən qədim insan məskənlərinin, ilk sivilizasiyaların və dövlətlərin yaranmasını, inkişaf amillərini izah edir. | *Ən qədim insan məskənlərinin, mağaraların, yaşayış məskənlərinin yaranması, onların yaranma zərurətini, yerini müəyyən edərək onun coğrafi şəraitinin, iqliminin yaşayış üçün münasib olduğunu  və ilk sivilzasiyaların yarandığı məkanlar, dövlətlərin yarandığı məkanlar, onların inkişafına təsir göstərən amilləri barədə izahın verilməsi.* | Mağara, yaşayış məskənləri, sivilizasiya, inkişaf, məkan, |
| 2.1.2. Təbii-coğrafi şəraiti əks etdirən xəritə əsasında hadisələrin baş verdiyi tarixi məkanı təsvir edir. | *Təbii-coğrafi şəraiti əks etdirən xəritədə ilk insan məskənləri, bu məskənlərin inkşaf edərək qəbilə, tayfa, tayfa ittifaqı və həmçinin dövlətlərin yarandığı yeri müəyyən edərək onların hansı iqlim qurşağında, təbii-coğrafi məkanda yerləşməsini müəyynləşdirərək hadisələrin baş verdiyi tarixi məkanı  təsvir etməsi.* | Təbii  coğrafi şərait, təbii ehtiyatlar, təbii mağaralar. |
| | **3. Dövlət** | |
| | ***3.1. Dövlətlərin yaranması, inkişafı və tənəzzülü ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.*** | |
| 3.1.1. Qədim dövlətlərin (Misir, Şumer, Babil, Aşşur, İskit, Midiya, | *Qədim dövlətlərin -  Misir, Şumer, Babil, Aşşur, İskit, Midiya, Əhəməni, Hun, Çin, Parfiya, Hindistan, Yunanıstan və Roma dövlətlərinin yaranmasını, onların mövcud* | Xronologiya, qaynaqlar,  tarixi |

| | | |
|---|---|---|
| Əhəməni, Hun, Çin, Parfiya, Hindistan, Yunanıstan və Roma dövlətləri) yaranmasını, idarəetmə qaydalarını, sosial-iqtisadi münasibətləri təsvir edir. | *olduğu dövrdə hansı quruluşun mövcud olması, dövləti idarə etmə formalarını, firon, hökmdar, kahin, məmur, vergi yığan məmur, canişin və digər vəzifələrin tutulmasnı, idarəetmə qaydalarını, vergi və mükəlləfiyyətlərin tətbiqini, istismar, borc daşları və bu kimi digər mənbələrə istinad edərək mövcud sosial-iqtisadi münasibətlərin təsvir edilməsi.* | faktlar, fironlar, nizami ordu sosial qruplar, məmur, canişin. |
| 3.1.2. Mənbələr əsasında qədim dövlətlərlə bağlı məlumatlar toplayır və təqdim edir. | *Müxtəlif mənbələrə müraciət edərək araşdırmalar aparır, qədim dövlətlərin yaranma tarixinə dair heroqilif, mixi və başqa yazılı və maddi mənbələrin tədqiq edilərək toplanılması. Qədim dölətlərin tarixi köklərinin araşdırılması, yaranma, inkişaf və tənəzzülü barədə məlumatlar əldə edilr. Qaynaqların toplanılaraq sistemli şəkildə təqdim edilməsi.* | Mənbə, qaynaq, mixi, heroqlif, qədim əlifba. |
| | **4. Şəxsiyyət** | |
| | **4.1.Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir.** | |
| 4.1.1. Tarixi şəxsiyyətləri (I Tutmos, III Tutmos, II Ramzes, Hammurapi, Aşşurbanipal, II Sarqon, II Kir, I Da-ra, Mete xaqan, İsgəndər, Sin Şi Xuandi, Aşoka, Solon, Mitridat, Perikl, Yuli Sezar, Oktavian Avqust, Konstantin) müəyyənləşdirir. | *Şəxsiyyətlərin müəyyən tarixi zamanlarda rolunu, onların hər hansı bir dövlətin, yaxud da dünya tarixində aparıcı rol oynamasını, məsələn, I Tutmos, III Tutmos, II Ramzes, Hammurapi, Aşşurbanipal, II Sarqon, II Kir, I Dara, Mete xaqan, İsgəndər, Sin Şi xuandi, Aşoka, Solon, Mitridat, Perikl, Yuli Sezar, Oktavian Avqust, Konstantini bir tarixi şəxsiyyət kimi rolunu müəyyən edərək, onların dövlətlərin və xalqların tarixindəki rolunu, nə kimi işlər görməsini müəyyənləşdirilməsi.* | Şəxsiyyət , işğalçılığ yürüşləri, tarixi rolu. |
| 4.1.2. Mənbələr əsasında qədim dövr tarixi şəxsiyyətləri haqqında məlumatlar toplayır, təqdim edir. | *Mənbələrə istinad edərək araşdırmalar aparır, qədim dövrün tarixi şəxsiyyətlərini seçir, onların dövlət idarəçiliyində oynadığı rolu haqqında məlumatları toplayaraq təqdim edilməsi..* | Tarixi fakt və hadisələr, şəxsiyyət, idarə etmə. |

| | | |
|---|---|---|
| | **5. Mədəniyyət** | |
| | ***5.1. Mədəniyyətləri və sivilizasiyaları qiymətləndirir.*** | |
| 5.1.1. Mədəniyyətin ayrı-ayrı sahələrinin insanların həyat tərzi ilə əlaqələrini izah edir. | *Mədəniyyətin ayrı-ayrı sahələrinin, sivilizasiyayaqədərki, sivilizasiyadan sonrakı, eləcə də antik yunan və roma mədəniyyətinin, ellin mədəniyyətini insanların həyat tərzi ilə əlaqələrinin izahı. Sənəkarlıqın inkişafı ilə əlaqəli olaraq müxtəlif incəsənət nümunələrinin yaranması, dini baxışların formalaşması, piramida, sfinks, sərdabə, zikkurat və asma bağlar kimi mədəniyyət inciləri, heykəltaraşlıq, teatr, ədəbiyyat və elmin inkişafı. Insanların həyat tərzi ilə dini görüşləri arasında əlaqənin izah edilməsi.* | Piramidalar, Sfinks, sərdabələr, Zikkurat, Asma bağlar, teatır, heykəltaraşlıq, ilk əlifba, ilk kitabxana, zoomorf fiqurlar, Tomris əfsanəsi, mixi, heroqlif yazı, İpək yolu, kağız istehsalı. |
| 5.1.2.Mədəniyyətlərarası və sivilizasiyalararası əlaqələrə münasibət bildirir. | *Mədəniyyətlərarası və sivilizasiyalararası əlaqələrə münasibətin izah edilərək, onların cəmiyyətin həyatındakı buraxdığı izi təhlil edilməsini, mədəniyyətin bəşər cəmiyəti həyatına münasibət bildirilməsi. Müxtəlif xalqların və ölkələrin, eləcədə dövrlərin mədəniyyəti arasında əlaqə, Məsələn İpək yolu vasitəsi ilə şərq mədəniyatinin formallaşması, Yunan-roma mədəniyyəti əsasında ellin mədəniyyətinin, yəni antik dövr mədəniyyətinin formalaşması və onların müsbət tərəfləri, onlar arasında əlaqələrin inkişaf xəttinə münasibət bildirilməsi.* | Mədəniyyət, sivilizasiya, ellin mədəniyyəti, yunan-roma mədəniyyəti, İpək yolu, şərq mədəniyəti. |
| 5.1.3.Mədəniyyətlərə, mədəniyyətlərarası əlaqələrə dair məlumat toplayır, təqdim edir. | *Müxtəlif mədəniyyətlərə dair məlumatlar toplayaraq onlar arasındakı əlaqələri öyrənir. Bu əlaqələtrin tarixi kökləri, inkişaf amilləri və müsbət tərəfləri haqqında məlumat verir. Sivizasiyanın inkişafı, mədəniyyətlərarası münasibətlərin müəyyən zaman çərçivəsində yaranması və inkişafını sübut edən dəlilərin toplayaraq təqdim* | Tarixi faktlar, mənbə, inkişaf, mədəniyyətlərarası əlaqə. |

| | | |
|---|---|---|
| | *edilməsi.* | |
| | **VII sinif** | |
| | **1.Tarixi zaman** | |
| | ***1.1. Tarixi faktların tarixi zamanla əlaqəsini anladığını nümayiş etdirir.*** | |
| 1.1.1. Mühüm tarixi faktları davametmə müddətinə görə fərqləndirir. | *Mühüm tarixi faktları mənbələrin köməyi ilə digər tarixi faktlardan ayıraraq cəmiyyətin, eləcədə xalqların həyatında mühüm olan faktları müəyyən edərək müddətini müəyyənləşdirərək davametmə müddətinə görə birini digərindən əsaslı surətdə fərqləndirməsi.* | Tarixi fakt, fərqləndirmə, müəyyənləşdirmə. |
| 1.1.2. Müxtəlif ölkələrdə baş vermiş ayrı-ayrı tarixi faktların sinxronluğunu müəyyənləşdirir. | *Ayrı ayrı ölkələrdə baş vermiş müxtəlif hadisələrin zamanını məyyən edərək onların yaranma ilini dəqiqləşdirmə. Baş vermiş tarixi fakt və hadisələrin sinxironluğunu, yəni eyniliyini müəyyənləşdirilməsi.* | sinxron, təzahür, zaman. |
| 1.1.3. Tarixi faktları xronoloji qaydada sistemləşdirir. | *Zamanın ardıcıl düzülüşünə nəzarət edərək tarixi faktları əvvəldən sona, yəni keçmişdən bu günümüzədək olan bütün hadisə və prosesləri zamanın ardıcılıqı ilə düzülməsi. Məsələm eramızdan əvvəl baş vermiş hadisənin başladıqda davamlı olaraq eramıza keçid edib sıralama, yaxud da düzərək sistemləşdirilməsi.* | Xronologiya, fakt, zaman ardıcılığı, düzgün düzülüş, sistemləşdirmə. |
| | **2.Tarixi məkan** | |
| | ***2.1. Məkanda baş verən tarixi hadisə, proses və təzahürlərlə bağlı bilik və bacarıqlar nümayiş etdirir.*** | |
| 2.1.1. Feodal münasibətlərinin yaranmasını və inkişafını dövlətlərin və xalqların geosiyasi məkanında baş verən dəyişikliklərlə əlaqələndirir. | *Quldarlıq münasibətlərinin sona yetməsi yeni torpaq mülkiyyəti formasının yaranması, mülkn sahibinin feodal, bu quurluşun feodalizim adlandırılması. Feodal münasibətlərinin yaranmasını və inkişafını, dövlətlərin və xalqların həyatındabaş verən dəyişikləri ərazlərini baxımından, yəni sərhədlərin eləcə də yerləşmə məkanının* | Feodal, mülk, geosiyasi, məkan, feodalizm, sərhəd, yerləşmə məkanı. |

| | | |
|---|---|---|
| | *dəyişiylməsi ilə əlaqələndirilməsi.* | |
| 2.1.2. Dövlətlərin və xalqların həyatında məkan baxımından baş verən dəyişiklikləri xəritələrdəki məlumatlar əsasında təhlil edir. | *Yaranmış olan dövlətlərin və xalqların həyatında baş vermiş dəyişikliklər, müharibə və işğallar zamanı dövlətlərin ərazisinin dəyişməsini xəritələrdə göstərərək digər mənbələrdəki məlumatlarla əsalandırır. Xalqların köçü, yaxud köçürmə və sürgünlər zamanı xalqların yer dəyişməsini, məkan baxımındn dəyişikliklərinin xəritələrdəki məlumatlar əsasında təhlil edilməsi.* | Xalqların köçü, köçürmə siyasəti, müharibə, işğal. |
| | **3. Dövlət** | |
| | ***3.1.Dövlətlərin yaranması, inkişafı və tənəzzülü ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.*** | |
| 3.1.1. Feodal dövlətlərinin (Çin, Sasani, Qafqaz, Ağ Hun, Qərbi Hun, Göytürk, Uyğur, Xəzər, Avar, Bulqar, Hindistan, Ərəb xilafəti, Frank, Bizans, Slavyan dövlətləri, Oğuz, Səlcuq, Samani, Qaraxanlı, Qəznəvi, Xarəzmşahlar, Monqol, Osmanlı, Qızıl Orda, Teymuri Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi, Böyük Moğol, Rusiya, İngiltərə, Fransa, İspaniya, İtaliya, Almaniya) yaranması, | *Adları nəzərdə tutulan feodal dövlətlərinin, Çin, Sasani, Qafqaz, Ağ Hun, Qərbi Hun, Göytürk, Uyğur, Xəzər, Avar, Bulqar, Hindistan, Ərəb xilafəti, Frank, Bizans, Slavyan dövlətləri, Oğuz, Samani, Qaraxanlı, Qəznəvi, Xarəzmşahlar, İngiltərə, İspaniya, İtaliya, Almaniya, Fransa, Rusiya, Səlcuq, Monqol, Səfəvi, Ağqoyunlu, Qaraqoyunlu, Qızıl Orda, Osmanlı, Teymuri, Böyük Moğol kimi dövlətlərin yaranma şəraiti, idarəçilik sistemi, baş verən yeni dəyişikliklər, sosial-iqtisadi münasibətlərin, eləcədə siyasi münasibətlərin tənzimlənməsi və qarşılıqlı əlaqəsinin şərh edilməsi.* | İdarəçilik, sosial-iqtisadi, siyasi münasibətlər, feodal dövlətləri. |

| | | |
|---|---|---|
| idarəçilik formaları və sosial-iqtisadi və siyasi münasibətlərini şərh edir. | | |
| 3.1.2. Feodal dövlətlərinin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl və diaqramlar hazırlayır. | *Feodal dövlətlərinin yaranmasının və formalaşmasının idarəçilik sisteminin, torpaq quruluşunun oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl və diaqramların hazırlanması.* | oxşar və fərqli cəhətlər, erkən feodalizm, torpaq quruluşu, diaqram, cədvəl. |
| | **4. Şəxsiyyət.** | |
| | ***4.1. Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir.*** | |
| 4.1.1. Dövlətlərin və mədəniyyətlərin inkişafında şəxsiyyətlərin (Attila, Xlodviq, Bumın xaqan, Məhəmməd peyğəmbər, Böyük Karl, Mahmud Qəznəvi, Alp Arslan, Məlik şah, Çingiz xan, Qara Yusif, Uzun Həsən, Batı xan, II Mehmet, Əmir Teymur, Sultan Süleyman Qanuni, Əkbər şah, Şah İsmayıl, I Təhmasib, Oranlı Vilhelm, IV İvan) rolunu izah edir. | *Yaranmış dövlətlərin və mövcud olmuş xalqların həyatında tarixi şəxsiyyətlərin rolu, məsələn Attilanın və Bumın xaqanın Türk xalqları tarixindəki izi, Məhəmməd Peyğəmbərin islam dini ideyası altında bəşər tarixindəki kəskin dini-idaloji dəyişiklik etməsi, eləcə də ərəb qəbilələrini bir dövlət halında birləşdirməsi, həmçinin digər tarixi şəxsiyyətlərin, Böyük Karl, Mahmud Qəznəvi, Alp Arslan, Məlik şah, Çingiz xan, Qara Yusif, Uzun Həsən, Batı xan, II Mehmet, Əmir Teymur, Sultan Süleyman Qanuni, Əkbər şah, Şah İsmayıl, I Təhmasib, Oranlı Vilhelm, IV İvan və başqalarının tarixdəki rolunun izah edilməsi.* | Şəxsiyyət, idealogiya, tarixdəki iz və rol, isıam dini, bəşər tarixi. |
| 4.1.2. Dövlətin və mədəniyyətin inkişafında tarixi şəxsiyyətlərin rolu ilə bağlı məlumatlar toplayır və | *Dövlətlərin yaranması və inkişafı, həmçinin elm və mədəniyyət tarixində iz qoymuş tarixi şəxsiyyətlər barədə müxtəlif mənbələrdən məlumat toplanılması və təqdimatların hazırlanması.* | Tarixdə iz, tarixi şəxsiyyətlər, inkişaf, məhşur, təqdimat. |

| | | |
|---|---|---|
| təqdimatlar hazırlayır. | | |
| | **5. Mədəniyyət** | |
| | ***5.1. Mədəniyyətləri və sivilizasiyaları qiymətləndirir.*** | |
| 5.1.1. Avropa və Şərq mədəniyyətinin inkişaf xüsusiyyətlərini izah edir. | *Avropa və Şərq mədəniyyətinin inkişaf xüsusiyyətlərini müəyyən edərək Şərq mədəniyyətinin daha qədim mədəniyyətə, şumer, türk və islam mədəniyyətindən qaynaqlanması. Şərq mədəniyyətinin fərqli olması, Şərqin elm və mədəniyyətin beşiyin olması, eləcədə Avropa mədəniyyətinin özünəməxsus keyfiyyətəri, yunan-roma mədəniyyəti, xristian dini-ideoloji baxışları əsasında formalaşan mədəniyyətin inkişaf xüsusiyyətlərin araşdırılaraq izah edilməsi.* | Şumer, türk, islam, memarlıq, elm, mədəniyyət, yunan-roma mədəniyyəti, xristian mədəniyyəti. |
| 5.1.2. Şərq mədəniyyətinin dünya mədəniyyətinə təsirini müəyyən edir. | *Şərqin qədim mədəniyyət mərkəzi olduğunu izah edərək şərq mədəniyyətinin dünya mədəniyyətinə verdiyi töhvələri, memarlıq və incəsənət, elm, islam mədəniyyəti və bu kimi keyfiyyətlərin müəyyən edilməsi.* | Elm, incəsənət, memarlıq, islam, şərq mədəniyyəti. |
| 5.1.3. Mədəniyyətlərin inkişafı ilə bağlı materiallar toplayır. | *Müxtəlif mədəniyyətlər haqqında, həmçinin şərq və qərb mədəniyyətlərin inkişafı ilə bağlı materialları araşdıraraq, yazılı və madddi mənbələrə, eləcədə digər informasiyalara istinad edilərək materialların toplanılması.* | Yazılı və maddi mənbələr, şərq və qərb mədəniyyəti, inkişaf. |
| | **VIII sinif** | |
| | **1. Tarixi zaman** | |
| | ***1.1. Tarixi faktların tarixi zamanla əlaqəsini anladığını nümayiş etdirir.*** | |
| 1.1.1. Oxşar tarixi faktların baş verdiyi zamandan irəli gələn fərqli cəhətlərini izah edir. | *Tarixdə baş verən oxşar tarixi faktların müxtəlif vaxtlarda baş verməsini, məsələn, baş vermiş kəndli üsyanlarının, döyüşlər və digər hadisələrin baş verdiyi vaxtdan irəli gələn fərqli cəhətlərini, yəni bu zamanın tələbi, hakimiyyət başında duran şəxs,* | Üsyan, döyüş, idarəçilik, zamanın tələbi. |

| | | |
|---|---|---|
| | *dövlətin vəziyyəti, idarəçilik sistemi və s. bu kimi halların fərqli cəhtlərinin izah edilməsi.* | |
| 1.1.2. Oxşar proses və hadisələri əlaqələndirən sinxron cədvəllər tərtib edir. | *Tarixdə baş vermiş oxşar proses və hadisələri məyyənləşdirilməsi, məsələn, Fransa və İngiltərədə baş vermiş kəndli üsyanlarının ümumi cəhətləini əks etdirən sinxron cədvəllərin tərtib edilməsi.* | Sinxronluq, əlaqə, cədvəl. |
| 1.1.3. Hadisə, təzahür və proseslər arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirən xronoloji cədvəllər tərtib edir. | *Hadisə, fakt, təzahür və proseslər arasında səbəb-nəticə əlaqələrini, yəni hər hansı bir ərazidə baş vermiş hadisələrin səbəb və nəticə əlaqələrini müəyyənləşdirən xronoloji, yəni zaman ardıcıllıqı ilə müəyyən olunmuş cədvəllərin tərtib edilməsi.* | Fakt, proses, təzahür, xronologiya, səbəb və nəticə. |
| | **2. Tarixi məkan** | |
| | ***2.1. Məkanda baş verən hadisə, proses və təzahürlərlə bağlı bilik və bacarıqlar nümayiş etdirir.*** | |
| 2.1.1. Feodal münasibətlərinin dağılması və kapitalist münasibətlərinin yaranmasını, dünyada baş vermiş iqtisadi, sosial dəyşiklikləri məkanla əlaqədə izah edir. | *Məhsuldar qüvvələrin və istehsal münasibətlərinin inkişafının feodal münasibətlərinin dağılmasına şərait yaratması, kapitala dayanan yeni bir quruluşun, kapitalizimin yaranması, onun daxilində dünyanın iqtisadi və sosial dəyiçikliklərinə gətirib çıxaran vəziyyətin hər hansı bir dövlətin yerləşdiyi məkanla əlaqədə izah edilməsi.* | Məhsuldar qüvvə, kapital, iqtisadi və sosial dəyişikliklər, əmtəə münasibətləri, azad işçi qüvvəsi. |
| 2.1.2. Dövlətlərin və xalqların həyatında baş verən ərazi dəyişikliklərini xəritə və sxemlərdəki məlumatlar əsasında kontur xəritələrə | *Müxtəlif dövlətlərin və xalqların həyatında baş verən ərazi dəyişikliklərini, yəni müharibələr və sülh müqavilələri əsasında dövlətlərin və xalqların ərazi baxımından yerini dəyişməsinin, verilən xəritə və sxemlərdəki məlumatlar əsasında kontur xəritələrə köçürürülməsi.* | Dəyişikliklər, xəritə, sxem, kontur xəritə, dəyişilmiş məkan. |

| | | |
|---|---|---|
| köçürür. | | |
| | **3.Dövlət** | |
| | ***3.1. Dövlətlərin yaranması, inkişafı və tənəzzülü ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.*** | |
| 3.1.1. Dövlətlərin (İngiltərə, Fransa, Rusiya, ABŞ, Osmanlı, İran, Çin, Hindistan, Mərkəzi Asiyanın türk dövlətləri, Qazaxıstan, Krım, Sibir, Volqaboyu, Qafqaz xalqları) yaranmasını, idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil edir. | *Dövlətlərin, İngiltərə, Fransa, Rusiya, ABŞ, Osmanlı, İran, Çin, Hindistan eləcədə Mərkəzi Asiyanın türk dövlətləri, Qazaxıstan, Krım, Sibir, Volqaboyu, Qafqaz xalqlarının dövlətlərinin yaranmasını, idarəçilik formalarını, monarxiya, konstitusiyalı monarxiya, imperiya, respublika, krallıq və digər idarəçilik formalarını, həmçinin onların siyasi vəziyyəti və siyasi mövqeyi, sosial-iqtisadi münasibətlərinin təhlil edilməsi.* | Idarəçilik, siyasi vəziyyət, monarxiya, respublika, krallıq, imperiya, konstitusiya, iqtisadiyyat. |
| 3.1.2. Yeni tipli dövlətlərin qeyri-bərabər inkişafına aid esse yazır. | *Yaranmış olan Yeni tipli dövlətlərin idarəçiliyi, onların müstəqillik uğrunda mübarizəsi, müstəmləkə əleyhinə üsyanlar və bu kimi hadisələrin təsiri nəticəsində yaranan qeyri-bərabər inkişafa aid essenin yazılması.* | Müstəqillik, müstəmləkə, yeni tipli dövlət. |
| | **4. Şəxsiyyət** | |
| | *4.1. Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir.* | |
| 4.1.1. Tarixi şəxsiyyətləri (Oliver Kromvel, Maksimilian Robespyer, I Pyotr, II Yekaterina, Corc Vaşinqton, Benjamin Franklin, Köprülü Mehmet paşa, III Səlim, Nadir şah, Ağa | *Tarixi şəxsiyyətləri - Oliver Kromvel, Maksimilian Robespyer, I Pyotr, II Yekaterina, Corc Vaşinqton, Benjamin Franklin, Köprülü Mehmet paşa, III Səlim, Nadir şah, Ağa Məhəmməd şah Qacar və başqalarının tarixdə qoyduğu izə və nüfuzuna görə, həmçinin onların döyüş və siyasi taktikasının fərqli istiqamətinə, idarəçilikdə qoyduğu fərqli qaydalara, qanunlara görə onların nifuz dairəsinin fəaliyyətlərinin* | Şəxsiyyət, idarəçilik üsulları, qanunlar və islahatlar, nüfuz dairəsi. |

| | | |
|---|---|---|
| Məhəmməd şah Qacar) müqayisə edir. | *dövr üçün əhəmiyyətli olmasınının müqayisəsi.* | |
| 4.1.2.Tarixi şəxsiyyətlərin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl hazırlayır. | *Tarixi şəxsiyyətlərin tarixdə qoyduğu izləri ilə, qanunları, qaydaları və qərarları, yaxud humanist, yenilikçi siyasətinə görə onların oxşar və fərqli cəhətləri ilə bağlı cədvəllər hazırlanması.* | Qanun, hərbi-siyasi fəaliyyət, idarəçilik, humanist siysət. |
| | **5. Mədəniyyət** | |
| | ***5.1. Mədəniyyətləri və sivilizasiyaları qiymətləndirir.*** | |
| 5.1.1. Şərq və Qərbdə intibah mədəniyyətinin xüsusiyyətlərini izah edir. | *Şərqdə və Qərbdə intibah mədəniyyətinin xüsusiyyətlərini, şərqdə intibah mədəniyyətinin islam mədəniyyəti dayaqları əsasında inkişaf edərək memarlıqda, elmdə və poeziyada daha çox diqqət çəkdiyinin, Qərbdə intibahın məhşur rəsm əsərləri ilə yadaşlarda qaldığının, eləcədə bu və başqa xüsusiyyətlərin izahının verilməsi.* | İntibah, oyanış, memarlıq, elm, poeziya, rəssamlıq. |
| 5.1.2. Elmi kəşf və ixtiraların dünya mədəniyyətinin inkişafına təsirini izah edir. | *Elmi kəşf və ixtiraların, məsələn, ilk dəfə kitab çapı üsulunun, texniki kəşflərin, cihazların yaraılması, müasir ali riyaziyyatın, mikroskopun yaradılması, çiçək xəstəliyinə qarşı peyvənd üsulunun, ilk hava şarı və sair yeniliklərin dünya mədəniyyətinin inkişafına təsirini izah edilməsi və münasibət bidirməsi.* | Cihaz, mikroskop, peyvənd, hava şarı. |
| 5.1.3. Dünya mədəniyyətinin nailiyyətlərinə dair cədvəl və qrafiklər hazırlayır. | *Dünya mədəniyyətinin nailiyyətlərinə, texniki kəşflərin, elmi-tədqiqat işləri üçün cihazların yaradılması, memarlıq, incəsənət və diğər nailiyyətlərə dair cədvəl və qrafiklər hazırlanması.* | Texniki və elmi kəşflər, ixtiralar. |
| | **IX sinif** | |
| | **1. Tarixi zaman** | |
| | ***1.1. Tarixi faktların tarixi zamanla əlaqəsini anladığını nümayiş etdirir.*** | |

| | | |
|---|---|---|
| *1.1.1. Müxtəlif ölkələrdə oxşar tarixi faktların müxtəlif zamanlarda baş vermәsinin səbəb və nəticələrini izah edir.* | *Ayrı-ayrı ölkələrdə oxşar tarixi faktların, yəni hər hansı bir üsyanların və kəndli müharibələrinin, eləcə də inqlabların müxtəlif zamanlarda baş verməsinin səbəb və nəticələrini araşdıraraq nəticələrin izah edilməsi.* | *Kəndli müharibəsi, burjua inqilabı, səbəb və nəticə.* |
| *1.1.2. Oxşar tarixi faktlarla baş verdiyi tarixi şərait arasındakı fərqi müəyyən edir.* | *Oxşar tarixi faktlarla, onların baş verdiyi müxtəlif yerlər və tarixi şərait arasındakı fərqin müəyyənləşdirilməsi. Məsələn Fransa burjua inqilabı ilə Almaniyada baş vermiş burjua inqilabının fərqini müəyyən edilməsi.* | *Tarixi fakt, zaman fərqi, oxşarlıq.* |
| *1.1.3. Mühüm tarixi faktların zaman əlaqəsini göstərən sinxron cədvəllər hazırlayır.* | *Mühüm tarixi faktların eyni zamanda baş verməsini, onlar arasında ardıcıllığın zaman əlaqəsini göstərən sinxron cədvəllərin hazırlanılması.* | *sinxronluq, xronologiya, fakt* |
| | ***2. Tarixi məkan*** | |
| | ***2.1 Məkanda baş verən hadisə, proses və təzahürlərlə bağlı bilik və bacarıqlar nümayiş etdirir.*** | |
| *2.1.1. Kapitalist münasibətlərinin inkişafı prosesində və müasir dünyada ölkələrin və xalqların sosial-siyasi, iqtisadi və mədəni həyatında baş verən dəyşiklikləri məkan baxımından qiymətləndirir.* | *Kapitalist münasibətlərinin inkişafı prosesində, dünyada baş vermiş iqtisadi, sosial və siyasi dəyişiklikləri, yəni dünyanın bölüşdürülməsi, bu bölüşdürmə nəticəsində sosial və iqtisadi dəyişikliklərin baş verməsini məkan baxımından qiymətləndirilməsi.* | *Dünyanın bölüşdürülməsi, siyasi və sosial-iqtisadi dəyişiklik, kapitalis münasibətləri.* |
| *2.1.2. Dövlətlərin ərazi dəyişikliklərini əks etdirən cədvəl və sxemlər hazırlayır.* | *Dövlətlərin ərazi dəyişikliklərini əks etdirən, yeni dövlətlrin yaranmasını, yaxud tənəzzül edib sıradan çıxmasını ərazi baxımından baş verən dəyişiklikləri əks etdirən cədvəl və qrafikləin hazırlanması.* | *Müharibə, sülh, yeni dövlətlər, tənəzzül, ərazi.* |

| | | |
|---|---|---|
| | ***3. Dövlət*** | |
| | ***3.1. Dövlətlərin yaranması, inkişafı və tənəzzülü ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir*** | |
| *3.1.1. Dünyanın (Avropa dövlətləri və Rusiya, ABŞ və Latın Amerikası ölkələri, Türk dünyası və Qafqaz xalqları, Asiya, Afrika ölkələri) siyasi inkişaf mərhələsini şərh edir.* | *Dünyanın siyasi inkişafını nəzərdən keçirərək bu inkişaf pilləsində özünəməxsus yer tutan Asiya, Avropa və Amerika dövlətlərinin öncüllüyünü, özünəməxsus siyasi inkişaf xətti götürməsini, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin siyasi inkişaf mərhələlərinin şərhinin edilməsi.* | *Siyasi arena, inkişaf pilləsi, inkişaf etmiş, inkişaf etməkdə olan ölkələr.* |
| *3.1.2. Dünyanın siyasi mənzərəsinə aid təqdimatlar hazırlayır.* | *Dünyanın siyasi mənzərəsi, dünya müharibələri və dünya müharibələrindən sonrakı vəziyyəti, ərazi dəyişiklikləri və hegemon dövlətlərin siyasi mənzərəsinə aid təqdimatların hazırlanması.* | *Dünya müharibəsi, siyasi mənzərə, hegemon dövlət, təqdimat.* |
| | ***4. Şəxsiyyət*** | |
| | ***4.1. Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir.*** | |
| *4.1.1. Tarixi şəxsiyyətlərin (I Napoleon, Cüzeppe Haribaldi, I Aleksandr, Sultan II Əbdülhəmid, Otto Bismark, Avraam Linkoln, Franklin Ruzvelt, Vladimir İliç Lenin, İosif Visarianoviç Stalin, Mustafa Kamal Atatürk, Sun Yatsen, Şarl de Qoll, Konrad Adenauer, Turqut Özal,* | *Tarixi şəxsiyyətlərin I Napoleon, Cüzeppe Haribaldi, I Aleksandr, Sultan II Əbdülhəmid, Otto Bismark, Avraam Linkoln, Franklin Ruzvelt, Vladimir İliç Lenin, İosif Vissarianoviç Stalin, Mustafa Kamal Atatürk, Sun Yatsen, Şarl de Qoll, Konrad Adenauer, Turqut Özal, Mao Tszedun, Cəvahirləl Nehru, Heydər Əliyev və başqalarının fəaliyyətini sosial qrupların mənafeyi baxımından təhlil etməklə onlara münasibət bildirilməsi.* | *Şəxsiyyət, idarə etmə üsulları, sosial qrup.* |

| | | |
|---|---|---|
| *Mao Tszedun, Cəvahirləl Nehru, Heydər Əliyev) fəaliyyətini sosial qrupların mənafeyi baxımından təhlil etməklə onlara münasibət bildirir.* | | |
| *4.1.2. Topladığı materiallar əsasında tarixi şəxslərə dair esse və hekayələr yazır.* | *Tarixi şəxsiyyətlərə dair müxtəlif materiallar toplayaraq onlar haqqında esse və hekayələrin yazılması. Məsələn, Napoleon haqqında mənbələr toplayıb esse və hekayə yazılması.* | *Esse, hekayə, materiallar.* |
| | **5. Mədəniyyət** | |
| | ***5.1. Mədəniyyətləri və sivilizasiyaları qiymətləndirir.*** | |
| *5.1.1. Mədəniyyətlərin inkişafına təsir edən amilləri izah edir.* | *Mədəniyyətlərin inkişafına təsir edən amilləri, qarşılıqlı ticarət əlaqələrinin və amillərin izah edilməsi.* | *Inkişaf, qarşılıqlı əlaqə, ticarət.* |
| *5.1.2.Mədəniyyətlərarası və sivilizasiyalararası qarşılıqlı təsiri və ziddiyyətləri izah edir.* | *Müxtəlif ölkələrin mədəniyyətləri arasındakı qarşılıqlı təsiri və sivilizasiyalararası ziddiyətlərin izah edilməsi.* | *Sivilizasiyalararası ziddiyyət, mədəniyyət, qarşılıqlı əlaqə.* |
| *5.1.3. Mədəniyyətlərarası və sivilizasiyalararası əlaqələrə dair esse və hekayələr yazır.* | *Mədəniyyətlərarası və sivilizasiyalararası əlaqələrə dair, yəni onların qarşılıqlı münasibəti, birgə inkişafı və bir-birinə təsirinə aid müxtəlif mənbələrə istinad edərək esselər və hekayələrin yazılması.* | *mənbə, sivilizasiya, mədəniyyət, inkişaf, təsir.* |
| | **X sinif** | |
| | **1. Tarixi zaman** | |
| | ***1.1. Tarixi faktları tarixi zamanla əlaqədə qiymətləndirir.*** | |
| 1.1.1.Asılı və müstəmləkə xalqlarının | *Asılı və müstəmləkə xalqlarının müstəmləkəçilərə qarşı mübarizəsini, milli-azadlıq* | Müstəmləkə, milli- |

| | | |
|---|---|---|
| milli-azadlıq hərəkatını tarixi zamanla əlaqədə dəyərləndirir. | *hərəkatını, dövrə uyğun olaraq, tarixi zamanla əlaqədə dəyərləndirilməsi* | azadlıq hərəkatı, üsyan, mübarizə. |
| 1.1.2. Ölkələrdə baş verən oxşar sosial-iqtisadi hadisə və prosesləri zaman baxımından tarixi şəraitlə əlaqədə müqayisə edir və dəyərləndirir. | *Müxtəlif ölkələrdə baş verən oxşar sosial-iqtisadi hadisə və proseslərin dövrün ictimai-siyasi vəziyyətinə uyğun olaraq, həmçinin zaman baxımından tarixi şəraitlə əlaqədə müqayisə edilib dəyərləndirilməsi.* | Oxşar sosial-iqtisadi hadisələr, tarixi şərait, ictimai-siyasi vəziyyət. |
| 1.1.3. Ölkələrdə baş verən oxşar mədəni hadisə və prosesləri baş verdiyi tarixi zamanla əlaqədə dəyərləndirir. | *Müxtəlif ölkələrdə baş vermiş oxşar mədəni hadisə və prosesləri baş verdiyi tarixi zamana görə müəyyənləşdirərək dəyərləndirilməsi.* | Mədəni hadisə və proses, tarixi zaman. |
| 1.1.4. Dünyada və Azərbaycanda baş verən hadisə, proses və təzahürlər arasında əlaqələri tarixi zaman baxımından izah edir. | *Dünyada, eləcədə Azərbaycanda baş verən hadisələrin, proses və təzahürlər arasındakı əlaqələrin tarixi zamanla, müasir dövrlə əlaqələndirərək izah edilməsi.* | Proses, təzahür, əlaqə, hadisə. |
| | **2. Tarixi məkan** | |
| | ***2.1 Məkanda baş verən hadisə, proses və təzahürlərlə bağlı bilik və bacarıqlar nümayiş etdirir.*** | |
| 2.1.1.Müxtəlif tarixi dövrlərdə ölkələrin və xalqların sosial-iqtisadi və mədəni həyatında baş verən dəyişiklikləri məkan baxımdan | *Müxtəlif tarixi dövrlərdə, ibtidai icma, quldarlıq, feodalizim və kapitalizim dövründə ölkələrin və xalqların sosial-iqtisadi və mədəni həyatında baş verən dəyişiklikləri, onların tənəzzülünü və inkişafının yerləşdiyi ərazi baxımdan qiymətləndirilməsi.* | Tənəzzül, ibtidai icma, quldarlıq, feodalizim, kapitalizim, sosial- |

| | | |
|---|---|---|
| qiymətləndirir. | | iqtisadi, mədəni həyat. |
| 2.1.2. Dünya ölkələrində baş verən geosiyasi dəyişiklikləri müxtəlif formalarda (xəritə, sxem, cədvəl) təqdim edir. | *Dünyada mövcud olan ölkələrin geosiyasi, yəni siyasi baxımdan ərazi dəyişikliyinə uğramasını müxtəlif formalarda xəritə, sxem, cədvəl şəkilində hazırlayaraq təqdim edilməsi.* | Geosiyasi, ərazi dəyişikliyi. |
| | **3. Dövlət** | |
| | ***3.1. Dövlətlərin inkişafını siyasi, sosial-iqtisadi münasibətlərin xarakterinə görə qiymətləndirir.*** | |
| 3.1.1. Cəmiyyətin inkişafının kapitalizimə qədərki dövründə dövlətlərin (Afrika ölkələri, Asiya, Avropa və Amerikanın aparıcı dövlətləri) yaranması və inkişafı prosesini, geosiyasi dəyişiklikləri izah edir. | *Cəmiyyətin inkişafının kapitalizmə qədərki, yəni kapitalizmdən öncəki dövründə Avropa dövlətləri və Rusiya, ABŞ və Latın Amerikası ölkələri, Asiya, Afrika dövlətlərinin yaranması və inkişafı prosesinin, müharibə nəticəsində və dinc şəraitdə yaranmış geosiyasi dəyişikliklərin izah edilməsi.* | Kapitalizmə qədərki, cəmiyyət,Avropa dövlətləri və Rusiya, ABŞ və Latın Amerikası ölkələri, Türk dünyası və Qafqaz xalqları, Asiya, Afrika ölkələri, inkişaf prosesi, geosiyasi dəyişikliklər. |

| | | |
|---|---|---|
| 3.1.2. Geosiyasi dəyişikliklərin cəmiyyətin sosial-iqtisadi həyatına təsirini şərh edir. | *Baş vermiş müharibələr və işğallar zamanı yaranmış olan geosiyasi dəyişikliklərin, yəni siyasi baxımdan sərhəd və məkan dəyişikliyinin, cəmiyyətin sosial-iqtisadi həyatına təsirinin şərhi.* | Işğal, müharibə, ərazi dəyişikliyi, siyasi vəziyyət, məkan dəyişikliyi. Sərhədlərin dəyişməsi, sosial-iqtisadi vəziyyət. |
| 3.1.3. Mənbələr əsasında dövlətlərin tarixinə dair materiallar toplayır və məruzələr hazırlayır. | *Dövlətlərin tarixinə dair müxtəlif mənbələrə, maddi və yazılı mənbələrə müraciət edərək materiallar toplayaraq onların əsasında məruzələr hazırlanması.* | Maddi və yazılı mənbə, materialların toplanılması, məruzələrin hazırlanması. |
| | **4. Şəxsiyyət** | |
| | ***4.1. Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir.*** | |
| 4.1.1. Tarixi şəxsiyyətləri (II Ramzes, Hamurapi, II Kir, I Dara, İsgəndər, Yuli Sezar, Konstantin, Attila, Məhəmməd Peyğəmbər, Böyük Karl, Alp Arslan, Çingiz xan, II Mehmet Fateh, Əmir Teymur, Sultan Süleyman Qanuni, Şah İsmayıl, I Təhmasib, IV İvan) mənsub olduqları | *Dövlətlərin və cəmiyyətin həyatında mühüm rol oynamış tarixi şəxsiyyətləri, II Ramzes, Hammurapi, II Kir, I Dara, Mete xaqan, İsgəndər, Perikl, Yuli Sezar, Konstantin, Attila, Məhəmməd peyğəmbər, Böyük Karl, Mahmud Qəznəvi Alp Arslan, Çingiz xan, Fateh II Mehmet, Əmir Teymur, Sultan Süleyman Qanuni, Şah İsmayıl, I Təhmasib, Oranlı Vilhelm, IV İvan və başqalarının daxili və xarici siyasətini, onların fəaliyyətlərinin səciyyəvi cəhətlərini müxtəlif sosial qrupların mənafeyi baxımından araşdıraraq qiymətləndirilməsi.* | Şəxsiyyət, idarə etmə üsulları, yürüşləri, kəndli, ağa, sosial qruplar, mənafe. |

| | | |
|---|---|---|
| dövlətlərin mənafeyi baxımından qiymətləndirir. | | |
| 4.1.2. Tarixi şəxsiyyətlərin fəaliyyətinə dair məruzə və referatlar hazırlayır. | *Oliver Kromvel, Maksimilian Robespyer, I Pyotr, II Yekaterina, Corc Vaşinqton, Benjamin Franklin, Köprülü Mehmet paşa, III Səlim, Nadir şah, Ağa Məhəmməd şah Qacarı və başqalarının şəxsiyyət kimi tarixdə mühüm rol oynaması, dövlət quruculuğu, idarəçilik və s. fəaliyyətinə dair müxtəlif mənbələr üzrə məlumatlar toplamaqla məruzə və referatların hazırlanması.* | Dövlət quruculuğu, idarəçilik, fəaliyyət, mənbə. |
| | **5. Mədəniyyət** | |
| | ***5.1. Mədəniyyətləri və sivilizasiyaları qiymətləndirir.*** | |
